

# Rusiyanın Ermənistanı dirçəltmə planının pərdəarxası

*Ermənistan Baş Qərargah rəisi Onik Qasparyan vəzifədən uzaqlaşdırılıb. Onun yerinə sabiq Qərargah rəisi Artak Davatyan yenidən təyin olunacaq. Bununla Paşinyan Baş Qərargahı özünə tabe etdirməklə, Moskvanın Ermənistanda planın fiaskoya uğratmış olacaq. Artıq proseslər bu istiqamətdə gedir.*

Səh.13



# Hacıbala Abutalıbov gözəlləşdirdiyi şəhəri niyə tərk elədi...


# UNİKAL

№10 (2048) 12 mart 2021-ci il

Qiyməti 40 qəpik

Qurucusu: Asəf Rzayev

www.unikal.org

unikal-1@mail.ru


Səh.8



# Bayram öncəsi qiymət artımı narazılığa səbəb olub

## Sabiq mer vəzifədə ikən büdcə pulları ilə aldığı bahalı dekorativ ağacları axırda təbiət qoynuna, təbii yaşıllıqlara dəyişdi

*Yola salmaq üzrə olduğumuz həftənin maraqlı xəbərlərindən biri də Bakı Şəhər İcra Hakimiyyətinin sabiq başçısı və Baş nazirin keçmiş müavini Hacıbala Abutalıbov barəsində oldu. Həmin xəbərdə deyilirdi ki, Abutalıbov paytaxtdan köçüb. Hacıbala müəllimin yaxınlarının yerli mediaya verdiyi məlumatda bildirilirdi ki, Hacıbala müəllim artıq bir müddətdir ki, Bakıda yaşamır. Onun hazırda Qax rayonunun İlisu kəndində məskunlaşdığı bildirilir. Məlumata görə, Abutalıbov hələ vəzifədəykən İlisuda dəbdəbəli villa tikdirib və indi orada yaşayır. Əlbəttə, Hacıbala müəllimin harada yaşaması onun öz seçimidir. Elə uzun illər yüksək vəzifələr tutduqdan sonra yaşının ahıl vaxtında sakitliyə çəkilməsində, təbiət qoynunu özünə məskən eləməsində də təəccüblü heç nə yoxdur.*

Səh.12

## "Köhnə qvardiyanın YAP-dan kənarlaşdırılması durğunluğa son qoyacaq"



*Hakim Yeni Azərbaycan Patiyasının (YAP) qurultayında baş verən dəyişikliklər ölkədə islahatların davamlı olacağı ilə bağlı müzakirələrə yol açıb. YAP-dan köhnə qvardiyanın kənarlaşdırılması, yeni simaların önə çəkilməsi, köhnə strukturun ləğvi bundan sonra idarəetmədə fərqli istiqamətlərin götürüləcəyi düşünməyə əsas verir.*

Səh.4

## Əsabil Qasımovun şirkəti yenidən tənqid hədəfində



*Hələ ötən ayın sonlarına doğru İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti son vaxtlar bəzi KİV-də çörəyin pərakəndə satış qiymətinin artması barədə yayılan məlumatlara münasibət bildirmiş və qeyd etmişdi ki, çörəyin pərakəndə satışı bazarında...*

Səh.6

## Ermənistanın törətdiyi ekoloji terror Dağlıq Qarabağ həqiqətləri olaraq dünyaya çatdırılmalıdır



*Ermənistanın 28 il Azərbaycan torpaqlarını işğal altında saxlaması nəticəsində Azərbaycan dövlətinə külli miqdarda ziyan dəyib. Həmin ərazilərdə tarixi- mədəni abidələrin, məscidlərin dağıdılması, məzarlıqlara belə vandal münasibət mənəvi baxımdan ziyan vurmaqla yanaşı, şəhər və kəndlərimizin dağıdılması...*

Səh.15

# İlham Əliyevin çıxışı ermaniləri təşvişə salıb



***Ermənistanda Azərbaycan prezidenti İlham Əliyevin hər yeni açıqlaması təşviş yaradır.***

"Unikal" Ermənistan KİV-nə istinadən xəbər verir ki, "Çiçəklənən Ermənistan" partiuyasının üzvü, deputat Taron Simonyan İlham Əliyevin Azərbaycanın hərbi qüdrəti barədə verdiyi açıqlamalar, həmçinin martın 15-də Azərbaycan Ordusunun həyata keçirəcəyi genişmiqyaslı hərbi təlimlər fonunda həyəcanlı açıqlama verib.

O, Ermənistanın təcili şəkildə BMT Təhlükəsizlik Şurasına müraciət edərək yardım istəməli olduğunu deyib.

"Martın 15-16-sı tarixlərində Azərbaycan hərbçilərinin qəmli Qars müqaviləsinin 100 illiyinə həsr etdikləri hərbi təlimlər güc nümayişidir. Güc nümayişi isə güc tətbiqinə işarə olduğu üçün mənzərə tam açıqlacaq"- deyə Simonyan əlavə edib.

# Baş nazir sərəncam imzaladı

***Baş nazir Əli Əsədov dərman vasitələrinin idxalı barədə sərəncamlar imzalayıb.***

"Unikal" xəbər verir ki, sərəncama əsasən, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə Rusiya Federasiyasının "HUMAN VACCINE" MMC Şirkəti arasında imzalanmış dərman vasitəsinin tədarükünə dair təchizat Sazişinə əsasən 300 000 (üç yüz min) doza "Sputnik V" dərman vasitəsinin Azərbaycana idxalı 180 (yüz səksən) gün müddətində həyata keçiriləcək.



Digər sərəncama əsasən, İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyi ilə GAVİ ALLİANCE arasında imzalanmış dərman vasitəsinin tədarükünə dair 2020-ci il 18 sentyabr tarixli Sazişə əsasən İsveç Krallığının "AztraZeneca" Şirkətinə məxsus 432 000 doza COVID-19 vaksin dərman vasitəsinin Azərbaycana idxalı 180 (yüz səksən) gün müddətində həyata keçiriləcək.

Səhiyyə Nazirliyi və İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinə bu sərəncamlardan irəli gələn məsələlərin həllini təmin etmək tapşırılıb.

Sərəncamlar imzalandığı gündən qüvvəyə minir.

# Əli Əsədov Milli Məclisə hesabat verəcək

***Milli Məclisin yaz sessiyasının növbəti iclasının vaxtı açıqlanıb.***



"Unikal"ın məlumatına görə, Milli Məclisin yaz sessiyasının növbəti iclasının martın 16-da keçirilməsi nəzərdə tutulur.

İclasda hökumətin hesabatı dinləniləcək. Hesabatı Baş nazir Əli Əsədovun təqdim edəcəyi gözlənilir.

# XİN-dən erməni əsilli Livan vətəndaşının geri qaytarılması ilə bağlı açıqlama

***"Livanın Burc Hammud ərazisində anadan olan Maral Nacaryan (Maralle Najarian) həm Ermənistan, həm də Livan vətəndaşlığına malikdir. Keçmiş münaqişə bölgəsində Azərbaycan hüquq-mühafizə orqanları tərəfindən birgə yaşadığı erməni əsilli Livan vətəndaşı ilə birlikdə saxlanılmışdır".***

Unikal.org xəbər verir ki, bunu Xarici İşlər Nazirliyinin (XİN) Mətbuat xidməti idarəsinin rəisi Leyla Abdullayeva bildirib. "O, Azərbaycan ərazisinə qanunsuz daxil olması və Azərbaycan qanunvericiliyini pozan digər hərəkətlərə yol verməsi barədə ifadələr vermişdir.

Azərbaycan tərəfinin nümayiş etdirdiyi humanizm nəticəsində M.Nacaryan, bu ilin 10 mart tarixində azad edilib.

Qeyd etmək istərdik ki, o, şəxsən Ermənistana deyil, Livana qayıtmağa üstünlük verib. Qeyd etmək istərdik ki, Rusiya tərəfi ilə aparılan müzakirələr nəticəsində Livan vətəndaşı olduğu üçün onun Rusiya ərazisindən göndərilməsi mümkün olmayıb. Bu səbəbdən M.Nacaryan Türkiyə üzərindən Livana geri göndərilib.

Ümumiyyətlə bildirmək istərdik ki, hazırda Azərbaycanda saxlanılan erməni əsilli qadın yoxdur. Vətən müharibəsi zamanı saxlanılan 5 qadın, əksəriyyəti hətta hərbi əməliyyatlar davam edən zamanı sərbəst buraxılıb", - XİN rəsmisi vurğulayıb.



# YAP Gənclər Birliyinin yeni sədri bu şəxs oldu



***Yeni Azərbaycan Partiyasının Gənclər Birliyinin yeni sədri seçilib.***

Unikal.org xəbər verir ki, YAP-ın Gənclər Birliyinin bu gün keçirilən iclasında sədr seçkisi keçirilib.

Bəxtiyar İslamov YAP Gənclər Birliyinin sədri seçilib.

# BNA-dan hava ilə bağlı piyada və sürücülərə müraciət

***Sabah paytaxtda hava şəraitinin kəskin dəyişəcəyi ilə əlaqədar çovğun olacağı və bəzi yerlərdə qar yağacağı ehtimal edilir.***

Unikal.org xəbər verir ki, bu barədə Bakı Nəqliyyat Agentliyinin (BNA) hərəkət iştirakçılarına müraciətində bildirilir.

"Hava şəraitinin dəyişməsi ilə bağlı sürücülərə xüsusən enişli-yoxuşlu yollarda yarana biləcək qəza və digər xoşagəlməz halların qarşısının alınması üçün diqqətli olmaları tövsiyə edilir.

Sürücülərə tövsiyə edirik ki, sürət həddinə əməl etməklə yanaşı, meteoroloji amilləri nəzərə alsınlar və digər hərəkət iştirakçılarına qarşı anlayışla davransınlar. Ümumilikdə isə qarlı və şaxtalı hava şəraitinin davam etdiyi günlərdə ictimai nəqliyyatdan istifadəyə üstünlük verilməsini tövsiyə edirik.

Sərnişinlərdən avtobus dayanacaq pavilyonlarında gözləyərkən diqqətli olmaları, dayanacaq məntəqəsinin ərazisindən kənarda avtobusa minib-düşməmələri xahiş edilir.

Həmçinin, Nəqliyyat Mübadilə Mərkəzlərinin ərazisində eyni qaydalara riayət edilməlidir. Eyni zamanda, piyadalara yolu qarşı tərəfə keçərkən mütləq qaydada piyada keçidlərindən istifadə etmələrini tövsiyə edirik", - deyə qurum bəyan edib.

## ELAN


Saatlı rayonu Mirzə Fətəli Axundov kəndinin sakini Abdullayev Güloğlan Sədyar oğlunun (05.01.1968) adına verilmiş torpağa mülkiyyət hüququna dair dövlət aktı (J№166, kod 90800078) itdiyi üçün etibarsız sayılır.

***

Saatlı rayonu Mirzə Fətəli Axundov kəndinin sakini Abdullayev İlqar Sədyar oğlunun (20.09.1969) adına verilmiş torpağa mülkiyyət hüququna dair dövlət aktı (J№165, kod 90800078) itdiyi üçün etibarsız sayılır.


# Azərbaycanda koronavirusa yoluxanların sayı 600-ü keçdi

***Azərbaycan Respublikasında koronavirus (COVID-19) infeksiyasına 608 yeni yoluxma faktı qeydə alınıb, 128 nəfər müalicə olunaraq sağalıb.***

Nazirlər Kabineti yanında operativ qərargahdan "Unikal"a verilən məlumata görə, COVID-19 üçün götürülən analiz nümunələri müsbət çıxmış be. nəfər vəfat edib. Azərbaycanda indiyədək ümumilikdə 238 383 nəfər koronavirus infeksiyasına yoluxub. Onlardan 230 244 nəfər müalicə olunaraq sağalıb, 3 262 nəfər vəfat edib, aktiv xəstə sayı 4877 nəfərdir. Ölkədə son sutka ərzində 10 503, hazırkı dövrədək isə 2 682 116 test aparılıb.


Baş redaktor:
Zaur Əhməd

"Turanbank" ASC Binəqədi filialı.
h/h AZ74TURA41040011963500110944
M/h AZ26NAB01350100000000027944
Kod: 50462
Şəhadətnamə № 3150
Ünvan: 8 mk-r. Ə.Naxcıvani 5N
Tel./Fax:(012) 561-65-53

Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnmiş və "Futbol+" servis mətbəəsində çap olunmuşdur

Sifariş 252.
Tiraj:2500


# Laçın polisi ermənilərin atıb qaçdığı silah-sursatı aşkarladı



***Xocavənd rayonunda erməni hərbi birləşmələrinin ataraq qaçdığı silah-sursat aşkarlanıb.***

Daxili İşlər Nazirliyinin mətbuat xidmətinin Bərdə regional qrupundan verilən məlumata görə, Laçın Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən keçirilmiş növbəti belə tədbir zamanı Xocavənd rayonunun Üçtəpə adlanan ərazisində erməni hərbi birləşmələrinin ataraq qaçdığı bir ədəd avtomat, bir ədəd karabin, bir ədəd tüfəng, səkkiz ədəd RQD-5 əl qumbarası və alışdırıcıları, 20 ədəd avtomat sandığı, 3 500-ə yaxın avtomat və pulemyot gülləri aşkar edilərək aidiyyəti üzrə təhvil verilib.

# İcra başçısı ehtiyatda olan baş leytenanta vəzifə verdi

***Qax Rayon İcra Hakimiyyətində yeni kadr təyinatı olub.***

Unikal.org xəbər verir ki, Vətən mübaribəsi iştirakçısı Malik Yusif oğlu Həmzəyev RİH başçısı aparatının Vətən müharibəsi iştirakçıları və şəhid ailələri ilə işin təşkili şöbəsinin müdiri vəzifəsinə təyinat alıb.

Qeyd edək ki, hazırda ehtiyatda olan baş leytenant Malik Həmzəyev 2020-ci il sentyabrın 27-də başlanan 44 günlük Vətən müharibəsində iştirak edib. Azərbaycan Respublikası Prezidentinin 15 dekabr 2020-ci il tarixli sərəncamı ilə "Qubadlının azad olunmasına görə" medalı ilə təltif olunub.

# İqtisadi məsələlər üzrə İşçi Qrupun iclası keçirilib



***Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həlli məqsədilə yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin İqtisadi məsələlər üzrə İşçi Qrupunun iclası kecirilib.***

"Unikal" xəbər verir ki, iclasda Azərbaycanın işğaldan azad edilmiş ərazilərində bərpa və yenidənqurma işlərində xarici şirkətlərin iştirakı məsələsi müzakirə edilib.

Bildirilib ki, bu ərazilərdə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi ilə bağlı müraciətlərin qəbulu, təhlili, sahibkarların məlumatlandırılması, müvafiq tövsiyələrin verilməsi və müraciətlərin aidiyyəti olaraq yönləndirilməsi İqtisadiyyat Nazirliyinin tabeliyində Kiçik və Orta Biznesin İnkişafı Agentliyi tərəfindən təmin olunur. Agentliyə təqdim edilmiş investisiya layihələrinin prioritetliyi təhlil olunur, potensial layihələr müəyyənləşdirilir və informasiya bazasına daxil edilir.

İşğaldan azad olunmuş ərazilərdə sahibkarlıq fəaliyyətinin həyata keçirilməsi məqsədilə fiziki və hüquqi şəxslər tərəfindən indiyədək Agentliyə 409 müraciət daxil olub. Bu müraciətlərin 104-ü (25%) ticarət və xidmət, 93-ü (23%) sənaye, 69-u (17%) kənd təsərrüfatı, 70-i (17%) tikinti, 34-ü (8%) turizm, 5-i (1,2%) təhsil, 1-i (0,2%) nəqliyyat və logistika və 33-ü (8,5%) isə digər sahələri əhatə edir. Həmin müraciətlərdən 53-ü 12 xarici ölkəni (əsasən Türkiyə, Rusiya, Pakistan, Macarıstan, Qazaxstandan olmaqla) təmsil edən şirkətlər tərəfindən təqdim edilib.

Müraciət edən xarici şirkətlər işğaldan azad olunmuş ərazilərin bərpa və yenidənqurma işlərində investor və ya podratçı kimi iştirak etmək niyyətindədir.

İclasda xarici şirkətlərin secilməsində təcrübə, ixtisaslaşma, yüksək keyfiyyət və münasib qiymət amilləri nəzərə alınacaq, yeni texnologiya gətirən və yerli resurslardan (maddi və əmək resurslarından) istifadə edən şirkətlərə üstünlük veriləcəyi vurğulanıb. Tədbirdə həmçinin, prioritet sahələr üzrə hazırlanmış layihələrin açıq platformada Azərbaycan, ingilis, türk və rus dillərində yerləşdirilməsi təklif edilib.

İclasda bildirilib ki, İqtisadiyyat Nazirliyi tərəfindən hazırlanan "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinin 2021-2025-ci illər üzrə bərpası və dayanaqlı inkişafı" Dövlət Proqramında investisiya cəlbediciliyinin artırılması üçün investisiya təşviqi mexanizmi nəzərdə tutulur.

Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 24 noyabr tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahına Prezident Administrasiyasının rəhbəri Samir Nuriyev rəhbərlik edir.

***Z.Məmmədli***

# Siyasi dialoq mühiti dərinləşir

## Deputatlar Ədalət Vəliyevlə keçirilən görüşdən danışdılar

***Martın 10-da "Siyasi dialoqun Azərbaycan modeli: qanunvericilik hakimiyyətinin rolu" mövzusunda konfrans keçirilib.***

Videokonfrans formatında keçirilən tədbirdə Milli Məclisin sədri Sahibə Qafarova, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin müdiri Ədalət Vəliyev, Milli Məclisdə təmsil olunan siyasi partiyaların rəhbərləri və nümayəndələri, Milli Məclisin 80-dək deputatı iştirak edib.

Ölkədə siyasi dialoq mühitinin daha da dərinləşdirilməsi məqsədilə gerşəkləşən konfransın əhəmiyyəti yüksək qiymətləndirilir.

"Unikal" xəbər verir ki, modern.az mövzu barədə deputatların fikirlərini öyrənib. Deputat Musa Quliyev bildirib ki, Prezident Administrasiyasında qanunverici hakimiyyət və siyasi partiyalarla iş şöbəsinin yaradılması ölkədə siyasi dialoqun canlanmasına gətirib çıxarıb: "Yeni şöbə fəaliyyətinə uğurla davam edir. Ədalət Vəliyevin rəhbərliyi altında işləyən şöbə ilə sıx əlaqələr qurmuşuq və dəfələrlə konfranslar keçirilib. Təəssüf ki, pandemiya səbəbi ilə əyani görüşlərimiz baş tutmayıb. Konfranslarımızda aktual məsələlər müzakirə olunur. Eyni zamanda, qanunverici hakimiyyət qarşısında duran vəzifələr bir daha təhlil olunur. İcra hakimiyyəti orqanlarına deputatların müraciətlərinin nəticələri müzakirə edilir. O cümlədən beynəlxalq və daxili siyasət funksiyasını da yerinə yetiririk. Biz müxtəlif beynəlxalq qurumlarda nümayəndəlik şəklində təmsil olunuruq və orada Azərbaycanın maraqlarının qorunmasında öz töhfəmizi veririk. Bütün bunlar ölkədə demokratik idarəetmənin daha da yüksəlməsi, hakimiyyət qolları arasındakı əlaqələrin sıxlaşması və cənab Prezidentin müəyyən etdiyi siyasətin həyata keçirilməsində qanunverici hakimiyyətin daha fəal olmasını təmin edir. Dünənki konfransda da bu məsələlər müzakirə olunub. Sonuncu qurultayda Prezidentin dediyi kimi, artıq yeni bir dövr başlayır. Bu reallığı da biz yaratmışıq. Bu reallıqdan irəli gələn yeni çağırışlar var. Bu çağırışlara xalqın hazır olması üçün birgə fəaliyyətimiz çox vacibdir. Bu mənada Siyasi partiyalar və qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsinin Milli Məclislə əlaqələrini olduqca faydalı hesab edirəm. Bu cür görüşlər gələcəkdə parlamentin fəaliyyətinin yüksəlməsində və hər iki hakimiyyət qolu arasındakı münasibətlərin güclənməsində mühüm rol oynayacaq".

Deputat Erkin Qədirli Prezident Administrasiyası ilə Milli Məclis arasında keçirilən görüşə müsbət baxdığını deyib: "Hazırda karantin səbəbi ilə onlayn görüşlər keçirilir. Gələcəkdə epidemioloji vəziyyət düzələrsə canlı görüşərik. Hesab edirəm ki, başlanğıc üçün çox yaxşı təşəbbüsdür. Unutmayaq ki, Ədalət Vəliyevin rəhbərlik etdiyi şöbə həm də qanunvericilik hakimiyyəti ilə əlaqələr şöbəsidir.




Düşünürəm ki, qanunverici əlaqələr siyasi partiyalarla əlaqələrdən daha önəmlidir. Əksər demokratik ölkələrdə icra və qanunverici hakimiyyətlər arasında əlaqələr olur. Bu, yalnız iqtidar partiyası və parlamentdəki fraksiyalar vasitəsi ilə olmur. Bir çox ölkədə Prezidentin parlamentdə səlahiyyətli nümayəndəsi olur. O, parlamentə qanunvericilik təşəbbüsü çərçivəsində layihələr təqdim edir, deputatların suallarına cavab verir. Düzdür biz hələ oralara gəlməmişik, lakin dediyim kimi, başlanğıc üçün yaxşı addımdır. Ümid edirəm ki, bu, gələcəkdə Prezidentin Milli Məclisdə nümayəndəsi təsisatına gətirib çıxaracaq. Həmin şöbənin rəhbəri də o funksiyanı daşıyacaq. İstənilən halda, icra hakimiyyəti ilə əməkdaşlıq bizim üçün önəmlidir. Nisbətən tez bir zamanda rahat keçid lazımdır. Əlaqələr sıxlaşdıqca yeni ənənələr yarana bilər".

***Namidə***



# Nazir regional idarəyə yeni rəis təyin etdi

***Xaçmaz Regional Mədəniyyət İdarəsinə yeni rəis təyin edilib.***

"Unikal" xəbər verir ki, bununla bağlı mədəniyyət naziri Anar Kərimov müvafiq əmr imzalayıb.

Əmrə əsasən, Xaçmaz Regional Mədəniyyət İdarəsinin rəisi vəzifəsi Vüsal Hüseynova həvalə olunub.

O, bu təyinata qədər Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyinin Dövlət Sosial Müdafiə Fondunun Quba Rayon Şöbəsinin rəisi vəzifəsində işləyib.

Qeyd edək ki, fevral ayında Mədəniyyət Nazirliyinin Xaçmaz Regional Mədəniyyət İdarəsinin rəisi Nazim Ağayev işdən çıxarılıb.

# Zakir Həsənov MOİK-in rəisini işdən çıxardı

***Müdafiə Nazirliyinin Mərkəzi Ordu İdman Klubunun (MOİK) rəhbərliyində dəyişiklik edilib.***

MOİK-in rəisi polkovnik Elxan Məcidov tutduğu vəzifədən azad olunub.

Müdafiə Nazirliyinin Mətbuat xidmətindən "Report"un sorğusuna cavab olaraq bildirilib ki, həmin vəzifənin icrası müvəqqəti olaraq polkovnik-leytenant Mənsur Nəcəfova həvalə edilib.

Xatırladaq ki, Elxan Məcidov MOİK-ə 2019-cu ildən rəhbərlik edirdi.

# YAP-da Qadınlar Şurasının əvəzinə yeni şöbə yaradıldı

***Yeni Azərbaycan Partiyasında yeni şöbə yaradılıb. Bu barədə YAP Mətbuat xidmətinin rəhbəri Hüseyn Paşayev məlumat verib.***

H.Paşayev bildirib ki, YAP-ın VII qurultayında qəbul edilmiş yeni nizamnaməyə əsasən, Qadınlar Şurasının fəaliyyətinə xitam verilib.

Onun sözlərinə görə, qadın siyasəti, qadınlarla iş fəaliyyətini Yeni Azərbaycan Partiyasının Mərkəzi Aparatında yaradılan Gender siyasəti şöbəsi həyata keçirəcək.

# "YAŞAT"la Türkiyə Ordusundakı fondlar arasında protokol imzalanacaq

***Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyevin rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyə Respublikasında səfərdədir.***

Səfər çərçivəsində nümayəndə heyəti Ankarada Heydər Əliyev Parkını ziyarət edib, ümummilli liderin xatirəsi ehtiramla yad edilib, abidəsi önünə əklil qoyulub.

Nümayəndə heyəti tərəfindən, həmçinin Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün məzarı - Anıtqəbri ziyarət edilib, əklil qoyulub.

Nümayəndə heyəti Anıtqəbir muzeyi ilə də tanış olub, o cümlədən Dövlət Agentliyinin sədri xatirə kitabına ürək sözlərini yazıb.

Sonra Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun (TADƏHF) ev sahibliyi əsasında Türkiyədə fəaliyyət göstərən azərbaycanlı iş adamları ilə görüş keçirilib.

# "Köhnə qvardiyanın YAP-dan kənarlaşdırılması durğunluğa son qoyacaq"

## Sərdar Cəlaloğlu: "Hakimiyyətdəki "5-ci kalon" dediyimiz qüvvələr Azərbaycanda totalitar cəmiyyəti yaradan, demokratik institutları məhv edən, ölkəmizi dünyada nüfuzdan salanlar idi"



***Hakim Yeni Azərbaycan Patiyasının (YAP) qurultayında baş verən dəyişikliklər ölkədə islahatların davamlı olacağı ilə bağlı müzakirələrə yol açıb. YAP-dan köhnə qvardiyanın kənarlaşdırılması, yeni simaların önə çəkilməsi, köhnə strukturun ləğvi bundan sonra idarəetmədə fərqli istiqamətlərin götürüləcəyi düşünməyə əsas verir. ADP sədri Sərdar Cəlaloğlu "Unikal" qəzetinə müsahibəsində bu və ya digər məsələlərlə bağlı fikirlərini bölüşüb.***

***-Sərdar bəy, öncə YAP-ın qurultayında baş verənlərlə bağlı fikirlərinizi bilmək istərdik. Hakim düşərgədə nə baş verir?***

-Hər bir məsələyə maksimalist və minimalist yanaşmalar olur. Maksimalist yanaşanda heç bir dəyişiklik olmadı. Amma optimal yanaşanda təbii ki, ciddi dəyişikliklər oldu. Birincisi, "5-ci kalon" adlandırılan qüvvələr partiyadan kənarlaşdırıldı. İkincisi, partiyanın idarə edilmə qaydaları dəyişdirildi. Əgər biz astronomik dəyişikliklər gözləyirdiksə, bəli, bu istiqamətdəki gözləntilər özünü doğrultmadı. Amma ümumən götürəndə ortada siyasi cəhətdən mühüm hadisə baş verdi. Qandinin bir sözü var: Hər bir kiçik dəyişiklik alqışlanmalıdır ki, böyük dəyişikliklərə yol açılsın. Yəni, bu gün YAP-da baş verən dəyişiklikləri qeyd etməliyik ki, heç olmasa, arxası gəlsin.

***-Sizcə, hakim partiyadakı dəyişikliklər siyasi proseslərə hansı formada təsir edəcək?***

-YAP-da olan dəyişikliklər həm iqtidar-müxalifət münasibətlərinə, həm hakimiyyətdaxili vəziyyətə, həm də cəmiyyət-hakimiyyət əlaqələrinə təsir edəcək. Çünki partiyaya yeni adamlar gəlib. Elə adamlar var ki, mən siyasətçi ola-ola onları tanımıram. Yəqin ki, bu yeni adamlar cəmiyyət üçün də müəyyən mənada maraqlı olacaq. YAP-dan uzaqlaşdırılan adamları Azərbaycan xalqı 30 ildir tanıyır. Yəni, köhnə qvardiyanın YAP-dan kənarlaşdırılması durğunluğa son qoyacaq. Ola bilər ki, YAP yeni keyfiyyətdə meydana çıxa biləcək. Yaxşı, yaxud pis olmasını gələcək göstərəcək, amma hər halda yeni bir nəfəs olacaq. İlham Əliyevin də YAP-ın yeni proqramının hazırlanması ilə bağlı tapşırıq verməsi onu göstərdi ki, burada təkcə kadrların dəyişməsi yox, həm də partiyanın mübarizə metodlarının da dəyişilməsindən söhbət gedir. Əsas odur ki, dəyişikliklərin qarşısını alan qüvvələr partiyadan kənarlaşdırılıb.

***-Deyirsiz ki, YAP-dakı "5-ci kalon"un nümayəndələri uzaqlaşdırılıblar. Konkret kimləri nəzərdə tutursunuz?***

-Bu, aydın məsələdir. Ramiz Mehdiyevdir, Əli Həsənovlar və digərləri. Uzun müddət Azərbaycanı idarə edən və ölkənin Rusiyanın nəzarətindən çıxmasına imkan verməyən, totalitar sistemin formalaşmasında qeyri-adi dərəcədə rolu olan, ölkədəki siyasi həbslərin memarı, siyasi partiyaların, mətbuat azadlığının boğulmasının baiskarı olan adamlardan söhbət gedir. Azərbaycanda neqativ tendensiyalar kimlərin adı ilə bağlı idisə onları nəzərdə tuturam.

***-Qurultaydan sonra ayaqüstü açıqlama verən Ramiz Mehdiyev də dedi ki, prezidentə sadiq adamları "5-ci kalon" adı ilə ittiham edirlər. Sizcə, bununla nə demək istəyir?***

-Totalitar bir cəmiyyət yaradılmışdı, bu da prezidentə qarşı müxalif olan, danışanların susdurulmasına, onların sıradan şıxarılmasına gətirib çıxarmışdı. Əslində isə bu vəziyyət İlham Əliyevin özünə qarşı yönəlmişdi. Ölkədə siyasi azadlıqların boğulmasına, söz və mətbuat azadlığının məhdudlaşdırılmasına görə İlham Əliyevə beynəlxalq aləmdən təzyiqlər olurdu, Azərbaycanla bağlı gündə bir bəyanat verilirdi. Bunların hamısına səbəb olanlar indi sədaqətdən danışırlar. Bir də ki, sən dövlətə və millətə sədaqətli olmalısan, Prezidentə yox. Dövlətə və millətə sədaqətli olmadılar, Rusiyaya sədaqətli oldular, adını da qoydular ki, guya İlham Əliyevə sədaqətlidirlər. Halbuki 50 cür oyun oynayırdılar, məqam gələndə rayonlarda təxribatlar törətdilər, iğtişaşlar yaratdılar. Seçkiləri saxtalaşdırıb, birinci şəxsi xalqla üzüzə qoydular. Bunlar Prezidentə xidmət deyil ki. Əksinə bununla İlham Əliyevi həm xalqın gözündə töhmət altına qoymaq, həm də beynəlxalq təşkilatların hədəfinə çevirmək idi. Yəni, əslində bu sədaqət yox, xəyanət idi.

***-Bir qədər də konkretləşdirə bilərikmi?***

-Bir misal deyim. O vaxt Amerikadan olan nümayəndələrə bir sual verdim ki, siz İlham Əliyevi niyə dəstəkləyirsiniz. Onlar da bildirdilər ki, onlar islahat, dəyişiklik gözləyirlər. İlham Əliyevin özü də bir sıra bəyanatlar vermişdi. Biz də müəyyən mənada dəstəkləyirdik. Amma sonradan Ramiz Mehdiyev sistemi elə qurdu, prosesləri elə apardı ki, heç bir islahat, dəyişiklik olmadı. Qısa müddətdə həmin o beynəlxalq qüvvələrən gözlədikləri ümidlər puç oldu. Yəni, "5-ci kalon" dediyimiz qüvvələr Azərbaycanda totalitar cəmiyyəti yaradan, demokratik institutları məhv edən, ölkəmizi dünyada nüfuzdan salan qüvvələr idi. Guya İlham Əliyevi xalqdan, müxalifətdən, beynəlxalq təşkilatlardan qoruyurlar adı altında özləri çox böyük imtiyazlar əldə etdilər. Əslinə qalsa, İlham Əliyev özü müxalifətlə də, beynəlxalq təşkilatlarla da, xalqla da dil tapa bilir. Son dövrlər hakimiyyətlə müxalifət arasında dialoq başlayıb. Nəyə görə Qərb İlham Əliyevin üzərinə əvvəlki kimi gəlmir? Bəzi nöqsanları kənara qoysaq, cəmiyyətdə müsbət bir rəy var. Qarabağın işğaldan azad olunmasından sonra İlham Əliyevə münasibət də dəyişib. Yəni, həmin qüvvələr olmasaydı, İlham Əliyev xalq tərəfindən sevilən, müxalifət tərəfindən dəstəklənən bir lider ola bilərdi. Amma buna imkan vermədilər. Müharibədən sonra yenə oyunlar başladı. İqtidarla müxalifətin bir-birinə hücumunu təşkil elədilər, təhqir kampaniyası başladı.

***-Hər halda, iqtidar tərəfdən müxalifətlə anlaşmaq istiqamətində müəyyən addımlar atılır. Bundan sonrakı prosesləri necə görürsünüz?***

-Mənə elə gəlir ki, bu mühit inkişaf etdirilir. Prezident İlham Əliyev də dedi ki, Azərbaycanda siyasi dialoq modelini yaratmaq istəyirik. Hesab edirəm ki, bu proses çox ciddi şəkildə inkişaf etdirilməlidir. Yeni parlament seçkiləri keçirilməlidir. Hakimiyyətlə müxalifətin parlamentdən kənar fəaliyyət müstəviləri müəyyənləşdirilməlidir. Həmin müstəvilərdə əməkdaşlıqlar olmalıdır. Müxalifət nümayəndələri bütün sahələr üzrə iştirak etməlidirlər.

***-Həmişə deyirdiniz ki, bu komanda ilə dil tapmaq çətindir, ya da bunlar danışmağı bacarmırlar. İndi sözünüzdən belə çıxır ki, dialoqa badalaq vuranlar yola salınıb deyə dil tapa bilirsiz?***

-Bəli. Bir məsələni deyim. Ədalət Vəliyev mütəmadi olaraq, ölkədə və dünyada baş verənlərlə bağlı, Prezidentin çıxışlarındakı əsas məqamlarla bağlı məlumat verir, müzakirələr aparılır. Hökumətin gördüyü işlərlə bağlı informasiya verilir. Bunun özü ciddi məsələdir də. Yaxud dövlətin, cəmiyyətin həyatındakı vacib məsələlərlə bağlı müxlifətdən hansı dəstəyi gözlədiklərini ifadə edirlər. Bunları təşkil eləmək, stimullaşdırmağın özü bir yenilikdir. Düzdür, biz hər zaman bəyanatlar verirdik, fikirlərimizi bildirirdik. Amma indi konkret detallardan xəbərdar oluruq. Çünki Ədalət Vəliyev bütün bunları səliqəli şəkildə təşkil edir.

***-Müxalifətin hakimiyyətdən hansısa tapşırıq almaqmı deyək, sifariş almaqmı deyək, bunun adı nədir?***

-Mən demirəm ki, sifariş alırıq. Məsələn, Qarabağla bağlı hökumətin hansısa təşkilatların dəstəyinə ehtiyacı var. İqtidar özü rəsmi şəkildə eləmir, əvəzində biz müxalifət olaraq, prosesə qoşuluruq, aidiyyatı beynəlxalq təşkilatlara müraciət edirik. Elə məsələlər var ki, o faktlar hökumətə məlumdur. Bu barədə bizi məlumatlandırırlar, biz də müxalifət kimi bunun üzərinə gedib Azərbaycanın haqqını siyasi tərəf olara tələb edirik. Türkiyə Suriyada müharibə aparanda Ərdoğan xarici işlər və müdafiə nazirlərini müxalifət partiyalarına göndərirdi ki, onlar da siyasi qüvvə kimi prosesdə bu və ya digər formada iştirak eləsinlər. Düzdür, bizdə XİN rəhbəri hələlik partiya sədrləri ilə görüşə gəlmir, hələ o səviyyəyə qalxmamışıq. Hər halda, dediyim qaydada əlaqələrin qurulması Türkiyə modelinə yaxınlaşmaq deməkdir. Bizə də son dövrlər müəyyən məlumatlar verilir, biz də gücümüz çatan işləri görürük. Bu hər yerdə belədir. İqtidarla müxalifət millətin və dövlətin maraqlarını birgə müdafiə eləməlidir. Söhbət hakimiyyətin müdafiəsindən getmir.

***-Əks mövqelər də var ki, özünüz dediyiniz kimi, başqa ölkələrdə nazirlər müxlifət liderlərinin kabinetinə gedir, bizdə isə müxalifət liderləri administrasiyanın şöbə müdirinin kabinetinə gedir...***

-Biz həmişə hər şeyin birdən-birə olmasını istəyirik. Deyirik ki, Prezident gəlib bizimlə debata çıxsın. Proses belə başlayır, sonra da dediyimiz səviyyəyə gəlib çatır. Bəli, Azərbaycanda da iqtidarla müxalifətin münasibətləri dediyiniz səviyyəyə gəlib çatmalıdır. Türkiyədə müxalifət liderləri rəsmi protokola salınıb. Bununla bağlı qanunvericilik var. Bizdə isə belə qanun yoxdur. Bütün bunların hamısı qeyri müəyyəndir. Yəqin ki, müəyyən müddətdən sonra bu məqamlar da öz həllini tapacaq.

***Söhbətləşdi: Zaur Əhməd***



# İbrahim Mehdiyevlə bağlı şok iddia...

## Daha bir sabiq məmurun başı dərddədir

***Azərbaycanda vəzifədə olarkən haqlarında çoxsaylı korrupsiya iddiaları və ittihamları dolaşan eks məmurların qanunsuz əməlləri ilə bağlı araşdırmalar davam edir.***

Yola salmaq üzrə olduğumuz həftə Naxçıvan Muxtar Respublikasının iki sabiq nazirinin həbsi bu yazdıqlarımızın növbəti təsdiqidir. Qəzetimizə daxil olan məlumatlar prosesin davamlı olacağını göstərir. Bildirilir ki, qarşıdakı dövrdə bir çox sabiq iri məmurlarla bağlı da qanunlar çərçivəsində növbəti ciddi addımların atılmasının şahid olacağıq. Belə keçmiş vəzifəlilər arasında Yasamal Rayon İcra Hakimiyyətinin (RİH) keçmiş başçısı İbrahim Mehdiyevin də adı hallandırılır.

Bildirilir ki, Mehdiyev hələ 2000-ci ildən 2006-cı ilədək Bakı şəhər Xətai Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsində çalışarkən köhnə "maşın bazarı"nın arxasında böyük torpaq sahəsini ələ keçirib. Onun sözügedən rayonda mülklərinin bununla bitmədiyi, Bakı şəhəri, Sarayevo küç, 1 (Əhmədli metrosunun yanı) Soliton Mağazalar Şəbəkəsinin yerləşdiyi binanın, Əhmədli qəsəbəsində bir neçə yerdə məşhur hamamlarının, ümumiyyətlə isə Xətai rayonunda xeyli çoxmərtəbəli yaşayış binasında mənzillərinin və bahalı villalarının olduğu deyilir. 6 sentyabr 2006-cı il tarixdə Yasamal RİH-in başçısı təyin edildikdən sonra isə İ.Mehdiyevin sərvəti daha da böyüyüb. Belə ki, sabiq başçı bu rayon ərazisində hər birinin dəyəri milyonlarla manata bərabər olan obyektlərə - uşaq bağçasına, diş klinikasına, villalara, boş torpaq sahələrinə, müxtəlif şirkətlərə kirayələnən binalara sahib olub.

Hələ 2017-ci ildə "Uniakl.org" saytı yazırdı ki, Nərimanov rayonu ərazisində, metronun yaxınlığında iri kompüter mağazası olan İ.Mehdiyevin oğlu Həsən Mehdiyev İsveçrədə yaşayır. O, atasının pullarını bu ölkənin banklarında qoruyur, eyni zamanda böyük biznes şəbəkəsinə malikdir.

Bundan başqa, dörd il öncə Dövlət Şəhərsalma və Arxitektura Komitəsinin Baş Prokurorluqla birgə yaydığı məlumatda bildirilirdi ki, Bakı şəhəri, M.Mehdizadə küçəsi 2-4 saylı ünvanda yaşamış vətəndaşların kollektiv müraciəti əsasında Dövlət Şəhərsalma və Arxitektura Komitəsi tərəfindən aparılmış araşdırma nəticəsində İnşaat Konstruksiyaları" MMC-nin vəzifəli şəxsləri tərəfindən Şəhərsalma və Tikinti Məcəlləsinin müddəaları pozulmaqla sözügedən ünvanda mövcud olan yaşayış və qeyri-yaşayış bina və qurğularının sökülmə işlərinin təşkili layihəsi hazırlanmadan və sökülmə işlərinin aparılmasına dair icazə alınmadan 46 sayda mənzil və 3 qeyri-yaşayış obyektinin söküldüyü müəyyən edilərək bu barədə toplanmış materiallar aidiyyəti üzrə Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinə göndərilib.

Aparılmış araşdırmalarla İnşaat Konstruksiyaları MMC-nin vəzifəli şəxslərinin qeyd edilən qanunsuz hərəkətlərilə vəzifə səlahiyyətlərindən sui-istifadə etmələrinə və özbaşına tikinti işləri aparmalarına əsaslı şübhələr müəyyən edildiyindən Cinayət Məcəlləsinin 308.1 (vəzifə səlahiyyətlərindən suiistifadə) və 222- 1.1-ci (özbaşına tikinti işləri aparma) maddələri ilə cinayət işi başlanıb. Həmin vaxt İ.Mehdiyevin də cinayət məsuliyyətinə cəlb ediləcəyi barədə məlumat yayılmışdı. Belə ki, həmin tikinti şirkətinin Yasamal Rayon İcra Hakimiyyətinin sabiq başçısına məxsus olduğu deyilirdi.

Lakin Mehdiyev mətbuata açıqlamasında bunu yalanlamışdı. Halbuki "İnşaat Konstruksiyaları" MMC-nin keçmiş başçı ilə bağlılığı, məhz onun tərəfindən himayə edildiyi əksər dairələrə yaxşı məlum idi...

Xatırladaq ki, Yasamal RİH-in sabiq başçısı 2017-ci ilin iyulunda vəzifəsindən azad edilib. Bundan öncə isə AZƏRTAC agentliyi Hacı Cavad məscidinin sökülməsini "özbaşına həyata keçirən" vəzifəli şəxsin "cəzalandırıldığı" barədə məqalə dərc edib. Həmin vaxt rəsmi açıqlamalarda isə ölkə başçısının tapşırığının əksinə olaraq, yeni binanın tikintisi başa çatmamış Hacı Cavad məscidinin sökülməsi barədə "özbaşına qərar" verildiyini deyib. Beləliklə, sabiq icra başçısının ciddi səhvinin, özbaşına addımının qurbanı olduğuna şübhə qalmayıb. Sonralar isə Mehdiyev vəzifədən azad edilməsini onun barəsində dövlət rəhbərliyinin yanlış məlumatlandırılması ilə əlaqələndirmişdi. Bu açıqlamaya təəccüblənməmək lazımdır: keçmiş başçı vəzifədəykən də sahibləndiyi nəhəng varidatla bağlı yazılanların, söylənilənlərin də yanlış məlumat olduğunu iddia eləməyə çalışmışdı...

***Orxan Həsənli***

# Müxalifətdəki hansı partiyalar birləşir... - Siyasi liderlər danışdılar

***Ötən həftə Yeni Azərbaycan Partiyasının (YAP) müzakirələrə səbəb olan növbədənkənar qurultayında 6 siyasi partiya YAP-a birləşdi. Bundan sonra cəmiyyətdə eyni ideologiyaya xidmət edən müxalif partiyaların birləşməsinin labüdlüyü haqqında fikirlər gündəmə gəldi. Əksəriyyət bu cür birləşmənin Azərbaycan siyasi həyatı üçün əlverişli olacağını düşünür.***



Bununla bağlı Modern.az-a danışan Milli Məclisdə mandat sayına görə üstünlük qazanan Vətəndaş Həmrəyliyi Partiyasının (VHP) rəhbəri, deputat Sabir Rüstəmxanlı qeyd edib ki, 6 siyasi partiyanın YAP-a birləşməsi alqışlanmalıdır: "Bu söhbət müxalifət tərəfində illər uzunu gündəmdə olub. Həmişə müzakirələr aparılır ki, eyni ideyaya bağlı olan partiyalar birləşsinlər. Burada solçular, sağçılar, mərkəzçilər var. Müxtəlif ideologiyalara bağlı olan partiyalar ayrı-ayrılıqda iş görürlər. Eyni ideyaları daşıyan partiyaların bir yerdə olması çox yaxşı olar. Amma Azərbaycanda siyasi partiya quruculuğu, partiya yaradıcılığı o qədər də böyük köklərə malik deyil. Vaxtilə partiyaların bəziləri zərurətdən, bəziləri şüurlu şəkildə, bəziləri isə simasını qorumaq üçün bir araya gəlməyə məcbur olublar".

**S.Rüstəmxanlı Vətəndaş Həmrəyliyi Partiyasına da birləşmə ilə bağlı müraciətlərin olduğunu söyləyib:** "Müxtəlif vaxtlarda birləşmə üçün müxtəlif müraciətlər olub. Bəzən biz razılıq verməmişik, bəzən isə razılaşma alınmayıb. Ona görə heç birləşmə olmayıb. Yəqin ki, gələcəkdə belə istəklər olacaq. O zaman məsələni dəyərləndirmək olar".

**Böyük Qurtuluş Partiyasının sədri, deputat Fazil Mustafa isə partiyaların birləşməsinin sırf iradəli xarakter daşıdığını hesab edir:** "Birləşmə partiya üzvlərinin müəyyən dərəcədə öz ideya və fikirlərini reallaşdıra bilməməsindən qaynaqlanan prosesdir. Onlar düşünürlər ki, başqa müstəvidə bunu həyata keçirmək daha məqsədəuyğundur. Amma burada həm də bəlli bir partiyanın ideologiyasının olması əsasdır. Müxtəlif proseslərə fərqli baxışdan söhbət gedir. Bu baxış yoxdursa, əslində partiya fəaliyyəti də mahiyyətcə yenilik özündə ehtiva etmir. Ona görə bu partiyaların fəaliyyəti göstərməyinin ciddi mənası qalmır".

**F.Mustafa qeyd edib ki, təmsil etdiyi partiyanın Azərbaycan cəmiyyətinin gələcəyi ilə bağlı baxışları müxalifət düşüncəsində olan digər partiyaların yanaşmasından kəskin fərqlənir:** "Bunu daha çox yazılarımızda, fikirlərimizdə ortaya qoyuruq və göstəririk ki, həqiqətən də Azərbaycanda istər tarix, istər din, istərsə də mədəni şüurun komponentlərin böyük əksəriyyəti müasir reallığa uyğun deyil, bu dəyişməlidir, inkişafımızı əngəlləyir. Amma xeyli partiya var ki, mühafizəkarlığı ilə seçilir. Bizim yanaşmamız dəyişim tələb edən yanaşmadır. Kim bu xətti götürmək istəyirsə, partiyamıza müraciət edə bilər, hansısa partiya modeli olaraq güzəştə gələ bilər. Amma bizim özümüzün buna ehtiyacımız yoxdur. Çünki bizdən daha ciddi, düşüncə dəyişimi tələb edən partiya görmürəm. Kiminsə öncüllüyü ilə prosesi gerçəkləşdirə biləcəyimizə inansam, təbii ki, birləşmək olar. Hələlik kursumuzu, xəttimizi davam etdirib, hakimiyyətdə fikirlərimizin təmsilçiliyinə çalışacağıq".

**Bütöv Azərbaycan Xalq Cəbhəsi Partiyasının (BAXCP) sədr müavini Elçin Mirzəbəyli isə xatırladıb ki, birləşmə fikirləri qurultay və ya seçki ərəfəsində gündəmə gəlir:** "Partiyamızın qurultayına çox vaxt var, seçkilər də yaxın zamanda gözlənilmir. Bu aspektdən hələlik hansısa siyasi partiyanın BAXCP ilə birləşməsi və ya hansısa partiyaların bir araya gəlməsi haqqında açıq müzakirə aparılmır. Partiyalarla birlikdə blok şəklində bir neçə dəfə seçkilərdə iştirak etmişik, belə bir təcrübəmiz var. Birləşmə üçünsə sosial sifariş, qarşılıqlı niyyət olmalıdır. Hansısa proses gedirsə, mütləq bunun içərisində yer almalısan deyə anlayış yoxdur. Sosial sifariş olarsa, buna ehtiyac olarsa, ilk növbədə partiyanın seçkili orqanlarında qurultayında qəbul olunacaq məsələdir. Ona görə, bununla bağlı proqnozlar söyləmək doğru olmaz".

***Aysel Aslan***

# Nazir kapitana yüksək vəzifə verdi



***Daxili İşlər orqanlarında növbəti kadr dəyişikliyi olub.***

Unikal.org-un əldə etdiyi məlumata görə, Daxili İşlər naziri, general-polkovnik Vilayət Eyvazovun əmri ilə, polis kapitanı Səbuhi Məhərrəmov Goranboy rayon Polis Şöbəsi rəisinin şəxsi heyət üzrə köməkçisi təyin edilib.

Qeyd edək ki, bir müddət öncə həmin vəzifədə işləyən polis polkovnik-leytenantı Səməd Akif oğlu Məhərrəmov Şuşa Şəhər Polis Şöbəsinin rəisi təyin edilib.

*Famil Fərhadoğlu*

# Zakir Quliyev videokonfrans keçirdi

***Azərbaycan Meliorasiya və Su Təsərrüfatı ASC-də sədr müavini Zakir Quliyevin rəhbərliyi ilə 2021-ci il üzrə respublikanın rayonlarında əkilməsi nəzərdə tutulan pambıq sahələrinin suvarılması mövzusunda videokonfrans keçirilib.***



Unikal.org xəbər verir ki, cəmiyyətin sədr müavini Zakir Quliyevin rəhbərliyi ilə keçirilən onlayn konfransda 2021-ci il üzrə respublikanın rayonlarında əkilməsi nəzərdə tutulan pambıq sahələrinin arat suyu ilə təmin edilməsi və vegetasiya suvarmasına hazırlıqla bağlı müzakirələr aparılıb. Videokonfransda Səhmdar Cəmiyyətin şöbə müdirləri və pambıq əkilməsi nəzərdə tutulan rayonların yerli istismar idarələrinin rəhbərləri iştirak edib. Cəmiyyətin şöbə müdirləri yerli istismar idarələrin nümayəndələri ilə birlikdə qarşılıqlı müzakirə aparıb.

İclasda Səhmdar Cəmiyyətin sədr müavini Zakir Quliyev cari ildə pambıq əkini nəzərdə tutulan sahələrin rayonda fəaliyyət göstərən Dövlət Aqrar İnkişaf Mərkəzlərinin və pambıq əkini ilə məşğul olan şirkətlərin nümayəndələri ilə birlikdə dəqiqləşdirilməsi, həmin sahələrə xidmət edən suvarma şəbəkələrində, nasos stansiyalarda və subartezian quyularında həyata keçirilən təmir işlərinin vaxtında başa çatdırılması, mövcud su ehtiyatlarından daha səmərəli istifadə etməklə arat suvarmasının optimal müddətlərdə başa çatdırılması ilə bağlı müvafiq tapşırıqlar verdi.

# Şəxsiyyət vəsiqələri ilə bağlı yenilik



***Yeni nəsil şəxsiyyət vəsiqələrinin elektron çipinə daxil edilən elektron imza sertifikatlarının aktivləşdirilməsinin ödənişsiz təşkili üçün layihə hazırlanıb.***

Unikal.org-un məlumatına görə, bu, Nazirlər Kabinetinin 2020-ci il üzrə hesabatında qeyd edilib.

Hesabatda qeyd edilib ki, məqsəd elektron xidmətlərdən istifadənin kütləviləşdirilməsidir.

Yeni nəsil şəxsiyyət vəsiqələrinin elektron çipinə daxil edilən elektron imza sertifikatlarının aktivləşdirilməsinin ödənişsiz təşkili Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi tərəfindən "Azərbaycan Respubvlikası Prezidentinin 2013-cü il 23 oktyabr tarixli 3 nömrəli fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası vətəndaşının şəxsiyyət vəsiqəsi haqqında" qanunun tətbiqi barədə Əsasnamə"də dəyişiklik edilməsi barədə Azərbaycan Prezidentinin fərman layihəsi hazırlanıb. Hazırda layihənin razılaşdırılması üçün işlər davam etdirilir.

# Türkiyə-İran sərhədində zəlzələ oldu

***Türkiyə-İran sərhədlərində zəlzələ olub.***

Unikal.org Türkiyə KİV-ə istinadən xəbər verir ki, yer silkələnməsi Rixter şkalası ilə 4.2 balla qiymətləndirilib.

Zəlzələ İranın Xoy şəhərində və Türkiyədə Van bölgəsinin Başkale ilçəsində hiss edilib. Ocaq yerin 13.38 kilometr dərinliyində yerləşib. İtki və dağıntılarla bağlı məlumat yoxdur.

# Əsabil Qasımovun şirkəti yenidən tənqid hədəfində

## Çörəyin bahalaşması ilə bağlı məlumatlar niyə səngimək bilmir?

***Hələ ötən ayın sonlarına doğru İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti son vaxtlar bəzi KİV-də çörəyin pərakəndə satış qiymətinin artması barədə yayılan məlumatlara münasibət bildirmiş və qeyd etmişdi ki, çörəyin pərakəndə satışı bazarında, həmçinin əhali tərəfindən daha çox istehlak edilən "dairəvi zavod çörəyi"nin satışı zamanı sui-istifadəyə və əsassız qiymət artımına yol verilməsinin vaxtında müəyyən edilməsi və qarşısının alınması məqsədi ilə mütəmadi monitorinqlər aparılır.***



Monitorinqlər zamanı çörəyin pərakəndə satış qiymətində heç bir artım qeydə alınmayıb. "Dövlət Xidməti nəzarət tədbirlərini davam etdirir. İstehlak bazarında sui-istifadə və əsassız qiymət artımı halları ilə rastlaşdıqda istehlakçılardan İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidmətinə müraciət etmələri tövsiyə olunur (tel:498-15-01, 498-15-04" deyə qurumun açıqlamasında deyilirdi. Yola salmaq üzrə olduğumuz həftənin çərşənbə günü isə məlum oldu ki, Nazirlər Kabinetinin müəyyən etdiyi həcmdə dövlət ərzaqlıq buğda ehtiyatlarının yaradılması məqsədilə əsasən yerli istehsalçılardan, zərurət yarandıqda isə idxal yolu ilə yüksək keyfiyyətli ərzaqlıq buğdanın tədarükü sahəsində işlər davam etdirilib.

Bu, Nazirlər Kabinetinin 2020-ci ildə fəaliyyəti haqqında hesabatda əksini tapıb. Sənəddə qeyd edilib ki, yerli taxıl bazarında unun, həmçinin çörəyin bahalaşması risklərini təhlükəsiz idarə etmək məqsədilə və belə halların qarşısını almaq üçün dövlət ehtiyatı kimi saxlanılan və saxlama müddəti başa çatmış buğdanın qiymət sabitliyinin saxlanılması üçün mart ayının əvvəllərindən istifadəyə buraxılmasına başlanılıb. Nəticədə həmin dövrdə unun topdansatış qiymətlərində heç bir dəyişiklik olmayıb. Dövlət taxıl ehtiyatları hesabına daxili taxıl bazarına müdaxilə süni qiymət artımının qarşısının alınmasına imkan verib. Bu iki xəbər arasında ilk baxışda ciddi əlaqə görünməsə də, son nəticədə belə qənaətə gəlmək mümkündür: Azərbaycanda çörəyi süni bahalaşdırmaq istəyənlər var, onların bu sabotajının qarşısında isə hətta dövlət ehtiyatındakı taxılın müəyyən hissəsi satışa çıxarılıb! Sosial şəbəkələrdəki müzakirələrdən isə aydın olur ki, İqtisadiyyat Nazirliyi yanında Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti apardığı monitorinqlər nəticəsində çörəyin pərakəndə satış qiymətində heç bir artım qeydə alınmadığını bildirsə də, buna cəhdlər yetərincədir. Ən yaxşı halda istehsalçılar qiyməti eyni saxlasalar da, bunu çörəyin çəkisindən kəsməklə kompensasiya edirlər. Hələ bu ilin əvvəlində aparılan müşahidələrdən aydın olub ki, unun qiymətində ciddi bahalaşma var.

Belə ki, 1 kisə unun qiyməti əksər pərakəndə satış obyektlərində ən azı 3-5 manat, bəzi yerlərdə hətta 6 manat qalxaraq, 30-33 manat arasında dəyişməyə başlayıb. Belədə çörəyin qiymətində, bu da mümkün olmadıqda onun çəkisində dəyişiklik olması barədə deyilənlər təəccüb doğurmamalıdır. Yaranmış vəziyyətdə bütün diqqətlər isə yenidən sabiq deputat və ölkədə un istehsal edən ən böyük şirkətlərdən birinin sahibi - "Karat Holdinq" MMC-nin rəhbəri Əsabil Qasımova yönəlib. Çünki Azərbaycanda un bahalaşarkən ilk olaraq yada bu holdinq və onun rəhbəri düşür. İddia edilir ki, qiymət qalxmasında əsas rolu "Karat Holdinq" oynayır.

Bu həm adıçəkilən şirkətlər qrupunun inhisarçı mövqelərindən qaynaqlanır, həm də keçmiş təcrübədən. Belə ki, hələ 2015-ci ildə holdinqin əsas istehsal sahəsinin yerləşdiyi İmişli şəhərində Baş Prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları əməliyyat keçirmişdilər. Nəticədə "Karat"da istehsal olunan unun topdansatışı ilə məşğul olan iki böyük anbardan birinin sahibi tutulmuşdu. Lakin bu ümumi vəziyyəti dəyişmədi. İki il sonra - 2019-cu ildə Ə.Qasımovun holdinqi ölkədə unun növbəti dəfə bahalaşmasının əsas günahkarı kimi göstərildi. Həmin vaxt sabiq deputat bu qiymət artımına müxtəlif bəhanələrlə haqq qazandırmağa çalışdı. Aradan daha iki il keçib. Unun qiymətində yenidən yüksəliş var, bu da çörəyi də bahalaşdırmaq istəyənləri hərəkətə keçirir. Hədəf isə yenə dəyişməyib: tənqidlər yenə də Əsabil müəllimin "Karat Holdinq"inə - bazarın ən böyük un istehsalçısına yönəlib. Keçmiş deputat isə bu tənqidlər qarşısında susqunluq nümayiş etdirir. Bunun səbəbini anlamaq çətin deyil.

2019-cu ildəki qiymət artımından sonra o, unun bir il bahalaşmayacağını demişdi. Həmin açıqlamadan iki ilə yaxın zaman keçir. Deməli, unun qiymətini yenidən artırmaq olar. Hər halda "Karat Holdinq" rəhbərinin xatırlatdığımız açıqlamasından çıxan nəticə budur. Belədə niyə çörəyi bahalaşdırmaq istəyən işbazların əlinə girəvə düşməsin ki?!

***Sənan Mirzə***

# "Şərurlu İsfəndiyar"ın qeyri-adi məharəti

## Və ya tanınmış iş adamının məhkəmədəki etirafına sözardı...



***Bu həftə 2016-cı ildən fəaliyyəti dayandırılmış "Zaminbank" ASC-nin Müşahidə Şurasının sədri Nadir İsmayılov hakim qarşısına çıxarıldı. Məhkəmə iclası Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Azər Paşayevin sədrliyi ilə baş tutub.***

Məlumata görə, iş üzrə 4 nəfər zərərçəkmiş var. Onlardan biri tanınmış iş adamı, "Şərurlu İsfəndiyar" kimi tanınan İsfəndiyar Axundovdur. Bizim sözügedən işlə bağlı ətraflı danışmaq fikrimiz yoxdur, çünki yazımızın mövzusu başqadır. Həmin məhkəmədəki çıxışında "Şərurlu İsfəndiyar" maraqlı bir etirafda bulunub. Deyib ki, onun adına qanunsuz kredit yazılıb. Sitat: "Kredit ayrılanda heç bir sənədə imza atmamışam. Nadir İsmayılovla illərlə çörək kəsmişik, etibar eləmişəm, savadsızlığımdan istifadə ediblər". Təsəvvür edə bilirsiniz - ölkənin ən böyük tikinti maqnatlarından biri, nəhəng sərvət sahibi olan iş adamı savadsız imiş! Bunu hansısa media orqanı və ya başqa bir açıq-gizli mənbə iddia eləsə, biz onun ağlına, dürüstlüyünə şübhə ilə yanaşardıq, uydurduğunu, yalan danışdığını söyləyərdik.

Lakin həmin iş adamının özü məhkəmədə elan edir ki, savadsızdır, buna görə də onun əvəzinə sənəd hazırlanıb və imzalanıb, nəticədə üzərinə külli miqdarda kredit borcu yüklənib. Əlbəttə, istisna deyil ki, "Şərurlu İsfəndiyar"ın bu etirafı qeyri-səmimidir, o, sadəcə həmin borc yükündən qurtulmaq üçün belə bir fəndə əl atmağı məqbul sayıb. Lakin hesab etsək ki, adıçəkilən tikinti maqnatı bunu hakim qarşısında elan edir, onda iş adamının səmimiliyini şübhə altına almağa ehtiyac görmürük. Hər halda ən savadsız adam belə məhkəmədə yalan ifadə verməyin cəzası olduğundan xəbərdardır.

Digər tərəfdən, "Unikal" olaraq apardığımız araşdırma nəticəsində aydınlaşdı ki, "Şərurlu İsfəndiyar" əvvəlki illərdə də bənzər etirafları dilə gətirib. Məsələn, 2010-cu illərin ortalarında "nə yazmağı, nə də oxumağı bacarıram" deyib! 2018-ci ildəki müsahibəsində isə bildirib: "...övladlarım təhsil alıblar. Nəvələrimdən biri Amerikada ali təhsil alır, digərləri isə orta məktəbdə oxuyurlar. Deyirəm heç mən oxumasam da, qoy onlar ali təhsil alsınlar". Beləliklə, haqqında danışdığımız iş adamının savadsız olması məlum məsələdir. Lakin düşündürücü olan sual "Şərurlu İsfəndiyar"ın nə vaxtilə niyə təhsil almadığı, nə də bu qədər sərvət sahibi olandan sonra belə nə üçün yazıb-oxumağı öyrənməməsi deyil.

Düşündürücü olan sual budur: necə olub ki, özü- öz savadsızlığını dilə gətirən bir iş adamı Azərbaycanda ən böyük olqarxlardan birinə çevrilib? Tam əminliklə deyə bilərik ki, bu sualı hansısa inkişaf etmiş ölkə vətəndaşına ünvanlasaq onun heyrətdən gözləri bərələ qalar, belə bir uğurlu taleyə, bəxtə, məsələn, hansısa lotoreya oyununda şansının gətirməsinə, yaxud kimdənsə ona külli miqdarda miras qalmasına bağlayar. Çünki heç bir iqtisadi kriteriya ilə bu absurdu izah etmək mümkün deyil, həm də XXI əsrdə, elm və texnologiya çağında!

Bu gün istənilən sahədə nailiyyət əldə etməyin əsas formulu bilgidir. Bilgi olmadan davamlı və dayanıqlı uğur sadəcə mümkünsüzdür. Lakin iş adamlarının qeyri-iqtisadi normativlərdən çıxış edərək uğur qazana bildiyi bir yerdə yazıb- oxumaq bilməyən "Şərurlu İsfəndiyar"ın aparıcı maqnatlardan birinə çevrilməsi təəccüblü deyil.

Hansısa iri məmurun himayəsində olmaq, ona vaxtlı-vaxtında "görüm-baxım" eləmək kifayətdir ki, biznesdə olduqca qısa vaxtda uzun məsafə qət eləyəsən. Rəqabət mühiti kifayət qədər geniş deyilsə, məmur himayəçiliyi sayəsində bütün qapıları taybatay aça bilirsənsə, savadın nə mənası qalır? Pul gücünə qanunları istədiyi kimi və istədiyin yerə yozmaq mümkündürsə, hətta tikdiyin hansısa binada bir mənzili bir neçə vətəndaşa sata bilirsən. Beləcə, özün qaz vurub qazan doldurarsan, vətəndaşlar isə küçələrdə qalar, məhkəmə qapılarında sürünər və bütün olub-bitənlərə görə sənə "gözün üstə qaşın var" deyilməz!

Bütün bu və buna bənzər reallıqlar fonunda oxuyub yazmağı bilmədən ölkənin ən iri tikinti maqnatlarından, iş adamlarından birinə çevrilmək qədər asan nə ola bilər ki?!

***Sənan Mirzə***

# Sabiq icra başçısının həbsdə olan qohumunun cəzası ikinci dəfə azaldıldı

***Bakı Apellyasiya Məhkəməsində Xətai rayon Mənzil Kommunal Təsərrüfat Birliyinin sabiq rəis müavini Xalid Məmmədovun şikayəti üzrə məhkəmə prosesi başa çatıb.***



Unikal.org xəbər verir ki, hakim İlqar Murquzovun sədrlik etdiyi iclasda qərar elan edilib. Qərara əsasən, Bakı Ağır Cinayətlər Məhkəməsinin X.Məmmədova verdiyi 8 il 6 ay azadlıqdan məhrumetmə cəzası dəyişdirilib. Belə ki, onun əməli Cinayət Məcəlləsinin 311.3.3-cü (külli miqdarda rüşvət alma) maddəsindən 178.2.2, 178.2.3 və 178.2.4-cü (şəxs tərəfindən öz qulluq mövqeyindən istifadə etməklə, təkrar törədildilməklə xeyli miqdarda dələduzluq) maddələrinə tövsif edilib. Sabiq rəis müavininə həmin maddələrlə 3 il müddətinə azadlıqdan məhrum etmə cəzası təyin olunub.

Cinayət Məcəlləsinin 32.4,312.2-ci maddəsi (rüşvət verməyə təhriketmə) ilə təyin edilən 7 il müddətə azadlıqdan məhrum etmə cəzası isə 12 000 manat miqdarında cərimə cəzası ilə əvəz olunub.

İttihama görə, Xətai rayon Mənzil Kommunal Təsərrüfat Birliyinin keçmiş rəis müavini X.Məmmədov işlədiyi dövrdə qulluq mövqeyindən sui-istifadə edərək bir sıra qanunsuz tikililərə görə dələduzluq edib və rüşvət alıb. O, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin əməkdaşları tərəfindən saxlanılıb. X.Məmmədov Dövlət Şəhərsalma və Arxitektura Komitəsindən Baş Prokurorluğa təqdim olunmuş materiallar əsasında həbs edilib.

Bakı Ağır Cinayətlər Məhkəməsi onu 8 il 6 ay müddətinə azadlıqdan məhrum edib. X.Məmmədov hökmdən Bakı Apellyasiya Məhkəməsinə şikayət verib.

Apellyasiya instansiyası hökmü dəyişdirərək, X.Məmmədovun cəzasını 4 ilə endirib. Keçmiş rəis müavini bu dəfə Ali Məhkəməyə üz tutub. Məhkəmə işi yenidən baxılması üçün Bakı Apellyasiya Məhkəməsinə qaytarıb.

2020-ci ilin əvvəlində X.Məmmədovun ümumi rejimli cəzaçəkmə müəssisəsindən məntəqə tipli cəzaçəkmə müəssisəsinə keçirilməsinə dair ərizəsinə baxılıb və təmin edilib.

Xatırladaq ki, X.Məmmədov Xətai Rayon İcra Hakimiyyətinin sabiq başçısı Razim Məmmədovun qohumudur.



# Füzulidə məcburi köçkünlərə yeni evlər verildi

***Prezident İlham Əliyev məcburi köçkünlərin mənzil-məişət şəraitinin yaxşılaşdırılmasını sosial siyasətin əsas prioritetlərindən elan edərək, bu sahədə genişmiqyaslı tədbirlər həyata keçirib. İndiyədək on minlərlə məcburi köçkün ailəsi onlar üçün salınmış qəsəbə və yaşayış komplekslərində ev və ya mənzillə təmin olunub. Birinci vitse-prezident xanım Mehriban Əliyeva bu kateqoriyadan olan vətəndaşlarımıza daim xüsusi diqqət və qayğı göstərir, onların yaşayış, təhsil, səhiyyə və digər məsələlərlə bağlı problemlərini həll edir.***

Bu barədə Unikal.org-a Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsindən məlumat verilib.

"Qaçqınların və məcburi köçkünlərin yaşayış şəraitinin yaxşılaşdırılması və məşğulluğunun artırılması üzrə Dövlət Proqramı"na Azərbaycan Respublikası Prezidentinin 31 oktyabr 2007-ci il tarixli 2475 nömrəli Sərəncamı ilə təsdiqlənmiş əlavələrin icrası ilə əlaqədar olaraq Nazirlər Kabinentinin 2008-ci il 7 may tarixli 163s №li Sərancamı ilə təsdiq edilmiş "Tədbirlər Planın"a əsasən, Füzuli rayonu ərazisində müvəqqəti məskunlaşmış 95 məcburi köçkün ailəsi üçün zəruri sosial-texniki infrastrukturu olan müasir tipli yeni yaşayış qəsəbəsi salınıb. Tikinti işləri Azərbaycan Respublikasının Dövlət Neft Fondundan 2020-ci ildə ayrılan vəsait hesabına, Azərbaycan Respublikası Məcburi Köçkünlərin Sosial İnkişafı Fondunun sifarişi ilə həyata keçirilib və qəsəbənin inşası ötən ilin oktyabr ayında başa çatdırılıb.

Rayonun Əhmədbəyli kəndi ərazisində 17,3 hektar sahədə salınmış qəsəbədəki evlərin 12-si birotaqlı, 23-ü ikiotaqlı, 48-i üçotaqlı, 12-i dördotaqlıdır.

Qəsəbədə elektrik enerjisi və su təchizatı sistemi yaradılıb, nasosxana tikilib və yanğınsöndürmə hidrantları quraşdırılıb, 2,9 kilometr yol, 5,2 kilometr qaz xətti çəkilib, 7,3 hektar sahə yaşıllaşdırılıb.

Azərbaycan Respublikası Qaçqınların və Məcburi Köçkünlərin İşləri Dövlət Komitəsinin Repatriasiya Departamenti qəsəbədəki evlərin bölgüsündə şəffaflığı və ədalətliliyi təmin etmək üçün püşkatma keçirib. Püşkatmanın nəticəsində müvafiq qaydada məcburi köçkünlərin yeni evlərdə yerləşdirilməsinə başlanılıb.

Bundan başqa, Bakıda müvəqqəti məskunlaşmış 30 məcburi köçkün ailəsinə, onların fərdi müraciətləri əsasında, Füzuli rayonundakı daimi yaşayış yerlərinə qayıtmaq imkanı yaradılıb. Belə ki, bu ailələrə məxsus olan və birinci Qarabağ müharibəsi zamanı dağıntıya məruz qalan evlər, Prezident İlham Əliyevin tapşırığına əsasən, yenidən tikilib və sahiblərinə verilib. Tikinti işləri ötən il dövlət büdcəsindən komitəyə ayrılmış vəsaitdən əldə edilən qənaət hesabına aparılıb.

Məcburi köçkünlər daimi yaşayış yerlərində məskunlaşdıqlarına, zəruri məişət şəraiti ilə təmin olunduqlarına görə onların sosial rifahının yaxşılaşmasına böyük diqqət və əvəzsiz qayğı göstərən ölkə rəhbərinə minnətdarlıq bildiriblər.

***Zaurə***

## Ülvi Mehdiyev Türkiyədə səfərdədir

***Azərbaycan Respublikasının Prezidenti yanında Vətəndaşlara Xidmət və Sosial İnnovasiyalar üzrə Dövlət Agentliyinin sədri Ülvi Mehdiyevin rəhbərlik etdiyi nümayəndə heyəti Türkiyə Respublikasında səfərdədir.***

Azvision.az xəbər verir ki, səfər çərçivəsində nümayəndə heyəti Ankarada Heydər Əliyev Parkını ziyarət edib, ümummilli liderin xatirəsi ehtiramla yad edilib, abidəsi önünə əklil qoyulub.

Nümayəndə heyəti tərəfindən, həmçinin Türkiyə Respublikasının banisi Mustafa Kamal Atatürkün məzarı - Anıtqəbri ziyarət edilib, əklil qoyulub.

Nümayəndə heyəti Anıtqəbir muzeyi ilə də tanış olub, o cümlədən Dövlət Agentliyinin sədri xatirə kitabına ürək sözlərini yazıb.

Sonra Türkiyə-Azərbaycan Dostluq, Əməkdaşlıq və Həmrəylik Fondunun (TADƏHF) ev sahibliyi əsasında Türkiyədə fəaliyyət göstərən azərbaycanlı iş adamları ilə görüş keçirilib.

Dövlət Agentliyinin sədri Ülvi Mehdiyev "ASAN xidmət"in və "YAŞAT" Fondunun fəaliyyət istiqamətləri barədə məlumat verib. Diqqətə çatdırılıb ki, əsas prinsiplər kimi səmərəlilik və şəffaflıq əsasında fəaliyyət göstərən "YAŞAT" Fondu tərəfindən şəhid ailələrinin və qazilərimizin sosial-məişət şəraitinin yaxşılaşdırılması istiqamətində bir sıra işlər görülüb. Həmçinin vurğulanıb ki, Fondun əməkdaşları məhz qazilərimiz və şəhid ailələrinin üzvləridirlər.

TADƏHF-in sədri, Türkiyə Prezident Administrasiyasının təhlükəsizlik və xarici siyasət komissiyasının üzvü, professor Aygün Attar görüşün məqsədləri barədə məlumat verib. Diqqətə çatdırılıb ki, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə Azərbaycan Ordusu tərəfindən 44 günlük Vətən müharibəsində qazanılan qələbə tarixi hadisədir. Qeyd olunub ki, Vətənimizin bütövlüyü uğrunda canlarından keçən şəhidlərimizin ailələrinə və qazilərimizə dəstək olmaq hər birimizin vətəndaşlıq borcudur.

Görüşdə iş adamları tərəfindən "YAŞAT" Fonduna dəstəklə bağlı qərarlar qəbul olunub.

Sonda iştirakçıları maraqlandıran suallar cavablandırılıb.

## Masallıda toy edənlər cərimələndi

***Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən qəbul edilən karantin rejim qaydalarının təmin olunmasına nəzarət edilməsi istiqamətində Masallı Rayon Polis Şöbəsinin əməkdaşları tərəfindən növbəti tədbirlər keçirilib.***

"Unikal" DİN Mətbuat xidmətinin Lənkəran regional qrupundan verilən məlumata görə, tədbirlər zamanı Masallı rayonunun Ərkivan qəsəbə sakini Q.Bədəlovun karantin rejiminin qaydalarını pozaraq F.Mirzəyevə məxsus restoranda oğluna toy məclisi təşkil etdiyi müəyyən edilib.

Polis əməkdaşları tərəfindən həmin məclisin təşkilatçıları və orada iştirak edənlərə bir daha karantin rejiminin qaydaları izah olunub. 9 nəfər barəsində İnzibati Xətalar Məcəlləsinin müvafiq maddəsinə əsasən, protokol tərtib edilərək cərimə olunublar.

# Bayram öncəsi qiymət artımı narazılığa səbəb olub

### Məmurların ənənəvi bahalaşma sabotajı social gərginliyi daha da artırır

***Biz müxtəlif bayramlar ərəfəsində müəyyən işbazların bazarlarda qiymətləri bahalaşdırmasına az şahid olmamışıq. Bu hətta bir "ənənəyə" çevrilib. Baxmayaraq ki, istər cəmiyyət, istərsə də aidiyyatı qurumlar belə süni bahalaşdırma cəhdlərindən məmnun deyillər.***




Lakin işbazların iştahının qarşısına keçmək mümkün olmur. Onlar hər bayram öncəsində öz ənənələrinə sadiq davranırlar. Və belə görünür, bu mənzərə hələ ki, davam edəcək. Çünki qarşıdan gələn Novruz bayramı ərəfəsində cəmiyyəti narahat edən əsas məsələ qiymətlərdəki süni artımdır. Müşahidələr əksər məhsulların dəyərində ciddi bahalaşmanın olduğunu göstərir. Bir sözlə, işbazlar, monopolistlər və onları himayə edən məmurlar yenə ənənəvi ampulalarındadırlar - qiymət artımı ilə hökumətin iqtisadi siyasətini, dövlət və xalqın maraqlarını açıq şəkildə sabotaj edirlər!

Əslində ölkədəki qiymət artımlarında monopolistlərin "gizli rol"unun olması təzə söhbət deyil. İndiyədək bu mövzuda dəfələrlə danışılıb, yazılıb. Lakin dəyişiklik yoxdur: elə indi də ərzaq məhsullarının istehlakının artdığı bir vaxtda, bahalaşmanın davam etməsi sual doğurur və inhisarçıların süni qiymət artımı ilə faktiki olaraq vətəndaşları soyduğu, əhalidə narazılıq yaratdığı, beləliklə, bir növ sabotaja əl atdığı aydın görünür.

Ekspertlər hesab edirlər ki, bazarda bütün sahələrdə əhəmiyyətli səviyyədə inhisarçılıq mövcuddur. "Bazarın liberallaşdırılması istiqamətində görülən tədbirlərin zəif olması və hökumətin əlində olan imkanlardan nisbətən qeyri-çevik istifadə etməsi kimi məqamlar da burada öz təsirini göstərir. Bazarda bütün sahələrdə əhəmiyyətli səviyyədə inhisarçılıq mövcuddur. Bu inhisarçılıq da yaranmış çağırışlara qeyri-adekvat cavabın verilməsi ilə nəticələnir. Son olaraq bunun çətinliyini məhz istehlakçılar yaşayır" - ekspertlər bu fikirləri illər uzunudur təkrarlamaqdan yorulsalar da, köklü dəyişiklik hiss edilmir.

Hələ bir neçə il öncə Milli Məclisin plenar iclasında çıxış edən millət vəkili Vahid Əhmədov ölkədə qiymət siyasətinin müəyyənləşdirilməməsindən narazılığını ifadə etmişdi. Deputat monopoliyanın mövcudluğunu iqtisadi inkişafın qarşısını alan əsas amil kimi qiymətləndirmişdi. Aradan bu qədər zaman keçib, lakin problem öz aktuallığını qoruyur. "Bahalığa səbəb monopoliyadır. Nazirlər məni inandırmağa çalışır ki, monopoliya yoxdur. Bəs, onda nəyə görə, Rəqabət Məcəlləsi layihəsi 10 ildən çoxdur ki, Milli Məclisdə qəbul olunmur" - deyə iqtisadçı millət vəkili sual etmişdi.

Bu sualın cavabı da illərdir ki, açıq qalır. Son vaxtlar hökumətdə həyatda keçirilən kadr və struktur islahatları daha da sürətləndirilib. Vətəndaşlar bu islahatlardan bir çox köklü problemlərin, o cümlədən, inhisarçıların özlərinin "qaz vurub qazan doldurmaq" hesabına əhalinin cibinə girməsinə son qoyulmasını gözləyir. Onlar ümid edirlər ki, işbazların soyğunçu qiymət "siyasəti" tarixin arxivinə göndəriləcək, ölkədə real, həqiqi rəqabət mühiti bərqərar olacaq, monopolistlərin meydanda (oxu: bazarda!) at oynatmasının qarşısı alınacaq.

Ümid edək ki, bu cür gözləntilər heç də gözlənti olmayaraq qalmayacaq və real bəhrəsini verəcək. Əlbəttə, dövlətin və vətəndaşın xeyrinə! Azərbaycanda bahalaşma üçün məqam axtaran, girəvə gəzən fürsətçilərə - işbazlara və onların gizli-aşkar himayədarlarına - müəyyən məmurlara qarşı artıq konkret addımlar atmaq zamanı gəlib. Onlara "dur!" demək vaxtıdır. Əks halda aradan çox bayramlar gəlib keçəcək, ancaq biz hər dəfə əlamətdar günlərə sevinmək yerinə bahalaşmanın dərdini çəkməyə davam edəcəyik. P.S. Onsuz da il ərzində qiymətlər mütəmadi olaraq artır. Lakin ən azından bayramlarda bahalaşma sabotajına son qoymaq, insanların minimal imkanlarla da olsa, bayram keçirə bilməsinə şərait yaratmaq mümkün deyilmi?

Ümid edək, bu suala əlaqədar dövlət qurumları axır ki, cavab tapa biləcəklər. Əlbəttə, ona da ümid edirik ki, bu cavab ümumi sözlərdən ibarət olmayacaq, konkret və əməli məzmun daşıyacaq...

***Toğrul Əliyev***

# Hər iki ayağını itirən qaziyə niyə 3-cü qrup əlillik verilib?

***Dövlət Tibbi Sosial Ekspertiza və Reabilitasiya Agentliyi hər iki ayağını itirən Vətən müharibəsi qazisi Cavadov Ervin Tərxan oğluna 3-cü dərəcə əlillik təyinatı verilməsi ilə bağlı məsələyə aydınlıq gətirib.***

"Unikal" xəbər verir ki, agentlikdən "Qafqazinfo"ya bildirilib ki, Vətən müharibəsində xəsarət almış Cavadov Ervin Tərxan oğluna Hərbi Həkim Komissiyasının Şəhadətnaməsində qeyd edilən sağ baldırın yuxarı 1/3-səviyyəsindən amputasiyası diaqnozuna əsasən qanunvericiliyin tələblərinə uyğun olaraq III dərəcə ömürlük əlillik dərəcəsi təyin edilib.

Qazimizin sol ayağının İlizarov üsulu ilə osteosintezi diaqnozunu təsdiq edən Hərbi Həkim Komissiyasının yekun Şəhadətnaməsi Tibbi-Sosial Ekspert Komissiyasına təqdim edildiyi halda Ervin Cavadovun əlillik dərəcəsinə yenidən baxılacaq. Bildirilir ki, E. Cavadovun sol ayağından ilizarov aparatı çıxarıldıqdan sonra Hərbi Həkim Komissiyası tərəfindən yenidən şəhadətnamə verilməlidir.

Məlumatda həmçinin qeyd olunub ki, qanunvericiliyə əsasən, Vətən müharibəsində xəsarət almış qazimizə əlillik (mülki yox) məhz hərbi səbəblərlə, daha doğrusu Azərbaycan Respublikasının ərazi bütövlüyü, müstəqilliyi və Konstitusiya quruluşunun müdafiəsi ilə əlaqədar təyin edilir: "Bu kateqoriyadan olan əlilliyi olan şəxslərin xüsusi imtiyaz və güzəştləri var və onların hər biri həmin imtiyazlardan yararlanacaqlar. Xüsusi imtiyazlar dərəcəsindən asılı olmayaraq əlillik təyin edilmiş bütün qazilərimizə şamil edilir. 3-cü dərəcə əlillik təyin edilmiş qazilərimizə Prezidentin aylıq təqaüdü olaraq 300 manat təqaüd, əlilliyə görə pensiya və ya pensiya hüququ olmadıqda 110 manat əlilliyə görə aylıq sosial müavinət ödənilir. Yəni pensiya hüququ olmadıqda onlara ümumilikdə 300 yox, 410 manat müavinət ödənilir. Pensiya hüququ olduqda isə onlara aylıq sosial ödənişin




məbləği ən azı 550 manat və daha yüksək olur".

Xatırladaq ki, 27 yaşlı gizir E. Cavadov oktyabrın 6-da Cəbrayıl uğrunda döyüşlərdə hər iki ayağından ağır yaralanıb. 5 dəfə əməliyyat olunan qazinin sağ ayağı dizdən 4 barmaq aşağı kəsilib. İkinci ayağında da sinirlər zədələndiyindən tərpənmir.

Qazi ona verilən 3-cü dərəcə əlillik təyinatının adekvat olmadığını bildirir.

# “Kim harada istəyir, orada ət kəsir, hələ heyvanın cinsiyyət orqanlarını da satır!” - Həyəcan təbili



***“Hələ də küçələrdə, yol kənarlarında müstəqil şəkildə ət kəsib satanlar var. Respublika üzrə götürsək, bu işlə məşğul olanların təxminən 50 faizi qaydalara əməl etmir”.***

Bunu Modern.az-a açıqlamasında Azad İstehlakçılar Birliyinin (AİB) sədri Eyyub Hüseynov Azərbaycanda ət kəsimi sahəsində vəziyyətlə bağlı danışarkən bildirib.

E.Hüseynov bu sahədə vəziyyətin kafi olmadığı qənaətindədir: “Ət kəsimi yerlərinin yaradılması üçün bir neçə amil-xüsusi yer, 2 metr hündürlükdə divarlar, su təminatı və s. olmalıdır.

İlk dəfə bir məsələni diqqətə çatdırmaq istəyirəm. Qaydalarda qeyd olunur ki, heyvanların cinsiyyət orqanlarının satışı qadağandır. Amma ölkəmizdə ən müasir supermarketlərdə belə, onların satışı var. İllərdir, hələ AQTA-dan qabaq milyonlarla dollar sərf edilərək, iki böyük ət kəsimi məntəqəsi - “AzProteinFood” və “Səhliyalı” yaradılıb. Amma onlara müraciət edən varmı? Əsla! Kim harada istəyir, orada da heyvan kəsib ət satır. Yeni Zellandiyada kimsə öz heyvanını kəsərsə, 5 min dollar cərimə olunur. Çünki heyvanlar identifikasiya olunur. Ümumilikdə, cəza üsulları ilə bazara təsir etmək olmaz. Çünki bazar tələb və təklif əsasında işləməlidir”.

İstehlakçı hüquqlarının müdafiəçisi deyib ki, illərdir Azərbaycanda xaricdən gətirilmiş keyfiyyətsiz ətlərlə yanaşı, murdar olmuş heyvanların da ətləri satılır: “Hətta ənənəvi olmayan heyvanların da əti satılır. Təəssüflər olsun ki, bir neçə dövlət orqanı həmin dələduzları cərimələyərək, buraxır. Bu sahədə ən effektiv iş Daxili İşlər Nazirliyinin Baş Mütəşəkkil Cinayətkarlıqla Mübarizə İdarəsi tərəfindən həyata keçirilir. Onların aşkarladığı faktlarla bağlı mütləq cinayət işi açılır. Hazırda bu tip məsələlərlə bağlı 4-5 şəxs həbsdədir. Düşünürəm ki, bu sahəyə nəzarət elə bu quruma tapşırılmalı, onlara xüsusi səlahiyyət verilməlidir”.

E.Hüseynovun sözlərinə görə, qanunvericilikdə ölü, həmçinin ənənəvi olmayan heyvan ətlərinin satışını qadağan edən müddəa yoxdur: “Küçələrdə ət kəsimi heyvanların identifikasiyası həyata keçirilənə qədər davam edəcək. Bu işə hələ indi başlanılır, heç ölkədəki heyvanların 1 faizi indentifikasiyadan keçirilməyib. Bu məsələ həll olunmasa, biz yenə də təhlükəli heyvan ətlərini yeməyə davam edəcəyik. Küçədə, gözümüzün öndündə kəsilən heyvan sağlam heyvan anlamına gəlmir. Çünki bilinmir axırıncı dəfə baytar heyvana nə vaxt antibiotik vurub, onun bədənindəki antibiotik qalıqları nə qədərdir və s.”.

Məsələ ilə bağlı Azərbaycan Qida Təhlükəsizliyi Agentliyindən (AQTA) Modern.az-ın sorğusuna cavab olaraq bildirilib ki, “Heyvan kəsimi fəaliyyətinin tənzimlənməsi haqqında” Azərbaycan Prezidentinin 11 iyun 2018-ci il tarixli sərəncamının icrasından irəli gələrək baytarlıq-sanitariya və gigiyena normalarına cavab verməyən yerlərdə, küçələrdə, yol kənarlarında heyvan kəsimi və ət satışı fəaliyyətinin həyata keçirilməsi qadağandır: “Ət məhsulları sahəsində sağlam mühitin formalaşdırılması üçün heyvan kəsimi standartlara uyğun şəkildə həyata keçirilməli və yalnız müəyyən laborator müayinələrdən sonra həmin məhsulların istehlakçılara çatdırılması təmin olunmalıdır. Bu istiqamətdə Agentliyin metodiki tövsiyələri əsasında sahibkarlar tərəfindən müasir, beynəlxalq standartlara uyğun heyvan kəsimi və ət satışı məntəqələrinin yaradılması təşviq edilir. Hazırda respublika üzrə müxtəlif sahibkarlıq subyektləri tərəfindən yaradılan müasir heyvan kəsimi və ət satışı məntəqələrinin sayı artırılmaqdadır. Məqsəd ölkə ərazisində heyvan kəsimi və satışının müasir tələblərə uyğunlaşdırılması, qanunsuz heyvan kəsimi və satışı fəaliyyətinin qarşısının alınması, istehlakçıların hüquqlarının müdafiəsidir”.

Rəsmi məlumatda o da bildirilib ki, qida təhlükəsizliyinin təmin edilməsi baxımından müstəsna əhəmiyyətə malik, heyvanın və heyvandarlıq məhsullarının “fermadan süfrəyədək” izlənməsinə imkan verən Heyvanların İdentifikasiyası və Qeydiyyatı Sisteminin yaradılmasına başlanılıb: “Sistemin yaradılması Azərbaycan Qida Təhlükəsizliyi Agentliyi, Kənd Təsərrüfatı Nazirliyi yanında Aqrar Kredit və İnkişaf Agentliyi və Dünya Bankının birgə əməkdaşlığı çərçivəsində həyata keçirilir. Layihə üzrə artıq Dünya Bankının maliyyə dəstəyi ilə proqram təminatının yaradılmasına başlanılıb. Proqram təminatı yaradıldıqdan sonra seçilmiş müvafiq ərazidə iribuynuzlu heyvanlar və atlarda identikləşdirmə aparılmaqla sistemin sınağı həyata keçiriləcək. Sistemin mərhələli şəkildə yaradılması, pilot ərazidə sınaqdan keçirildikdən sonra bütün ölkə üzrə tətbiq edilməsi nəzərdə tutulur”.

“İdentifikasiya sistemi heyvan mənşəli məhsulun hansı təsərrüfatdan çıxması, hansı heyvanın ətindən və ya südündən hazırlanması və istehsal müəssisəsində emal olunması barədə məlumatları özündə birləşdirir. Sistemdə heyvanın keçirdiyi xəstəliklər, nə zaman vaksinasiya olunması, hansı baytarlıq preparatlarından istifadə edilməsi və sair barədə məlumatlar yer alacaq.

HİQS vasitəsilə heyvanın peyvəndlədiyi vaksinlər və peyvəndləmədən sonra gözləmə dövrü, müalicə üçün işlədilən dərmanların heyvanın orqanizmindən xaric olma müddətini izləmək mümkün olacaq. Sistemin tətbiqi heyvanların genetik xətt üzrə izlənməsinə, həmçinin qida təhlükəsizliyi üzrə risklərin aşkar edilməsi və idarə olunması, xəstəliklərə qarşı baytarlıq tədbirlərinin ardıcıl olaraq icrasına imkan verəcək”,-deyə AQTA-nın məlumatında bildirilib.



## Logistika sahəsinin qiymətləndirilməsi mövzusunda görüş keçirilib

***Dünya Bankının ekspertləri ilə özəl sektorun diaqnostikası çərçivəsində logistika sahəsinin qiymətləndirilməsi mövzusunda növbəti onlayn görüş keçirilib. Tədbirdə Dövlət Gömrük Komitəsi sədrinin müavini, gömrük xidməti general-mayoru Cavad Qasımov, Komitənin aidiyyəti qurumlarının nümayəndələri, Dünya Bakının eksperti Daniel Saslavski və bankın mütəxəssisləri iştirak edib.***

Dövlət Gömrük Komitəsi sədrinin müavini Cavad Qasımov Dünya Bankının mütəxəssisləri ilə keçirilən görüşlərin ikitərəfli münasibətlərin şaxələndirilməsində, yeni prioritet istiqamətlərin müəyyənləşdirilməsində vacib əhəmiyyətə malik olduğunu vurğulayıb.

Cavad Qasımov Ümumdünya Ticarət Təşkilatının (ÜTT) Ticarətin Asanlaşdırılması Sazişinin gömrük orqanları tərəfindən tətbiqi, avtomatlaşdırılmış sistemlər, Səlahiyyətli İqtisadi Operator (SİO), tranzit məsələləri və rəqəmsallaşdırma, Ümumdünya Gömrük Təşkilatının (ÜGT) dərhal buraxılış sistemi və ekspress yüklərin sürətli rəsmiləşdirilməsi barədə məlumatları mütəxəssislərin diqqətinə çatdırılıb.

Komitə sədrinin müavini, xüsusilə fiziki şəxslər tərəfindən gömrük sərhədindən keçirilən qeyri-kommersiya məqsədli yüklərin və poçt daşımalarının rəsmiləşdirilməsi istiqamətində görülən işlər barədə geniş məlumatları təqdim edib. Bildirilib ki, beynəlxalq poçt daşımaları və daşıyıcı şirkətlər tərəfindən gətirilən yüklərin sürətli rəsmiləşdirilməsinin həyata keçirilməsi məqsədilə Dövlət Gömrük Komitəsi tərəfindən “Smart Customs” mobil tətbiqi və www.e.customs.gov.az internet portalı istifadəyə verilib ki, bu da şəxslərin sifariş etdikləri malları gömrük orqanlarına gəlmədən birbaşa ünvanlarında əldə etmələrinə imkan yaradıb.

Həmçinin, bu sahədə gömrük rəsmiləşdirilməsinin, daşıma xidmətlərinin daha da təkmilləşdirilməsi, malların ən qısa zaman müddətində şəxslərə təhvil verilməsi məqsədilə yeni vahid logistik mərkəz ideyasının layihələndirildiyi və həyata keçirildikdən sonra poçt daşımalarında vaxt itkisinin minimuma endiriləcəyi barədə də iştirakçılar məlumatlandırılıb.

Logistikanın və ticarətin inkişafı, o cümlədən bu sahədə həyata keçirilən layihələrdən danışan Cavad Qasımov Gürcüstanla sərhəddə yerləşən “Qırmızı Körpü” gömrük-sərhəd buraxılış məntəqəsinin yaxınlığında inşa edilmiş Ticarətin Asanlaşdırılması Mərkəzinin fəaliyyəti barədə məlumat verərək, digər gömrük sərhəd buraxılış məntəqələrinin də yaxınlığında bu tip mərkəzlərin inşasının planlaşdırıldığını diqqətə çatdırıb. Mütəxəssislərə, həmçinin yeni gömrük-sərhəd buraxılış məntəqələrinin açılmasına dair infrastruktur layihələri barədə də məlumatlar təqdim edilib.

Dünya Bankının eksperti Daniel Saslavski logistika sektorunun qiymətləndirilməsi və özəl sektorun diaqnostikası çərçivəsində Dövlət Gömrük Komitəsi tərəfindən göstərilən mütəmadi dəstəyə görə dərin minnətdarlığını bildirərək, hazırlanacaq hesabatın nəticələrinin beynəlxalq ticarətin sadələşdirilməsində mühüm rol oynayacağına əminliyini ifadə edib.

Daha sonra görüşdə logistika sektorunun qiymətləndirilməsinin aparılması, özəl sektorun iqtisadiyyatda iştirak imkanlarının artırılması mövzusunda müzakirələr aparılıb.



## FHN hava şəraiti ilə bağlı əhaliyə müraciət etdi

***Fövqəladə Hallar Nazirliyi (FHN) gözlənilən hava şəraiti ilə əlaqədar əhaliyə müraciət edib.***

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, bu gündən Azərbaycanın şimal və qərb rayonlarından başlayaraq martın 13-ü səhərədək ölkə ərazisində hava şəraiti qeyri-sabit keçəcək, yağıntılı olacaq, havanın temperaturu enəcək. Xüsusən, Bakıda və Abşeron yarımadasında güclü külək əsəcəyi, çovğun olacağı, qar yağacağı, bəzi yerlərdə intensiv olacağı, əsasən dağlıq və dağətəyi rayonlarda yolların buz bağlayacağı gözlənilir.

Gözlənilən hava şəraiti ilə əlaqədar Fövqəladə Hallar Nazirliyi bir daha əhaliyə müraciət edərək, təhlükəsizlik naminə ciddi zərurət olmadan güclü küləkli və çovğunlu havada bayıra çıxmamağı tövsiyə edir.

Bununla yanaşı, əgər güclü külək və çovğun sizi küçədə haqlayıbsa, yüngül konstruksiyalı və müvəqqəti tikililərdən, bina və reklam lövhələrindən uzaq durun, elektrik dirəyi və məftillərinin, hündür ağacların altında dayanmayın. Bu zaman diqqətli hərəkət edərək yaxınlıqdakı binanın zirzəmisində və ya möhkəm tikilidə daldalanmağa çalışın.

**Buz bağlamış yollarda hərəkət edərkən:**

- ayaqqabını sürüşməyə qarşı hazırlayın - ayaqqabının dabanına metal basma, quru altlığa isə yapışqan plastır, yaxud izolyasiya lenti yapışdırın. Altlığı qum və ya sumbata kağızı ilə sürtün;
- ehtiyatla, tələsmədən, ayaqqabını yerə bütövlükdə basaraq addımlayın. Bu zaman ayaqlar azca zəifldilmiş, əllər boş olmalıdır;
- yaşlı insanların rezin ucluqlu əsadan, yaxud ucları batıcı olan xüsusi çubuqdan istifadə etməsi tövsiyə olunur;
- sürüşsəniz, zərbənin gücünü azaltmaq üçün oturun;
- yıxılanda özünüzü toparlayın, qollarınızı büküb diyirlənərək zədə almaqdan qorunun.

Unutmayın: Qaydalara biganəlik - həyatımıza təhlükədir!

Təhlükə zamanı "112"-yə zəng edin!

# Sənədsiz evlərdən yığılan əmlak vergisi qanunidirmi? - EKSPERT

***Azərbaycanda əhalidə sənədləşdirmə işinə qarşı qəribə bir laqeydlik həmişə olub. Nə zamansa işimiz çətinə düşüb, dalana dirənməyənə qədər hansısa vacib bir sənədləşmənin aparılmasında, ödənişin edilməsinə öncədən könüllü olaraq maraq göstərmirik.***

Söz yox ki, istisna təşkil edən insanlar var. Bu yəqin ki, Sovet dönəminin insanlara verdiyi arxayınlıqdan irəli gəlirdi, çünki bütün bürokratik addımları dövlət özü həll edirdi, bu bir məcburiyyət idi. Kənd yerlərində hər hansı daşınmaz əmlakı tikmək, sənədləşdirmək problem təşkil etmir, söhbət Bakıdan gedəndə həll olunması çətin olan problemlərlə üz- üzə qalırıq. Çünki, bir daşınmaz əmlakın bir neçə sahibi ola bilir və ya əksinə, insanın illərlə yaşamış olduğu evə sahiblik hüququnu sübut edən sənədin olmaması halı da. Bu dəfə laqeydlik səbəbindən yox, bu sənədi almaq üçün konkret bir mərkəzin olmaması, tərtib edilən qanunlarda boşluqlara yol verilməsi, süründürməçilik, bu sənədin alınması üçün müəyyən qurumlara verilməli olan külli miqdarda rüşvət üzündən.



Necə olur ki, sənədsiz evlərdə, hətta gecəqondularda belə yaşayanlar bütün kommunalr xərclərini ödəyir, suyun, qazın, elektrikin sayğacı olur, amma bu xidmətlərin gəldiyi evin sənədi, adı, ünvanı olmur? Nəzərə alınsa ki, sənədsiz evlərin sayı yüzminlərlədir, onların sənədləşdirilməsi ilə dövlət büdcəsinə böyük məbləğdə daxilolmalar baş verəcək, həm də ev sahiblərinin narahatlığına son qoyulacaq.

Bu gün Hit.Az iqtisadçı Eldəniz Əmirovla əmlak və torpaq vergisi barədə söhbət edir.

"Əmlak və torpaq vergisilə bağlı təzadlı fikirlər, fərqli regionlarda fərqli mənzərələr yaradır. Əslində isə bu məsələ qanunvericilikdə aydın şəkildə təsbit edilib və heç bir qaranlıq məqam yoxdur. Yeganə fərq əmlakın və torpağın yerləşdiyi coğrafiyadan asılı olaraq vergiyə cəlb edilmə məbləğləri arasındakı fərqdir. Başqa sözlə, fiziki şəxslərin xüsusi mülkiyyətində olan binaların sahəsinin hər kvadratmetrinə görə ödənilməli olan məbləğ fərqlənir. Bu məqsədlə Respublika ərazisi 4 kateqoriyaya bölünmüşdür. Birinci kateqoriyada olan Bakı üçün bu məbləğ 0,4 manat, ikinci kateqoriyada olan Gəncə, Sumqayıt şəhərləri və Abşeron rayonu üçün bu 0,3 manat, üçüncü kateqoriyada olan digər şəhərlər və rayon mərkəzləri üçün bu 0,2 manat, 4-cü kateqoriyada olan digər qəsəbələr və kəndlər üçün bu 0,1 manatdır. Bundan əlavə olaraq daha bir məqamı qeyd edim ki, yaşayış binası Bakı şəhəri ərazisində yerləşdikdə, bu qeyd edilən dərəcəyə aidiyyatı icra hakimiyyəti orqanı müəyyən əmsallar tətbiq edə bilər. Amma bir şərtlə ki, bu əmsalın sərhədləri 0,7-dən aşağı və 1,5-dən yuxarı olmamalıdır.

Daha vacib bir məsələni vurğulayım ki, respublikanın hansı koordinatlarında yerləşməsindən asılı olmayaraq, yaşayış sahələrinə aid olan ilk 30 kvadrat metr sahə bu vergidən azaddır. Məsələn, Sumqayıt şəhərində 100 kvadrat metrlik yaşayış sahəsinə malik əmlakdan onun 30 kvadrat metri çıxıldıqdan sonra yerdə qalan 70 kv.m. üçün 0.3 manatdan olmaqla 21 manat vergi ödəliyi yaranır. Bütün bunlar qanunvericilikdə qeyd edilsə də, prosesin özünün icrası zamanı yenə də problemlər yaşanmaqdadır. Çünki, əğər əmlakın Dövlət Reyestr Xidmətinin verdiyi mülkiyyəti təsdiq edən sənədi yoxdursa, o zaman həmin mülkiyyətə əmlak vergisi tətbiq edilməməlidir. Əmlak vergisi yalnız mülkiyyəti təsdiq edən sənədi olan əmlaklar üçün şamil olunur. Yəni, əğər evin "kupça"sı yoxdursa onun üçün əmlak vergisi nəzərdə tutulmayıb. Təəssüf ki, məsələnin bu tərəfi yerlərdə nəzərə alınmır",- deyən ekspert əlavə edir ki, əksər bələdiyyələrdə vətəndaşın qapısı döyülərək, əmlak vergisi tələb olunur:

"Ən qəribəsi də odur ki, vətəndaşın özünə sual verib evinin sahəsini soruşurlar. Bəzisi sahəni aşağı deyir, bəzisi mübahisə edib ödənişdən imtina edir, bəzisi isə qeyri-real vergi məbləği ilə razılaşır. Amma əslində vətəndaşa buna görə öncədən bildirişlər təqdim edilməlidir. Bu bildirişlərdə cari il üzrə borc, köhnə borc, ümumi ödənilməli məbləğ kimi bütün detallar aydın göstərilməlidir. Belə bildirişlər həyət evlərinin üstünlük təşkil etdiyi əksər ərazilərdə vətəndaşa təqdim edilmir. Bunun da bir çox səbəbləri var. Ən başlıca səbəb isə həmin ərazilərdə sənədsiz evlərin çoxluğudur. Hazırda Abşeronda 500 mindən çox sənədsiz ev var. Bu problem təkcə vergi sahəsində deyil, eyni zamanda daşınmaz əmlakın sığortalanması sahəsində də ortaya ciddi problemlər çıxarır. Buna görə də qısa vaxtda bu istiqamətdə ciddi işlərin görülməsinə ehtiyac vardır. Düzdür, 2015-ci ildə bu problemin həllinə dair fərman imzalandı. Ötən il isə Cənab Prezident İlham Əliyev müvafiq qurumlara yenidən tapşırıqlar verdi. Bu dəfə də virus epidemiyası və ardından müharibə bu mövzunu gündəmdən çıxardı. Lakin bu problem təcili həll tələb edən problemlər katiqoriyasındandır. Təsəvvür edin ki, hər evdə 4-5 ailə üzvünün yaşadığını və 500 min sənədsiz evin olduğunu nəzərə alsaq, aydın olur ki, Azərbaycanda 2,5 milyona yaxın insanın yaşadığı evdə qeydiyyat olmaması bir yana, ömrünü keçirdiyi bu ünvanın hüquqi təsdiqi yoxdur. Buna görə də ümid edirəm ki, aidiyyatı qurumlar bu problemin həlli üçün daha ciddi addımlar atacaqlar".

Eldəniz Əmirov mülkiyyəti təsdiq edən sənədin olmadığı hallarda sənədsiz həyətyanı sahələrin vergiyə cəlb olunması barədə də danışıb.

"Sənədsiz həyətyanı sahələrin vergiyə cəlb edilməsi yaşayış sahələri olan əmlakın vergiyə cəlb edilməsindən bilavasitə fərqlidir. Mövcud qanunvericiliyə görə, fiziki şəxslərin Respublika ərazisində olan mülkiyyətində və ya istifadəsində olan torpaq sahələri vergitutma obyekti sayılır. Başqa sözlə, bir şəxsin torpağının mülkiyyəti təsdiq edən sənədi olmasa belə, əgər həmin torpaq onun istifadəsindədirsə, torpaq vergisi ödənilməlidir. Torpaqla bağlı olan vergi dərəcələri isə Vergi Məcəlləsinin 206-cı maddəsində aydın şəkildə təsbit edilib",- deyə iqtisadçı bildirib.

***İlhamə***

# Fərdi sahibkarlara "surpriz" olacaq dəyişiklik - ŞƏRH



***Milli Məclisdə müzakirəyə çıxarılan "Əmək Məcəlləsində dəyişiklik edilməsi haqqında qanun layihəsi birmənalı qarşılanmayıb.***

Layihədə Əmək Məcəlləsinin 7-ci maddəsinə 2-3-cü və 2-4-cü hissələrin əlavə edilməsi nəzərdə tutulub:

"2-3. Aşağıdakı hallarda tərəflər arasında yaranan münasibətlər əmək münasibətləri hesab edilir və onların mülki hüquqi müqavilələrlə rəsmiləşdirilməsinə yol verilmir:

2-3.1. müqavilənin məzmunu bu Məcəllənin 43-cü maddəsinin 2-ci hissəsinə, forması isə bu Məcəllənin 44-cü maddəsinin 2-ci hissəsi ilə müəyyən edilmiş formaya uyğun olduqda;

2-3.2. bu Məcəllənin 48-ci maddəsinə uyğun olaraq tərəflər arasında münasibətlərin rəsmiləşdirilməsi və müvafiq qeydlərin aparılması üçün əmək kitabçası təqdim edildikdə;

2-3.3. tərəflər arasında münasibətlər müvafiq peşə və ya vəzifəyə qəbul (təyin) edilmə, o cümlədən ödənişli seçkili və ya təyinatlı, habelə müsabiqə əsasında vəzifəni tutma, kvota üzrə işə düzəlmə, məhkəmənin qərarı ilə işə bərpa olunma ilə bağlı yarandıqda;

2-3.4. tərəflər arasında münasibətlər işəgötürənin əsas fəaliyyət sahəsinə aid işlərin (xidmətlərin) yerinə yetirilməsi ilə bağlı yarandıqda;

2-3.5. tərəflər arasında münasibətlər işlərin (xidmətlərin) əvəzçilik və ya müvəqqəti əvəzetmə qaydasında yerinə yetirilməsi ilə bağlı yarandıqda;

2-3.6. yerinə yetirilməsi şərtlərinə görə iş (xidmət) müvəqqəti xarakterə malik olduğu halda müqavilənin müddətinin uzadılması bu Məcəllənin 73-cü maddəsinə uyğun tənzimləndikdə;

2-3.7. yerinə yetirilən işə (xidmətə) görə ödənilən haqqın tərkibi bu Məcəllənin 157-ci maddəsinin 3-cü hissəsində göstərilən aylıq tarif (vəzifə) maaşından, əlavədən və mükafatdan ibarət olduqda;

2-3.8. müqavilədə bu Məcəllənin 10-cu, 77-ci, 112-ci, 179-cu və 186-cı maddələrində nəzərdə tutulmuş məsələlərin tənzimlənməsi nəzərdə tutulduqda.

2-4. Bu maddənin 2-3-cü hissəsində nəzərdə tutulan hallardan biri aşkar edildiyi gündən bu maddənin 2-ci hissəsinə uyğun olaraq yazılı əmək müqaviləsi bağlanmalıdır".

Məcəlləyə təklif edilən bu dəyişikliklər qəbul edilərsə, hazırda bir çox iş sahələrində, o cümlədən tikinti, məsləhət xidmətləri, media, QHT sektorunda üstünlük verilən mülki hüquqi müqavilələrə (xidməti müqavilə) son qoyula bilər. Bu sahələrdə işçi və işəgötürən münasibətləri əmək müqaviləsi ilə tənzimlənməlidir.

Bununla bağlı fikirlərini Valyuta.Az-a bölüşən vergi ekspert Vəli Əliyev əmək müqaviləsi bağlamaqla əlaqədar məcburiyyətin digər qanunvericilik aktları ilə ziddiyət təşkil etdiyini deyib:

"Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsinə əsasən, əmək fərdi və ictimai rifahın əsasıdır. Hər kəsin əməyə olan qabiliyyəti əsasında sərbəst surətdə özünə fəaliyyət növü, peşə, məşğuliyyət və iş yeri seçmək hüququ vardır.Konstitusiyasının 35-ci maddəsinin 4-cü bəndinə əsasən Əmək müqavilələri sərbəst bağlanılır. Heç kəs əmək müqaviləsi bağlamağa məcbur edilə bilməz".

Ekspert müqavilə azadlığının sahibkarların öz hüquqları reallaşdırması üçün əsas vasitələrdən olduğunu vurğulayıb: "Mülki Məcəllənin 390.1-ci maddəsinə əsasən, fiziki və hüquqi şəxslər azad surətdə müqavilələr bağlaya və bu müqavilələrin məzmununu müəyyənləşdirə bilərlər. Mülki Məcəllənin 390-cı maddəsində müəyyən edilən müqavilə azadlığı Konstitusiyanın 29-cu və Mülki Məcəllənin 152.1-ci maddələrində nəzərdə tutulmuş mülkiyyət, eləcə də Konstitusiyanın 59-cu maddəsində təsbit edilmiş azad sahibkarlıq hüquqlarının reallaşdırılması elementlərindən biri kimi çıxış edir".

Sözügedən normaların fiziki və hüquqi şəxslərin azad surətdə müqavilələr bağlamasına və bu müqavilələrin məzmununu müəyyənləşdirməyə təminat verdiyini deyən V.Əliyevin sözlərinə görə, müqavilə azadlığının məzmununu formalaşdıran elementlər sırasında seçdiyi kontragentlə müqavilə bağlamaq (və ya bağlamamaq), onun növü və formasını, habelə bağlanan müqavilənin şərtlərini, o cümlədən müvafiq qiymətləri müəyyən etmək azadlığı verilib.

Əmək Məcəlləsinin 3-cü maddəsinin 5-ci bəndinə əsasən, əmək müqaviləsi işəgötürənlə işçi arasında fərdi qaydada bağlanan əmək münasibətlərinin əsas şərtlərini, tərəflərin hüquq və vəzifələrini əks etdirən yazılı müqavilədir. Eyni zamanda Azərbaycan Respublikası Konstitusiyasının 35-ci maddəsinin 4-cü bəndinə əksini tapmış prinsipə əsaslanaraq Əmək Məcəlləsinin 42-ci maddəsi əmək müqavilələrinin sərbəst bağlandığını və əmək münasibətləri yaratmayan və ya yaratmaq istəməyən heç kəsin əmək müqaviləsi bağlamağa məcbur edilə bilməzliyini tənzimləyir. V.Əliyev vurğulayıb ki, Əmək Məcəlləsinə təklif edilən yeni dəyişikliklər bu prinsiplərlə ziddiyyət təşkil edir:

"Məsələn, qanun layihəsində qeyd edilir ki, tərəflər arasında münasibətlər işəgötürənin əsas fəaliyyət sahəsinə aid işlərin (xidmətlərin) yerinə yetirilməsi ilə bağlı yarandıqda əmək müqaviləsi bağlanmalıdır. Fiziki şəxsin, xüsusi ilə intellektual iş ilə bağlı əmək münasibətlərinə daxil olmaq istəməməsi səbəbindən əmək müqaviləsinin bağlanmasına razı deyilsə, bu həm də konstitusion hüququdursa niyə təklif olunan dəyişiklik vətəndaşı müqavilə bağlamağa məcbur etməlidir? Bu həm də Mülki Məcəllənin 390-cı (müqavilə azadlığı) maddəsi ilə ziddiyyət təşkil edir".

Ekspert xüsusi ilə qeyd edib ki, tikinti şirkətinin fiziki şəxsdən tikinti xidmətinin alması ağlabatan deyil. Lakin kommersiya mübahisələrində ixtisaslaşan hüquq şirkətinin, inzibati mübahisələrdə ixtisaslaşan hüquqşünasdan hüquqi xidmət alması normaldır. Eləcə də bina tikintisi üzrə ixtisaslaşmış mühəndis-lahiyələndirmə xidməti göstərən şirkətin, iri həcmli su qurğularının tikintisi üzrə ixtisaslaşmış mühəndisdən xidmət alması normaldır.

V.Əliyev hesab edir ki, müzakirə edilən qanun layihəsi mikro sahibkarlıq fəaliyyəti ilə məşğul olan fiziki şəxslərin azad sahibkarlıq hüquqlarını məhdudlaşdırır.



# Azərbaycanda siqaret bahalaşdı

***Bu gündən Azərbaycanda bütün növ siqaretlərin qiyməti artırılıb.***

GÜNpress.info xəbər verir ki, ötən günlə müqayisədə qiymətlərdə 20 qəpik artım var.

"Siqaretin topdan satışı ilə məşğul olan firmalar bu gündən bizə malları yeni qiymətlərlə göndərib. Qiymət artımı bütün siqaret markalarında olub", - pərakəndə siqaret satıcıları bildirib.

# Bakı-Astara yolunda məşhur obyektlər sökülür

***Bakı-Ələt-Astara yolunun üzərindəki restoranlar və yanacaqdoldurma məntəqəsi sökülür.***

"Qafqazinfo"nun əldə etdiyi məlumata görə, bununla bağlı iki ay öncə Baş prokuror yanında Korrupsiyaya Qarşı Mübarizə Baş İdarəsi tərəfindən araşdırma başlayıb.

Məlum olub ki, obyektlərin yerləşdiyi kafe və yanacaqdoldurma məntəqəsinin torpaq sahəsinin sənədləri qanunsuz olub.

Təxminən bir ay öncə Korrupsiya İdarəsi tərəfindən magistral yolun üzərində yerləşən "Hacıoğlu", "Ulduz", "Cız-bız", "Masallı" restoranları və SOCAR-ın yanacaqdoldurma məntəqəsinin fəaliyyəti dayandırılıb. Magistral yoldan bu obyektlərə girişi təmin edən yol da bağlanılıb.

Artıq SOCAR-ın yanacaqdoldurma məntəqəsi başda olmaqla sözügedən obyektlərin bir neçəsinin sökuntüsünə başlanılıb.

Məlumata görə, "Hacıoğlu" restoranı bələdiyyənin balansında olan torpaq sahəsində tikilib, "Ulduz" kafesinin yerləşdiyi torpaq sahəsi isə əvvəllər Meşə təsərrüfatının balansında olub. Sonra isə 3 saylı Ekologiya və Təbii Sərvətlər İdarəsinin hesabına keçib, daha sonra isə Əmlak Komitəsi həmin ərazini dövlət torpağı kimi balansına keçirib. Sahibkar isə Əmlak Komitəsi ilə müqavilə imzalayaraq torpağa dair alqı-satqı edib.

"Cız-bız" restoranının yerləşdiyi ərazi Xələc kənd bələdiyyəsinin balansında olub. 2006-cı ildə isə kənd sakini Yudif Nəzirova satılıb və onun şəxsi mülkiyyətinə keçib.

# DİN "Safe Life" MMC-ni cərimələdi

***Dövlət Yol Polisi (DYP) "Safe Life" Məhdud Məsuliyyətli Cəmiyyəti (MMC) barəsində inzibati qaydada protokol tərtib edib.***

Unikal.org-un məlumatına görə, şirkətin şikayətinə Binəqədi Rayon Məhkəməsində hakim Aygün Qurbanovanın sədrliyi ilə baxılacaq.

"Safe Life" MMC İnzibati Xətalar məcəlləsinin 347-ci (hüquqi şəxsin istifadəsində olan nəqliyyat vasitəsini inzibati xətanın törədilməsi zamanı idarə etmiş fiziki şəxs haqqında məlumatın səlahiyyətli orqanın (vəzifəli şəxsin) bu barədə sorğusu daxil olduğu vaxtdan 5 gün müddətində verilməməsinə görə) maddəsi ilə təqsirli bilinir.

Qeyd edək ki, bu xətanın törədilməsinə görə vəzifəli şəxslər yüz əlli manat məbləğində, hüquqi şəxslər üç yüz manat məbləğində cərimə edilir.



## Tahir Budaqovun YAP rəhbərliyinə gətirilməsi bu cür şərh edildi

***"Tahir Budaqov martın 9-da YAP-ın mərkəzi qərargahında kollektivə təqdim olunub. O, artıq partiyanın aparat rəhbəri kimi işə başlayıb".***

Bunu Unikal.org-a açıqlamasında Milli Məclisin deputatı Elman Nəsirov deyib.

Deputat bildirib ki, T.Budaqov partiya işində kifayət qədər təcrübəli insandır: "O, idarəetmə məktəbi keçib. İnsanlarla işləmək qabiliyyəti kifayət qədər güclüdür, ünsiyyətcildir. Mən onu tanıyıram, ən əsası odur ki, çox təmiz imicə malik şəxsdir. Tahir müəllim çox təmiz insandır. Hesab edirəm ki, belə insanların partiya rəhbərliyinə gətirilməsi partiyanın qarşısına qoyulan yeni hədəflərə çatmaq baxımından çox böyük imkanlar açır".

***Famil Fərhadoğlu***

## Azərbaycan Ordusundan revanşistlərə güc nümayişi

***Xəbər verdiyimiz kimi, martın 15-dən Azərbaycan Ordusunda qoşun (qüvvə) növlərinin cəlb edilməsi ilə əməliyyat-taktiki təlimləri keçiriləcək. Müdafiə nazirinin rəhbərliyi ilə keçiriləcək təlimə 10.000 nəfərədək şəxsi heyət, 100-dək tank və digər zirehli texnika, 200-dək müxtəlif çaplı raket və artilleriya qurğusu, reaktiv yaylım atəş sistemi və minaatanlar, 30-dək hərbi aviasiya və müxtəlif təyinatlı pilotsuz uçuş aparatları cəlb olunacaq.***

Dağlıq-meşə və çətin relyefli ərazilərdə keçiriləcək təlimlərdə Vətən müharibəsində qazanılan döyüş təcrübəsi nəzərə alınmaqla əsas diqqət qoşunların idarəolunması, döyüşə hazırolma vəziyyətinə gətirilməsi və yenidən qruplaşması, o cümlədən ümumqoşun birlikləri, Raket və Artilleriya Qoşunları, aviasiya, Xüsusi Təyinatlı Qüvvələr arasında döyüş uzlaşması və qarşılıqlı fəaliyyətin təkmilləşdirilməsinə yönəldiləcək.

Martın 18-dək davam edəcək təlimlərdə qoşunlar terrorçu dəstələr (qruplar), həmçinin qanunsuz silahlı qruplaşmalar ilə mübarizə və anti-terror əməliyyatları üzrə tapşırıqları icra edəcək.

Vətən müharibəsində qazanılan qələbədən sonra keçiriləcək ilk böyük təlimlərin əhəmiyyəti barədə Azvision.az -a danışan hərbi ekspert Ədalət Verdiyev bildirib ki, bu təlimlərdə Azərbaycan Ordusunun müharibədə əldə etdiyi döyüş təcrübəsi nəzərə alınacaq.

Onun sözlərinə görə, təlimlərdə qoşunların çətin relyefdə, xüsusilə dağlıq ərazilərdə idarə olunması ciddi önəm daşıyacaq.

"Qoşunların müxtəlif səviyyəli döyüşə hazırlıq vəziyyətinə gətirilməsi, yenidən qruplaşmaların keçirilməsi ilə bağlı fərqli addımlar atılacaq. Qoşunların terrorçu dəstələr (qruplar), həmçinin qanunsuz silahlı qruplaşmalar ilə mübarizə və anti-terror əməliyyatları üzrə tapşırıqları icra edəcəyi barədə açıqlama təsadüfi deyil. Biz bilirik ki, hazırda Qarabağ ərazisindən heç də bütün erməni silahlıları təmizlənməyib. Əfsuslar olsun ki, bu funksiyalar sülhməramlıların oraya daxil olması ilə paralel şəkildə, həm də həmin sülhməramlılar tərəfindən həyata keçirilməli idi. Bu proseslər bu günə qədər nə vizual, nə də rəsmi bəyanatlarda öz əksini tapıb.

Odur ki, Azərbaycan Ordusu mövcud hərbi-siyasi vəziyyət fonunda təlimlərin mövzusunu məhz real şəraitə uyğunlaşdıraraq erməni silahlı birləşmələrinə, Ermənistandakı revanş tələb edən müxalif qüvvələrə bir daha öz imkanlarını nümayiş etdirəcək. Düşünürəm ki, bu təlimlər Ordumuzun qələbədən sonra əldə etdiyi təcrübəni digər hissə və bölmələrlə paylaşması, qarşılıqlı əlaqənin təşkili baxımından böyük əhəmiyyətə malikdir. Təlimlər həm hərbi, həm də hərbi-siyasi məqsədlər daşıyacaq".

# Hacıbala Abutalıbov gözəlləşdirdiyi şəhəri niyə tərk elədi...

### Sabiq mer vəzifədə ikən büdcə pulları ilə aldığı bahalı dekorativ ağacları axırda təbiət qoynuna, təbii yaşıllıqlara dəyişdi

***Yola salmaq üzrə olduğumuz həftənin maraqlı xəbərlərindən biri də Bakı Şəhər İcra Hakimiyyətinin sabiq başçısı və Baş nazirin keçmiş müavini Hacıbala Abutalıbov barəsində oldu. Həmin xəbərdə deyilirdi ki, Abutalıbov paytaxtdan köçüb. Hacıbala müəllimin yaxınlarının yerli mediaya verdiyi məlumatda bildirilirdi ki, Hacıbala müəllim artıq bir müddətdir ki, Bakıda yaşamır. Onun hazırda Qax rayonunun İlisu kəndində məskunlaşdığı bildirilir.***

Məlumata görə, Abutalıbov hələ vəzifədəykən İlisuda dəbdəbəli villa tikdirib və indi orada yaşayır. Əlbəttə, Hacıbala müəllimin harada yaşaması onun öz seçimidir. Elə uzun illər yüksək vəzifələr tutduqdan sonra yaşının ahıl vaxtında sakitliyə çəkilməsində, təbiət qoynunu özünə məskən eləməsində də təəccüblü heç nə yoxdur.



Lakin nəzərə alanda ki, Abutalıbovun həm də paytaxtı birdəfəlik tərk etdiyi deyilir, bax onda sual yaranır: Hacıbala müəllim 1960-cı illərin ortalarından yaşadığı, müxtəlif vəzifələrdə çalışdığı, uzun illər rəhbərlik elədiyi Bakıda dincəlməyi niyə istəməsin ki?

Ümumiyyətlə, paytaxtdan nə üçün biryolluq uzaqlaşsın ki? Axı sabiq mer özü az qala hər çıxışında Bakı və onun gözəlliyi, rahatlığı ilə bağlı ürəkdən danışırdı. Bəs niyə günlərin birində paytaxtı tərk edərək ucqarlara çəkilmək qərarı verib? Şübhəsiz, Bakı gözəl şəhərdir. Bu dünən də belə idi, bu gün də belədir, gələcəkdə də belə olacaq. Ona da şübhə yoxdur ki, son 15-20 ildə Bakı sürətlə dəyişib, müasirləşib, modernləşib. Bir çox baxımdan gözəlliyinə gözəllik qatıb. Ancaq bunu da qeyd etmək lazımdır ki, xüsusilə 2000-ci illərin əvvəllərindən - Abutalıbov paytaxtın icra başçısı təyin edildikdən sonra burada misli görünməmiş tikinti bumu başladı. Sonrakı müddətdə Bakıda çoxsaylı yeni binalar inşa edildi, bu binalar şəhərin görkəmini müsbət mənada xeyli dəyişsə də, plansız və proqramsız tikililər sayəsində istər estetik, istərsə də ekoloji baxımdan ölkənin birinci şəhəri ilə bağlı ürək açmayan mənzərələrin də şahidi olmağa başladıq.

Məsələn, bu gün paytaxtda yaşıllıqların az olması ciddi məsələlərdən biridir. Dekorativ ağaclara üstünlük verən Hacıbala müəllim illər uzunu təbii yaşıllıqların "tikinti bumu"nun qurbanına çevrilməsinə göz yumdu. Nəinki göz yumdu, hətta ağacların kəsilib yerində göydələnlər, ticarət obyektləri, kafe- restoranlar inşa edilməsinə rəvac verdi.

Ekspertlər, mütəxəssislər illərdir həyəcan təbili çalır: paytaxtda son 20 il ərzində çoxlu sayda göydələn tikilsə də, şəhərin relyefi çoxmərtəbəli binalar üçün əlverişli deyil, bu, sürüşmə təhlükəsi yaradır. Çoxmərtəbəli binaların əksəriyyəti şəhərsalma qaydalarına uyğun deyil. Belə ki, iki bina arasında məsafə onların hər ikisinin hündürlüyünün yarısına bərabər olmalıdır. Bakıda isə binalar arasında çox az məsafə saxlanılır və bu da bir sıra təhlükəsizlik qaydalarının pozulmasıdır. Üstəlik, bu binalar heç bir estetik zövq daşımır. Bundan başqa, paytaxtın ekoloji tarazlığını pozur, insanları sıxır, boğur. Hacıbala müəllim isə paytaxt meri olarkən heç vaxt bu cür həyəcan təbillərinə adekvat reaksiya verməyib.

Nəticədə o və ətrafı, eləcə də məmur himayəçiliyindəki iş adamları görünməmiş sürətlə zənginləşdiyi halda Bakı ilə bağlı çox sayda problemlər, fəsadlar meydana çıxıb. Təəssüflə qeyd etmək lazımdır ki, bu gün artıq çoxları paytaxtda ərazilərin tarazlı istifadəsi və inkişafı, yol- nəqliyyat infrastrukturunun və ictimai nəqliyyat sisteminin inkişafı, ətraf mühitin və ekoloji durumun yaxşılaşdırılması, mühəndis-kommunikasiya sisteminin yaxud ictimai məkanların inkişafı, əsaslı tikinti və tikinti sıxlığının tənzimlənməsi kimi məsələləri önə çəkməkdədir.

Halbuki Abutalıbov Bakıya rəhbərlik etdiyi 17 il (2001 - 2018) boyunca bu istiqamətdə önəmli addımlar ata bilərdi. O isə paytaxtın görkəmində daha çox zahiri və kosmetik yenilənməyə, dəyişikliyə üstünlük verdi. Yəqin ona görədir ki, axırda sabiq merin özü belə ömrünün ahıl çağlarını Bakıda deyil ondan xeyli uzaqdakı bir kənddə yaşamağı daha doğru sayıb.

Düz 12 il mer olduqdan sonra - 2013-cü ildə Hacıbala müəllim jurnalistlərə demişdi: "Bakımız gözəlləşir, çalışacağıq ki, Bakını dünyanın ən gözəl şəhərinə, yaşıllıqlar, fəvvarələr şəhərinə çevirə bilək". Bu sözləri söylədikdən sonra Abutalıbov daha beş il mer postunda qaldı. Deməli, o, üst-üstə 17 il ərzində paytaxtda arzuladığı (!) gözəlliyi yarada bilməyib ki, sonda paytaxtı kəndə dəyişib. Bakını bəzəmək üçün od qiymətinə xaricdən alıb gətirdiyi dekorativ ağacları axırda təbiət qoynundakı təbii ağaclara dəyişib. Nə deyirik, Hacıbala müəllim, xoş istirahətlər! Ancaq arada Bakıya baş çəkməyi unutmayın ki, uzun illər paytaxtda maddi maraqlar naminə apardığınız plansız-proqramsız tikintilərin hansı fəsadlara yol açdığını da görə biləsiniz...

***Orxan Həsənli***

# Rusiyanın Ermənistanı dirçəltmə planının pərdəarxası

## Politoloq hesab edir ki, Moskva Ermənistan vasitəsilə təhlükəsizliyi təhdid edəcək siyasətə üstünlük verəcəyinin işartıları görünür

***Ermənistan Baş Qərargah rəisi Onik Qasparyan vəzifədən uzaqlaşdırılıb. Onun yerinə sabiq Qərargah rəisi Artak Davatyan yenidən təyin olunacaq. Bununla Paşinyan Baş Qərargahı özünə tabe etdirməklə, Moskvanın Ermənistanda planın fiaskoya uğratmış olacaq. Artıq proseslər bu istiqamətdə gedir.***

Ermənistanda siyasi vəziyyət həlledici mərhələyə qədəm qoyur. Paşinyan bundan sonra müxalifətə qarşı xüsusilə R. Koçaryan və V.Manukyanın palnalarnı pozmuş olacaq. Demək olar ki, R. Koçaryan klanı, Baş Qərargh, prezident və onlara dəstək verən Moskva N.Paşinyana məğlub oldu. Paşinyanın bundan sonra, əsas strategiyası ordunu Koçaryan, Sarkisyanın adamlarından təmizləmək olacaq. Belə olan təqdirdə Ermənistanda silaha əl atıla bilər.



"Unikal" qəzetinə açıqlama verən MCP sədrinin muavini, politoloq Məhəmməd Əsədullazadə hesab edir ki, Azərbaycan Ermənistandakı prosesləri diqqətlə izləməli, sərhəddə təxribatlara qarşı hazır olmalıdır: "Məhz Azərbaycan ordusunun böyük miqyaslı təlimlərə başlaması, məhz baş verən problemlərdən qaynaqlanır. Hazırda erməni silahlı birləşmələri Qarabağda fəaliyyət göstərir. Zəngəzurda Rusiya hərbi bazası yaradılıb. Bu da ölkəmizin hərbi vəziyyətini gücləndirməyə və hazırlıq vəziyyətində, hərbi təlimlər keçirməyə vadar edir".

Politoloq onu da qeyd edib ki, Rusiyanın Ermənistan ordusunun yenidən qurması və silahlandırması birbaşa Rusiya müdafiə naziri Sergey Şoyqunun nəzarətindədir. Onun fikrincə, hər həftə erməni vəzifədaşı Vaqarşak Arutunyanla telefon əlaqəsi saxlayır, prosesləri kordinasiya edir: "Rusiya İran ərazisindən və Hərbi nəqliyyat təyyarələri vasitəsilə Erebuni bazasına silahlar daşıyır. Bununla yanaşı Rusiyanın Gümrüdəki "102-ci" bazası erməni ordusunu şəxsi heyətinin döyüş hazırlığının artılması istiqamətində yeni təlimatlar hazırlayıb. Rusiyanın Ermənistanın silahlandırması və ordusunu yenidən qurması əsasən, Cənubi Qafqazda Azərbaycana qarşı formalaşdırmaq. Həmçinin Ermənistanda qalıcılığını qorumaqdır.

Qeyd edim ki, Ermənistan Baş naziri Nikol Paşinyan hakimiyyətini möhkəmləndirməklə, Rusiyanın Ermənistanda varlığına son qoymağa çalışacaq. Bunu Kremldə də yaxşı başa düşürlər. Ermənistan vətəndaşları, məhz Paşinyanın anti-Rusiya siyasətinə dəstək verir. Ona görə də Rusiya erməni cəmiyyəti ilə deyil, Ermənistan ordusunu yenidən formalşaldırmaq və silahlandırmaqla öz dayaqlarını möhkəmləndirir. Bununlada Ermənistanı öz nəzarətində saxlamağa çalışacaq. Həmçinin əlverişli siyasi şərait yarandıqda Ermənistanda hakimiyyəti Koçaryan kimilərin vasitəsilə orudunun əli ilə nəzarətə alacaq".

M.Əsədullazadə hesab edir ki, bununla yanaşı növbəti mərhələdə Azərbaycana qarşı istifadə etməsi də mümkündür: "Nikol Paşinyan Rusiyanın bu siyasətinin qarşısını almasa, öz hakimiyyəti üçün, həm də Ermənistan üçün yeni problemlərin ortaya çıxması gözlənilir. Məhz bu plana uyğun olaraq Rusiya Ermənistanı silahlandırır. Azərbaycan Rusiyanın Ermənistan siyasətini diqqətlə izləməlidir. Moskvanın erməni ordusunu silahlandırması prezident İlham Əliyevin bir neçə dəfə haqlı narazılığına səbəb olub. Əgər, Rusiya bunu edirsə, təbii ki, AzərbaycanTürkiyə-Paksitanla ortaq bir hərbi ittifaqı qurmalıdır. Öz silahlı qüvvələrini gücləndirməlidir. Hazırda Azərbaycan ordusu mütəmadi hərbi təlimləri, yeni silahların alınması Rusiyanın Ermənistan siyasətinə cavabdır. Regionda təhlükəsilzik təmin edilməyib. Moskva Ermənistan vasitəsilə təhlükəsizliyi təhdid edəcək siyasətə üstünlük verəcəyinin işartıları görünür".

Politoloq Elxan Şahinoğlu isə bizimlə söhbətində xatırladıb ki, Rusiya, Azərbaycan və Ermənistan liderlərinin Moskvada 11 yanvarda qəbul etdikləri bəyanat 4 maddədən ibarət idi. Onun sözlərinə görə, 4 maddəlik bəyanatın ümumi mənası bu idi ki, 3 dövlət arasında işçi heyət və ekspertlərdən ibarət altqruplar yaradılmalıdır: "İşçi heyətdə əməkdaşlığın aktual mövzuları müzakirə edilməli və sonda yekun sənəd hazırlanaraq imzalanmaq üçün liderlərə verilməliydi. İşçi heyətə və ekspertlərə martın 1-ə qədər sənədi hazırlamaq tapşırılmışdı. Bu sıraya kommunikasiya xətlərinin açılması və beynəlxalq daşımaçılığın təmin olunması daxil idi. Ermənistan bəyanatın əsas bəndini yerinə yetirməyib. Doğrudur, baş nazirlərin müavinləri bir neçə dəfə Moskvada görüşüblər, ancaq bəyanatda deyildiyi kimi ekspertlərdən ibarət altqrupların fəaliyyətə başlaması barədə məlumat yoxdur. Digər tərəfdən martın 1-i geridə qalıb, ancaq liderlərə təklfilər paketi təqdim edilməyib".

Politoloq deyib ki, Ermənistanın baş naziri Nikol Paşinyan onu əsas gətirə bilər ki, ölkəsində vəziyyət gərgindir və hazırda onun və komandasının Azərbaycanla əməkdaşlığa dair təkliflər paketi hazırlayacaq halı yoxdur: "Ancaq Ermənistanda xaos uzun müddət davam edə bilər. Bu o deməkdirmi ki, Paşinyan bunu bəhanə edərək kommunikasiya xətlərinin açılması məsələsini yubada bilər? Elə Ermənistan Xarici İşlər Nazirliyinin mətbuat katibi verdiyi açıqlamalarda daima Naxçıvanla Azərbaycanın materik hissəsi arasında koridorun mümkün olmadığını səsləndirir. Belə çıxır ki, Paşinyanın Moskvada qəbul etdiyini onun naziri təkzib edir və ya Paşinyan özü XİN vasitəsilə imza atdığı bəyanatdan yayınmağa çalışır. Görünür, Paşinyan müxalifətə ona təzyiqi artırmaq üçün əlavə alət vermək istəmir. Azərbaycan prezidenti İlham Əliyev son geniş mətbiat konfransında dedi ki, Ermənistan kommunikasiya xətlərinin açılmasına mane olmağa çalışır.

Aydındır ki, Nikol Paşinyan indiki vəziyyətdə kommunikasiya xətlərinin açılmasına hazır deyil. Ancaq Azərbaycan onun buna nə zaman hazır olacağını gözləyə bilməz. 11 yanvar bəyanatın müəllifi Rusiya prezidentidir. Deməli, Moskvadan İrəvanın məsələni gecikdirilməsiylə bağlı izahat istənilməlidir".

***Z.Məmmədli***



# Deputat Ceyhun Məmmədov hesabat verdi

***Milli Məclisin Elm və təhsil, İctimai Birliklər və qini qurumlar komitələrinin üzvü, 120 saylı Cəbrayıl-Qubadlı seçki dairəsinin deputatı Ceyhun Məmmədov təmsil etdiyi dairə üzrə gördüyü işlərin 6 aylıq hesabatını təqdim edib.***

"Unikal"ın məlumatına görə, deputat qeyd edib ki, ümumilikdə VI çağırış Milli Məclisin iş fəaliyyətinin dünyadakı pandemiya dövrü ilə üst-üstə düşməsi hər kəs kimi millət vəkilləri üçün də xeyli çətinliklər yaratdı.

"Bu çətinliklərə baxmayaraq çalışdıq ki, işlərimizi Prezident İlham Əliyevin VI çağırış Milli Məclisin ilk açılışındakı konseptual çıxışında irəli sürdüyü fəaliyyət planına uyğun quraq, hər bir seçicimizin yanında olaq, onların problemləri ilə yaxından tanış olaq, onlardan gələn müraciətləri qısa zaman ərzində aidiyyatı qurumlara yönləndirək və həlli üçün lazımi tədbirləri görək.

Fəaliyyətimin ilk ayından bütün dünya ölkələri kimi Azərbaycan da tarixdə görünməmiş çətin bir dönəmə daxil oldu. Dünya tanış olmayan, haqqında heç bir elmi əsər yazılmayan bir virusla mübarizəyə başladı. Virus bizi bir-birimizdən uzaq tutsa da, istər Milli Məclisdə, istərsə də müxtəlif Kütləvi İnformasiya Vasitələrində öz çıxışlarımızla, yazılarımızla daim yanınızda olduq, zəngləriniz üçün gecə-gündüz telefonlarımı açıq saxladıq, onlayn qəbullar etdik, aramızda yaranmış məsafəni bu yollarla aradan qaldırmağa çalışdıq", - deputat seçicilərinə ünvanladığı hesabatda qeyd edib.

Onun sözlərinə görə, bu müddətdə ümumilikdə yazılı 67, şifahi 598, sosial şəbəkələr vasitəsilə 473 müraciətə baxıb.

"Müraciət edən hər bir şəxslə əlaqə yaradılıb, problemlər diqqətdə saxlanılıb. Kütləvi İnformasiya Vasitələrinə 100-dən artıq müsahibə verilib".

C.Məmmədov xatırladıb ki, 2020-ci il ölkəmiz üçün həm də uğurlu olub. 44 günlük Vətən müharibəsi Azərbaycanın qüdrətini, dünyaya göstərib.

"Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə əldə olunan bu tarixi uğurlar bütün Azərbaycan cəmiyyətində olduğu kimi, mənim də həyatımda heç bir zaman silinməyəcək xoş təəssüratlar yaratdı. Bu gün artıq mənim də təmsil etdiyim Cəbrayıl və Qubadlı rayonları işğaldan azad olunub. Bundan sonra bizim qarşımızda görüləcək daha çox işlər var. Rayonumuzun yenidən bərpası üçün, inkişafı üçün bütün gücümüzlə çalışaraq bizə göstərilən etimadı doğrultmaqda davam edəcəyik.

Ümid edirik ki, 2021-ci ildə bizim iş fəaliyyətimizə ciddi təsir göstərən koronavirus pandemiyası ilə üzləşməyəcəyik. Bu çətinliklər arxada qalacaq və seçicilərimizin daha çox yanında olmağa çalışacaq, onlarla birgə uğurlu nəticələrə nail olacayıq",- deyə Ceyhun Məmmədov bildirib.



## Ukrayna iki yerə parçalanmaq təhlükəsi ilə üz-üzə qalıb - Politoloqdan şərh

***Ukraynanın rəsmi dövlət nümayəndələrinin, millət vəkillərinin və tanınmamış Donetsk Xalq Respublikası rəhbərinin çıxışı Donbasda hərbi əməliyyatların aktivləşəcəyi ilə bağlı fikir yaradır. KİV-də artıq xarici dövlətlərin hərbi qüvvələrinin, təlimçilərinin təmas xəttində olması, Ukrayna silahlı qüvvələrinin hazırlığının yoxlanması ilə bağlı məlumatlar dərc olunur.***

Mövzu ilə bağlı Bakivaxti.az-a açıqlama verən politoloq Elxan Şahinoğlu bildirdi ki, Ukraynanın şərqində vəziyyət gərgindir: "Atəşkəs intensiv olaraq pozulur. Separatçıların təxribatları davam edir, Rusiya isə onları dəstəkləyir. Rusiya Kiyevi müharibə başladığı təqdirdə Donbası özünə birləşdirməklə hədələyir. Yalnız Donbasla kifayətlənməyərək, Herson, Xarkov, Nikolayev, Odessa, Azov dənizinə çıxışı olan Mariupolu ələ keçirib yarımçıq qalmış bir planı tamamlamaq istəyir. Beləliklə, iki bölünmək təhlükəsi ilə üz-üzə qalan Ukraynada vəziyyət gərgindir. Düzdür, Ukrayna ordusu son 4-5 ildə güclənib, modern silahlar alıb və separatçılarla müharibə ərəfəsində yüksək döyüş hazırlığı nümayiş etdirir. Amma Ukrayna üçün müharibənin böyük riskləri də var, çünki qarşısında Rusiyadır. Rusiya Qərbin sanksiyalarından çəkinməyərək növbəti torpaqları işğal edə bilər. Atəşkəs intensiv olaraq pozulur, itkilər barədə məlumat var. Atəşkəsin pozulması hər an lokal toqquşmalara və müharibəyə gətirib çıxara bilər".

***Bəhruz Salmanov***

## Xaçatryanın şikayəti üzrə məhkəmə iclası təyin edilib

***Ermənistan inzibati məhkəməsinin hakimi Mari Ambarsumyan Silahlı Qüvvələrin Baş Qərargah rəisinin keçmiş birinci müavini Tiran Xaçatryanın işi üzrə aprelin 29-na məhkəmə iclası təyin edib.***

Məlumatı "Novosti Armeniya" yayıb. Bildirilib ki, Tiran Xaçatryan 2021-ci il fevralın 24-də tutduğu vəzifədən azad edilməsi ilə bağlı Ermənistan prezidenti Armen Sarkisyanın qərarının qanunsuz sayılmasını tələb edir.

İş üzrə cavabdeh Ermənistan prezidenti Armen Sarkisyandır. Məhkəmədə üçüncü şəxs qismində baş nazir aparatı və Ermənistan Silahlı Qüvvələri Baş Qərargahı çıxış edəcək.

Qeyd edək ki, fevralın 24-də Armen Sarkisyan general-leytenant Tiran Xaçatryanın vəzifəsindən azad olunması haqqında fərman imzalayıb. Buna səbəb general-leytenantın Nikol Paşinyanın "İsgəndər" raketinin "10 faizinin partlaması" ilə bağlı dediklərini ələ salması olub. Tiran Xaçatryan jurnalistin "Paşinyanın iddia etdiyi kimi "İsgəndər" raketlərinin 10 faizinin partlaması mümkündürmü?" sualına əvvəlcə xeyli gülüb, sonra isə deyib: "Əlbəttə, mümkün deyil. Necə? "İsgəndər?" Bir atəş? ... 10%?.. Bağışlayın, amma bu qeyri-ciddidir".

Ermənistanın Müdafiə Nazirliyi bundan bir neçə sonra geniş bəyanatla çıxış edib. Nazirlik iddia edib ki, Xaçatryanın sözləri guya "təhrif olunub".

# XRİSTİANLARLA MÜSƏLMANLARIN KÖRPÜ QURDUĞU İRAQ

## İbrahim peyğəmbərin şəhərindən dünyaya hansı mesajlar verildi?



***Papa Fransisk xristianlarla müsəlmanlar arasında körpü qurmaq üçün getdiyi İraqda ən təsirli şiə lideri olan böyük ayətullah Əli əl-Sistani ilə bir araya gəldi. Sistaninin Nəcəfdəki evində reallaşan bu görüş bir Papa ilə bir şiə lider arasında keçirilən ilk görüş idi.***

Papanın Ərbildə kürd siyasətçilərlə keçirdiyi görüşlər və Mosulu ziyarət etməsi isə öz daxilində bir çox məna daşıyırdı.

Bu tarixi səfər, liderlərindən birinin qlobal səhnədə tanındığını görmək baxımından, şiələr üçün də çox önəmli idi. Çünki görüş ABŞ-la İraqdakı İran dəstəkli şiə milis qrupları arasında qarşıdurmanın şiddətləndiyi bir vaxta təsadüf etdi.

Papa Fransisk "hamımız qardaşıq" mesajı ilə "sizə hacı olaraq gəldim" dedi. Peyğəmbərlərin babası İbrahimin şəhəri Urda dua edərək də dünyaya və 3 səmavi dinin mənsublarına bir mesaj verməyə çalışdı.

Əslində, Ur əsrlərdir unudulmuş bir şəhərdir. İlk dəfə 2003-cü ildə bu şəhərə getdiyim zaman necə sahibsiz qaldığına şahid oldum. Daha sonra 11 dəfə getdiyim bu şəhərdə Səddamdan sonra da bir şey dəyişməmişdi.

İbrahim peyğəmbərin şəhəri olan və əhalisi bütlərə ibadət etməyi rədd edən Ur, Papanın ziyarəti, belə bir böyük ziyarət sürprizi olana qədər, 6 min il boyunca, elektrik və təməl xidmətlər görməyən bir şəhər idi. Ziyarət səbəbilə yollar asfaltlandı, elektrik kabelləri döşəndi, divarlar boyandı, küçələr təmizləndi və şəhər, on illər ərzində hökumətlərin gündəliyinə belə girməməsinə rəğmən, 3 gün içində işıqlandı.

Papa yaşının irəliləməsinə, yoluxucu xəstəliyin olmasına, hava limanlarına, bazalara və həssas nöqtələrə raketlərin yağış kimi yağmasına baxmayaraq 20 ildir təxirə salınmış olan bu ziyarəti reallaşdırmaq məsələsində israrçı davrandı. Məncə, yaxşı etdi...

Ziyarətin əsil məqsədi 2003-cü il sonrası xristian azlığın iztirablarına işıq tutmaq olsa da, ümumi məqsədi ölkədə dini azlıq mövqeyində olan katolik kəldanilərdən assuriyalılara, böyük qismi İŞİD istilası öncəsi çörəkpulu qazanmaq üçün İraqdan xaricə qaçan ermənilərdən İŞİD-in zülmünə məruz qalan yezidilərədək, müxtəlif məzhəblərdən olan xristianları rahatlatmaq idi.

Xülasə, Papa, Vatikanın assuriyalılara və kəldanilərə xüsusi önəm verdiyi məlum bir durum olsa da, xristianların öz torpaqlarını tərk etməsini istəmir. Doğrusu, Həzrəti İsanın (ə.s.) danışdığı arami dilində söylənən mahnılarla qarşılandığı zaman çox duyğulandığı müşahidə edilirdi.

Papanın İraq ziyarətinin son dayanacağı olan Qaraquş, Ninova düzündəki köklü xristian ailələrinin sıx yaşadığı bir bölgə idi. 2014-cü ildə İŞİD terror təşkilatının bura girməsilə birlikdə, illərlə hüzur içində yaşayan və ölkənin əsas hərəkətverici qüvvəsi mövqeyində olan xristianlar da yezidilər kimi bu dünyanın ən barbar təşkilatının hədəfi olmuşdular. Bu torpaqların tarixində şiddət və qorxu bir daha özünü İŞİD timsalında göstərirdi. Minlərlə xristian ailə Zaho və Dohuka qaçmağa məcbur olmuşdu. O dövrdə dünya onlardan danışırdı, amma onlara ilk çadır və humanitar yardımı məhz Türkiyə çatdırmışdı.

2014-cü ildə İŞİD bölgədə irəliləməyə başlayarkən bura ilk yetişən də yenə Türkiyə idi. Bir ovuc xristian gənc əllərində olan köhnə silahlarla ailələri qorumağa çalışırdı. O dövrdə xristian gənclərin bir çoxu ailələrinin yaşayışını təmin etmək üçün Avropaya işləməyə getmişdi. Burada əsasən qadınlar və uşaqlar qalmışdı...

O zamanlar amerikanlar əliaçıq deyildilər. Nəinki bu xristian azlığa, hətta kürd administrasiyasına belə, hazırda YPG-yə verdikləri kimi, silah dəstəyi verməmişdilər.

Bölgədəki müxtəlif etnik və məzhəbçi qruplara mənsub yüz minlərlə insan, bu coğrafiyada minlərlə məğlubiyyətin, xəyanətin və məyusluğun formalaşdırdığı bir tarixin öyrətdiyi kimi, səbrlə gözləyirdi.

Tarix 18 avqust 2014-cü ili göstərirdi. İŞİD Mosulda irəliləyərkən, biz də bölgəyə getmişdik. Kəldani xristianlarının kiçik şəhəri olan Alkoşa doğru getdim. Çünki Mosulun içindəki 17 kilsə və xaricindəki bütün xristian ibadət mərkəzləri yağmalanmış və partladılmışdı. Alkoşda təqribən 7 min xristian ailə yaşayırdı. Amma şəhər boş idi. Qəbiristanlıqdakı ölülər belə, yalnız qalmışdılar. "Kəldanilərin Vatikanı" kimi tanınan antik monastırın o kədərli görüntüsü isə qorxunc idi.

O gün yollara tökülən ailələri idarə olunan şəkildə şəhərdən çıxaran rahib Qabriel İbrahim, rahib Qassan Hadiri və rahib Rafael Hudami ilə bir az söhbət etmişdim. Qabriellə Qassanın etdiyi o dualar heç yadımdan çıxmadı. Qabriel "Beş il sonra burada artıq xristian qalmayacaq. Tariximiz başa çatdı. Bizi istəməyən dünyada yalnız qaldıq. Roma da bizi tərk etdi" demişdi.

Əslində, Qabrielin mövqeyi dəqiq idi, açığı, verdiyi reaksiya Papaya qarşı idi...

O dövrdə Papanın İraqa, III minilliyin yaşandığı bir dövrdə dünyanın ən böyük ağrılarının yaşandığı coğrafiyaya gəlməli olduğunu mən də kürdlərin vəzifəli şəxslərinə söyləmişdim. Aradan 7 il keçəndən sonra Papa orada qalanlara, yəni, qaçmayanlara Tanrının daima mövcud olduğunu göstərmək üçün gəldi.

Papa İraqdakı bütün xristianların sığındığı kürd bölgəsinə də xüsusi bir təşəkkür etmək üçün getdi. Çünki 2003-cü ildən bu yana İraqlı assuriyalı, kəldani və ermənilərin sığına bildikləri yeganə bölgə bura idi. Kürd administrasiyası, xristianların öz azad həyatlarını yaşamağa davam etmələri üçün Ərbil, Süleymaniyyə və Dohukda bölgələr ayırdı. Papa Ərbilə bu səbəblə xüsusi təşəkkür etmək üçün getdi.

Adam məyus olmaya bilmir. Kaş biz də Türkiyə olaraq 2014-cü ildə yerini-yurdunu tərk edən xristianların həyatlarını necə xilas etdiyimizi, onların təhlükəsizliyini təmin etmək üçün necə silah verdiyimizi və humanitar yardım etdiyimizi dünyaya çatdıra, anlada bilsəydik... Çünki onların köməyinə ilk gedən, onlara ilk əl uzadan biz idik.

***Çətinər Çətin***
***"Habertürk", Türkiyə, 08 mart 2021-ci il***

**Ermənistan-Azərbaycan, ərazilərin işğaldan azad olunması haqqında həqiqətlərin dünya ictimaiyyətinə çatdırılması, Azərbaycanın ədalətli mövqeyinin müdafiə edilməsi.**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

# Ermənistanın törətdiyi ekoloji terror Dağlıq Qarabağ həqiqətləri olaraq dünyaya çatdırılmalıdır

## Mirnuh İsmayılov: "Düşmən işğal etdiyi ərazilərdə işğal dövründə vurduğu ekoloji ziyanın təzminatını ödəməlidir"

***Ermənistanın 28 il Azərbaycan torpaqlarını işğal altında saxlaması nəticəsində Azərbaycan dövlətinə külli miqdarda ziyan dəyib. Həmin ərazilərdə tarixi-mədəni abidələrin, məscidlərin dağıdılması, məzarlıqlara belə vandal münasibət mənəvi baxımdan ziyan vurmaqla yanaşı, şəhər və kəndlərimizin dağıdılması, infrastrukturun məhv edilməsi, işğal dövründə Azərbaycan dövlətinə vurulan ölçüyəgəlməz maddi zərərdir.***

Millət vəkilləri torpaqlarımızı işğaldan azad etməklə tarixi ədaləti bərpa etsək də, işğalçı dövlətin vurduğu ziyanı ödəməli olduğunu söyləyirlər. Ekspertlər Dağlıq Qarabağ həqiqətlərinin dünyaya məhz Ermənistanın işğal dövründə ekoloji,mədəni, sosial terroru vasitəsilə bəyan edilməli olduğu qənaətindədirlər.

Milli Məclisin deputatı Əli Hüseynli bildirir ki, Azərbaycan dövləti işğal dövründə vurulmuş ziyana görə təzminat almaqda israrlı olmalıdır. Onun sözlərinə görə, erməni varvarları zəbt etdikləri Qarabağ torpaqlarını viran qoyub, bütün infrastrukturu məhv edib, evləri, binaları talayaraq yerlə-yeksan edib, xalqımızın tarixi, mədəni və mənəvi irsinə ağır zərbə vurublar:

"100 min hektar kənd təsərrüfatı təyinatlı münbit torpaqlar, 54 min hektar meşə fondu məhv edilib. Bölgə ekoloji fəlakət həddinə çatdırılıb. Bu vandallıq hətta 10 noyabr üçtərəfli Bəyanatın qəbul olunmasından sonra da davam edib. Vurulmuş ziyanın həcmi 100 milyardlarla ölçülür. Artıq dünyanın aparıcı media qurumları da Ermənistan tərəfindən barbarcasına dağıdılan əraziləri Xoresima ilə müqayisə edirlər. Onları ruhlar şəhəri adlandırırlar. Həmin ərazilərdə iqtisadi aktivliyin dayanması ciddi ziyan kimi hesablanmalıdır. Bu baxımdan, Ermənistanın işğal altındakı ərazilərimizə vurduğu ziyan, sadəcə, onun birbaşa etdiyi dağıntılar ilə məhdudlaşmayacaq. Həmin ərazilərimizin böyük iqtisadi potensialını nəzərə alsaq ümumdaxili məhsula dəyən ziyanın ayrıca hesablanması, təzminat məbləğinə daxil edilməsinə ehtiyac yaranır".



Ə.Hüseynli deyir ki, bununla bağlı Dünya Bankı, BMT kimi beynəlxalq institutların aydın metodologiyası var: "Təbii resurslarımızı icazəsiz istismar edən xarici şirkətlərin də məsuliyyətə cəlb olunması gündəlikdədir. Bu beynəlxalq cinayətdir. Digər tərəfdən, tarix və mədəniyyət abidələrinin mühafizəsi, bununla da insanların mədəni hüquqlarının təmini tək o ölkələrin daxili qanunvericiliyi ilə deyil, həmçinin beynəlxalq hüquq normaları ilə tənzimlənir".

Beləliklə Milli Məclisin deputatı Əli Hüseynli deyir ki, tarix və mədəniyyət abidələrinin mühafizəsi, bununla da insanların mədəni hüquqlarının təmini tək o ölkələrin daxili qanunvericiliyi ilə deyil, həmçinin beynəlxalq hüquq normaları ilə tənzimlənir.

Qeyd edək ki, torpaqlarımızın işğaldan azad olunması isə Qarabağın ekoloji problemini və bu problemin həlli ilə bağlı mövzunu bir daha gündəmə gətirib. Mütəxəssislər işğaldan azad olan torpaqlarımızda həyata keçirilən ekoloji terrorun ölçüyəgəlməz olduğunu söyləyirlər. Azərbaycan Milli Elmlər Akademiyasının Coğrafiya İnstitutunun elmi katibi Mirnuh İsmayılovun sözlərinə görə, müharibə başlayandan Qarabağ bölgəsi ekoloji təcavüzə məruz qalıb. Mirnuh İsmayılov deyir ki, hərbi istehkamlar, ağır texnikanın hərəkəti üçün olan nizamsız yollar torpaqları deqradasiyaya, erroziyaya uğradıb.

M.İsmayılovun sözlərinə görə, düşmən yeraltı ehtiyyatlarımızdan da kor-koranə istifadə ediblər: "Zəngilanın yatağı, Kəlbəcər ərazisində olan civə və qızıl yataqlarında ekoloji ekspertiza həyata keçirtmədən bilavasitə ərazinin mineral ehtiyyatlarından istifadə etməklə ekoloji sistemə olduqca böyük ziyan vurublar. Orda gözəl meşələrimiz, çəmənlərimiz var idi. Ermənilər eyni zamanda tullantıları düzgün idarə etməməklə də ekoloji sistemə zərər vurublar. Tullantıları kor-koranə şəkildə çay-dərələrə atıblar ki, bu da sonradan sel ocaqlarının yaranmasına səbəb olub. Yeraltı sərvətlərdən - mineral sulardan istifadə də ciddi şəkildə bizə milyardlarla manat ziyan vuraraq ekoloji mühitin pozulmasında rol oynayıblar. Əvvəllər kənd olan və onun ətrafında ekosistem olan ərazilər var ki, onlar tamamilə məhv ediliblər. Ekosistemin bərpası da çətin gedən bir prosesdir. Pozulan təbii ekosistemi olduğu kimi bərpa etmək bizim imkanımız xaricindədir. Çünki bu ekosistem min illər ərzində formalaşmışdır. Onlar yanğınlar törətməklə, yeraltı qazıntı işlərinin düzgün aparılmaması, hərbi texnikanın necə gəldi istifadəsi ilə torpaqlarımıza külli miqdarda ziyan vurub".

M.İsmayılov bildirir ki, digər ekoloji problem isə bitki örtüyü ilə bağlıdır: "Dağlıq Qarabağ zonası zəngin, qeyri-adi bitki örtüyü ilə seçilən bir ərazidir. Yay otlaqlarında, meşə zonalarının yuxarı ərazilərində yüzlərlə dərman bitkiləri var ki, ermənilər dağ-mədən sənayesini həyata keçirtməklə həmin bitki örtüyünü deqradasiyaya uğradıb. Bizim mebel sənayesi üçün xüsusi önəm kəsb edən qırmızı palıdımız var. Bu və bu kimi ağacların qırılaraq meşələrdən aparılması da ekoloji fəlakətdir.

Bütün bunlar çayların sularının azalmasına, bəzi yerlərdə bulaqların qurumasına səbəb olur. "Qaragöl" və "Bəsitçay" Dövlət Təbiət Qoruğumuz da həmin ərazidədir. "Bəsitçay"da dünyada yalnız üç yerdə rast gəlinən çinar ağacları, çinar meşəsi vardı. Biz kosmik şəkillərlə o Çinar meşəsini demək olar ki, tapa bilmirik. Onun yerində kol görürük. Bu görüntlər adamın ürəyini ağradır.

Həmsöhbətimiz onu da bildirir ki, digər ekoloji problem isə su ehtiyyatları ilə bağlıdır. Su ehtiyyatlarının idarəsi və istifadəsi yenə də ciddi ekoloji pozuntulara səbəb olub: Onlar ekoloji normalara əməl etmədən çayların üzərində su anbarları tikiblər. "Belə su anbarlarının yaradılması çay dərəsi boyunca formalaşmış, yüz illərlə əmələ gəlmiş, biomüxtəlifliyi ilə seçilən çay-dərə ekosistemini demək olar ki, məhv edib. Azərbaycanın "Saqqızçay" meşəsi vaxtı ilə su ilə böyüyüb inkişaf etmişdi ki, sonradan ermənilərin yaratdığı su anbarları bu ərazilərdə bizim üçün müəyyən problemlər əmələ gətirdi. Bütün bunlarla bağlı beynəlxalq aləmə çağırış edilməli, dəymiş ziyan araşdırılmalıdır. Risk və təhlükələri özündə əks etdirən çoxsaylı xəritələri bu ilin sonunadək hazırlayıb verməliyik. Düşmən işğal etdiyi ərazilərdə işğal dövründə vurduğu ekoloji ziyanın təzminatını ödəməlidir. Bununla bağlı da təzminat davası açılmalıdır".

Onu da qeyd edək ki, Beynəlxalq Münasibətlərin Təhlili Mərkəzinin eksperti Nağı Əhmədovun məlumatına görə, mütəxəssislərin ilkin hesablamalarına görə, Ermənistan tərəfindən illərdir törədilən ekoloji cinayətlər nəticəsində ətraf mühitə və təbii sərvətlərə dəyən zərər təxminən 265,3 milyard dollar dəyərindədir.

Qısaca desək, işğal nəticəsində Qarabağ bölgəsi "ekosid" kimi xarakterizə oluna bilən ekosistemin kütləvi məhvinə uğrayıb və bu, cinayət məsuliyyəti tələb edir.

Qeyd edilir ki, torpaqların işğaldan azad edilməsi nəticəsində Azərbaycan 30 ilə yaxındır ki, bu torpaqlarda ermənilərin həyata keçirdiyi yeni ekoloji terror faktlarını aşkar edib. Azad edilmiş ərazilərin flora və faunasının həqiqi vəziyyətini öyrənmək üçün yerində müvafiq araşdırma və obyektiv elmi qiymətləndirmələr aparmaq və təbiətə vurulmuş ziyanı müəyyənləşdirmək lazımdır. Bununla yanaşı, bölgədəki biomüxtəlifliyin genişləndirilməsi və ekosistemin bərpası geniş bir proqramın hazırlanmasını tələb edir.

Bildirilir ki, mütəxəssislər tərəfindən ətraf mühitə vurulmuş ziyan qiymətləndirildikdən sonra "ekosid" cinayəti törədənlərin məsuliyyətə cəlb edilməsi və təzminat tələb edilməsinin hüquqi mexanizmlərini müəyyənləşdirmək mümkün olacaq.

Eyni zamanda o da vurğulanır ki, Azərbaycanın Dağlıq Qarabağ və ona bitişik bölgələrindəki təbiətə qarşı düşmən münasibət və eko-terror yalnız Azərbaycanın ekoloji tarazlığı, flora və faunası üçün ciddi təhlükə yaratmır, həmçinin bölgədə sülh və təhlükəsizlik üçün də ciddi bir təhdiddir.

***Mələk Eyvazlı***

**Səhifə Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin ayırdığı maliyyə əsasında hazırlanır.**

## Yevlaxda dövlət əmlakını oğurlayan şəxslər saxlanıldı



***Nəqliyyatda Baş Polis İdarəsinin Dəmiryolu Nəqliyyatında Polis İdarəsinin Yevlax st. Xətt Polis Şöbəsinin əməkdaşlarının keçirdiyi tədbirlər nəticəsində Azərbaycan Dəmiryolları QSC-yə məxsus yüksək gərginlikli elektrik keçiricilərini (drossel tağlarını) oğurlayan şəxslər saxlanılıb.***

Daxili İşlər Nazirliyinin (DİN) Mətbuat xidmətinin Bərdə regional qrupundan verilən məlumata görə, mart ayının 10-da daxil olan məlumat əsasında Yevlax st. Xətt Polis Şöbəsinin əməkdaşları tərəfindən həyata keçirilən əməliyyat-axtarış tədbirləri ilə drossel tağlarını oğurlamaqda şübhəli bilinən Yevlax şəhər sakinləri, əvvəllər məhkum edilmişlər Azad Hüseynov və Dilqəm Abdullayev maddi sübutlarla birlikdə tutulub.

Araşdırmalarla onların 100 metr uzunluğunda dövlət əmlakı olan tağları oğurlamaqla 1520 manat dəyərində ziyan vurduqları müəyyən edilib.

Dindirilmə zamanı hər iki şəxs törətdiyi cinayət əməlini etiraf edib.

Faktla bağlı araşdırmalar davam etdirilir.

## Bakı sakini çayxanada işləyən anasını öldürdü

***Martın 10-da saat 09 radələrində Bakı şəhəri, Xətai rayonu, Sabit Orucov küçəsi 28 ünvanında yerləşən çayxanada xadimə işləyən Baxşiyeva Mahirə Hüseyn qızının üzərində çoxsaylı kəsilmiş-deşilmiş xəsarətlərlə zorakılıq əlamətləri olan meyitinin aşkar edilməsi barədə rayon prokurorluğuna məlumat daxil olub.***

Bu barədə "Unikal"a Xətai Rayon Prokurorluğundan məlumat verilib.

Cinayət prosessual qanunvericiliyinin tələblərinə əsasən, prokurorluq əməkdaşları tərəfindən məhkəmə-tibb ekspertinin iştirakı ilə hadisə yerinə və meyitə baxış keçirilib, digər prosessual hərəkətlər yerinə yetirilib.

Aparılan ilkin araşdırmalarla zərərçəkmişin oğlu - 1990-cı il təvəllüdlü Baxşiyev Zamin Afərin oğlunun şəxsi münasibətlər zəminində aralarında yaranan mübahisə zamanı bıçaqla çoxsaylı xəsarətlər yetirərək Mahirə Baxşiyevanı qəsdən öldürməsinə əsaslı şübhələr müəyyən edilib.

Faktla bağlı Xətai Rayon Prokurorluğunda Cinayət Məcəlləsinin 120.1-ci (qəsdən adam öldürmə) maddəsi ilə cinayət işi başlanıb.

Zamin Baxşiyev şübhəli şəxs qismində tutularaq istintaqa cəlb edilib, cinayətin predmeti olan bıçaq, həmçinin iş üçün əhəmiyyət kəsb edən digər maddi sübutlar müvafiq qaydada qablaşdırılaraq götürülüb.

Hazırda cinayət işi üzrə istintaq hərəkətləri davam etdirilir.

## Astarada əmioğlular arasında dava - ölən və yaralanan var

***Astara rayonunda əmioğlular arasında dava olub. Hadisə rayonun Şəmətük kəndində baş verib.***

Belə ki, 1991-ci il təvəllüdlü Musa Arzuman oğlu Ağayevlə əmisi oğlu, 1994-cü il təvəllüdlü Amil Qəyyum oğlu Ağayev arasında şəxsi münasibətlər zəminində münaqişə əlbəyaxa davaya çevrilib.

İlkin məlumata görə, hər iki şəxs bir-birinə bıçaqla xəsarət yetiriblər. Amil Ağayevin vurduğu bıçaq zərbəsi Musa Ağayevin ürək nahiyəsinə dəyib. O, hadisə yerində keçinib.

A.Ağayev isə ayaq nahiyəsindən bıçaq yarası alıb. Mərhumun meyiti aidiyyəti üzrə təhvil verilib.

Faktla bağlı araşdırma aparılır.

# Astarada polisi öldürmək istəyən şəxsin işi məhkəmədə

***Astara rayonunda polisi öldürməyə cəhd etməkdə ittiham olunan Seyhun Məmmədovun cinayət işi üzrə ibtidai istintaq başa çatıb.***

Teleqraf.com xəbər verir ki, cinayət işi baxılması üçün Lənkəran Ağır Cinayətlər Məhkəməsinə göndərilib.

İş araşdırılması üçün hakim Xamməd Nuriyevin icraatına verilib. Yaxın günlərdə məhkəmə başlanacaq.

İttihama görə, ötən il avqustun 17-də saat 03 radələrində Astara rayonu ərazisində polis əməkdaşı Xanlar Hüseynovun xidməti vəzifəsini yerinə yetirərkən bıçaqlanması barədə rayon prokurorluğuna məlumat daxil olub.

Dərhal prokurorluq əməkdaşları tərəfindən hadisə yerinə baxış keçirilmiş və digər zəruri prosessual hərəkətlər yerinə yetirilib.



Araşdırmalarla Daxili İşlər Nazirliyinin Baş Narkotiklərlə Mübarizə İdarəsinin Cənub Regional Şöbəsinin əməkdaşları tərəfindən Astara rayonu, Şahağacı kəndi ərazisində keçirilən əməliyyat-axtarış tədbirləri ilə əlaqədar kənd sakini Seyhun Məmmədovun şəxsi avtomobilinə baxış keçirilərkən onun polis əməkdaşı Xanlar Hüseynovun xidməti vəzifəsini yerinə yetirməsinin qarşısını almaq məqsədilə sonuncunun döş qəfəsi nahiyəsinə bıçaqla zərbə vurub öldürməyə cəhd etməsinə əsaslı şübhələr müəyyən edilib.

Həmçinin, hal şahidlərinin və müdafiəçinin iştirakı şəxsi axtarış aparılarkən Seyhun Məmmədovun üzərində və avtomobilində narkotik vasitələr və psixotrop maddələr aşkar edilərək götürülüb.

İstintaq orqanı tərəfindən Seyhun Məmmədovun barəsində Cinayət Məcəlləsinin 29,120.2.3 (zərərçəkmiş şəxsin xidməti vəzifəsini və ya ictimai borcunu yerinə yetirməsi ilə əlaqədar onun özünü və ya yaxın qohumlarını öldürməyə cəhd) və 234.4.3 (qanunsuz olaraq narkotik vasitələri, psixotrop maddələri əldə etmə, saxlama, daşıma, göndərmə və ya satma külli miqdarda törədildikdə) maddələri ilə ittiham elan edilib.

# Silahların və 30 kq narkotik vasitənin Azərbaycana keçirilməsinin qarşısı alınıb

***Dövlət Sərhəd Xidmətinin (DSX) əməkdaşları tərəfindən növbəti dəfə təxmini çəkisi 30 kiloqram narkotik vasitənin, psixotrop və güclü təsirli maddələrin, eləcə də silah-sursatın dövlət sərhədindən qaçaqmalçılıq yolu ilə Azərbaycan Respublikasına keçirilməsinin qarşısı alınıb.***

Bu barədə "Unikal"a DSX-dan məlumat verilib. Fevral ayının 27-də Dövlət Sərhəd Xidmətinin Sərhəd Qoşunlarının "Horadiz" sərhəd dəstəsinin xidməti ərazisində Beyləqan rayonunun İmamverdili kəndinin yaxınlığında yerləşən sərhəd zastavasının xidməti sahəsində şübhəli şəxs qismində saxlanılmış 1991-ci il təvəllüdlü Cəlilabad rayon sakini Xəlilov Natiq Mais oğlunun əlindəki bağlamaya baxış zamanı içərisində 3087 qram qurudulmuş marixuana, 2941,4 qram heroin, 730 həb metadon, 120 kapsul preqabalin, 1945,8 qram metamfetamin, həmçinin 9 mm kalibrli 1 ədəd "Baredda A6" və 8 mm kalibrli 1 ədəd "Lord T822" tapançaları aşkarlanaraq götürülüb.

Mart ayının 4-də Füzuli rayonunun Arayatlı kəndinin yaxınlığında yerləşən sərhəd zastavasının xidməti sahəsində 1 nəfər şəxs ərazidən bağlama götürərək hadisə yerindən uzaqlaşmağa cəhd edərkən saxlanılıb. Bakı şəhər sakini 1990-cı il təvəllüdlü Nəcəfzadə Ceyhun Eyvaz oğlu olması müəyyənləşdirilmiş şəxsin əlindəki bağlamaya baxış zamanı 192,8 qram heroin, 982,2 qram tiryək, 3007,1 qram həşiş qətranı, 60 ədəd metadon, 100,1 qram metamfetamin, 224 kapsulda preqabalin dərman həbləri aşkar edilib.



Mart ayının 6-da Beyləqan rayonunun İmamverdili kəndinin yaxınlığında yerləşən sərhəd zastavasının xidməti sahəsində dövlət sərhədinin gücləndirilmiş üsulla mühafizəsi üzrə tədbirlər nəticəsində sərhədboyu ərazidə hərəkətdə olan "Nexia Ravon" markalı 90 PN 378 dövlət nömrə nişanlı avtomobil içərisində 3 nəfər sərnişin ilə birlikdə saxlanılmışdır. Avtomobilə baxış zamanı 1 ədəd göy rəngli bağlamanın içərisində 16983,18 qram tiryək və 400 ədəd M40 həbləri aşkar olunaraq götürülmüşdür. Avtomobildəki şəxslərin Bakı şəhər sakinləri 1998-ci il təvəllüdlü İbrahimov Zaur Məzahir oğlu, 1998-ci il təvəllüdlü Zeynalov Ramiz Rafiq oğlu və Şamaxı rayon sakini 1998-ci il təvəllüdlü İbadov Sərvin Sərvər oğlu olması müəyyənləşdirilib. Araşdırma zamanı onlar törətdikləri cinayət əməllərini etiraf edərək əraziyə narkotik vasitə götürməyə gəldiklərini bildiriblər.

Bütün faktlar üzrə cinayət işləri başlanılıb, saxlanılan şəxslər təqsirləndirilən şəxs qismində cəlb olunaraq barələrində həbs qətimkan tədbiri seçilib.

# DYP: Lüzumsuz siqnal verən sürücülər cərimələnəcək

***Bakı şəhər Dövlət Yol Polisi İdarəsi sürücülərə xəbərdarlıq edib.***

İdarədən verilən məlumata görə, son zamanlar paytaxt küçələrində intensiv hərəkət müşahidə olunur: "Günün pik saatlarında şəhərin mərkəzi küçə və prospektlərində yaranan sıxlıq zamanı sürücülər lüzumsuz olaraq səs siqnallarından istifadə edirlər. Qeyd olunan hal ilk öncə paytaxt sakinlərinin narahatçılığına və haqlı narazılığına səbəb olur. Sürücülərimiz onu bilməlidir ki, "Yol Hərəkəti Haqqında Qanun"un tələbləri çərçivəsində



səs siqnalları yaşayış məntəqələrində yalnız yol-nəqliyyat hadisələrinin qarşısının alınması məqsədilə istifadə oluna bilər. Əks təqdirdə bu hal inzibati xəta tərkibi yaradır və sürücülər İnzibati Xətalar Məcəlləsinin 329.3-cü maddəsinə əsasən cərimə oluna bilərlər. Bir daha sürücülərdən xahiş edirik ki, paytaxt sakinlərinin, həmçinin yollarda hərəkətdə olan digər şəxslərin hüquqlarının pozulmaması və inzibati məsuliyyətə cəlb olunmamaları üçün bu növ qayda pozuntusu törətməkdən çəkinsinlər".

# Azərbaycanda biznesin inkişafına pandemiya necə təsir edib? - SORĞU

***Ölkə iqtisadiyyatının davamlı və tarazlı inkişafının təmin edilməsi, regionların inkişafının sürətləndirilməsi ölkəmizin sosial-iqtisadi inkişafının hazırkı mərhələsinin prioritet vəzifələrindəndir və qəbul edilmiş məqsədli dövlət proqramları çərçivəsində uğurla yerinə yetirilməkdədir.***

Hazırda bu sahədəki siyasət sahibkarlığa dövlət himayəsinin sistem şəklində həyata keçirilməsinin, sahibkarlara dövlət dəstəyi tədbirlərinin səmərəsinin yüksəldilməsinin təmin edilməsinə yönəldilib.

Bu strateji xəttin reallaşdırılması istiqamətində Azərbaycanda hansı ardıcıl tədbirlər həyata keçirilir? Biznes sahələrinin inkişaf etdirilməsi üzrə 2019-cu və 2020-ci illər üzrə hansı fərqlər və dəyişikliklər var? Yeni ildə hansı yeni sahələr üzrə şirkətlərin yaradılması gözlənilir?

BiznesMedia məsələ ilə bağlı Kiçik və Orta Biznesin İnkişafı Agentliyinə (KOBİA) sorğu göndərib:

## 2020-ci ildə daha çox iş yerləri açılan sahələr

- Dövlət Statistika Komitəsinin məlumatına əsasən, 2020-ci il ərzində statistik vahidlərin (fərdi sahibkarlar istisna olmaqla) sayı 6,3% artaraq 2021-ci il yanvarın 1-i 155435-ə çatıb. Hazırda ölkə üzrə kommersiya təşkilatlarının ümumi sayının 92,1%-ni mikro sahibkarlıq subyektləri təşkil edir və onların əsas hissəsi ticarət (32,1%), digər sahələrdə xidmətlərin göstərilməsi (15,8%), tikinti (10,3%) və kənd təsərrüfatı (8,1%) sahələrində yaradılıb.

2021-ci il yanvarın 1-i vəziyyətinə ölkə üzrə kommersiya təşkilatlarının ümumi sayının 5,3%-ni kiçik sahibkarlıq subyektləri təşkil edib və onların əsas hissəsi ticarət (29,4%), tikinti (12,6%), emal sənayesi (9,3%) və peşə, elmi və texniki fəaliyyət (7,3%) sahələrində yaradılıb.

Qeyd olunan dövrdə ölkə üzrə kommersiya təşkilatlarının ümumi sayının 2,1%-ni orta sahibkarlıq subyektləri təşkil edib və onların əsas hissəsi ticarət (25,5%), tikinti (16,3%), emal sənayesi (11,9%), nəqliyyat və anbar təsərrüfatı (5,6%) sahələrində yaradılıb.

İri sahibkarlıq subyektləri ümumi sayın 0,5%-ni təşkil edib və onların əsas hissəsi ticarət (18,3%), emal sənayesi (15,3%), tikinti (15,0%), nəqliyyat və anbar təsərrüfatı (6,8%) sahələrində yaradılıb.

2021-ci il yanvarın 1-i vəziyyətinə hüquqi şəxs yaratmadan sahibkarlıq fəaliyyəti ilə məşğul olmaq üçün qeydiyyatdan keçmiş fərdi sahibkarların sayı 1 milyonu ötüb. Hesabat dövründə hər dörd fərdi sahibkardan üçü "Kənd təsərrüfatı, meşə təsərrüfatı və balıqçılıq", "Ticarət; nəqliyyat vasitələrinin təmiri", "Nəqliyyat və anbar təsərrüfatı" və "Digər sahələrdə xidmətlərin göstərilməsi" sahələri üzrə qeydiyyatdan keçiblər.

## Ötən il KOBİA-ya yaradılmasına dəstək göstərilməsi üçün müraciət edən yeni sahələr üzrə şirkətlər

- 2020-ci ildə pandemiya səbəbindən iqtisadiyyatın bir çox sektorlarında mövcud biznes modellər, istehlakçı davranışları əhəmiyyətli dərəcədə dəyişib. Ötən il KOBİA-ya əsasən onlayn xidmətlər, çatdırılma xidmətləri, dezinfeksiya və tibbi ləvazimatların istehsalı, qida, tikinti materialları və içki istehsalı üzrə kiçik istehsal müəssisələrinin yaradılması və s. kimi sahələrdə bizinesin qurulması üçün müraciətlər daxil olub. Agentlik səlahiyyətləri çərçivəsində qeyd edilən sahələrdə yeni biznes subyektlərinin yaradılmasına lazımi dövlət dəstəyini və xidmətləri təmin edib.

## 2020-ci ilin startapları - Edilən güzəştlər

- 2020-ci ildə də mikro, kiçik və orta biznes subyektlərinə bizneslərinin genişləndirilməsi üçün dəstək və xidmətlər davam etdirilməklə yanaşı, startaplara və öz biznesini qurmaq istəyənlərə də KOBİA tərəfindən ödənişsiz olaraq müvafiq məsləhət, təlim-tədris, bazarlara və maliyyə resurslarına çıxış, potensial tərəfdaşların tapılması, dövlət müəssisələri və qurumları ilə əlaqələndirmə və digər istiqamətlərdə dəstək və xidmətlər göstərilib.

Belə ki, KOBİA-nın strukturuna daxil olan və ötən il fəaliyyətə başlamış dörd KOB İnkişaf Mərkəzi (Bakı, Sumqayıt, Xaçmaz və Yevlax şəhərləri üzrə) tərəfindən bir sıra startaplara müvafiq dəstək təmin edilib, biznes ideyaları mövcud maliyyə resurslarına yönləndirilib.

Ötən il KOBİA İslam İnkişaf Bankı ilə birlikdə Beynəlxalq Startap Yarışmasının Azərbaycan turunu keçirib. Azərbaycan üzrə milli seçim mərhələsinə mobil tətbiqlər, ağıllı cihazlar, onlayn xidmətlər kimi sahələrdə fəaliyyət göstərən 15 startap tərəfindən müxtəlif layihələr təqdim edilib. Münsiflər heyətinin qərarı ilə "W-ball" layihəsi Azərbaycan üzrə milli turun qalibi olub və ölkəmizi dünyanın 80 ölkəsindən startapların iştirak etdiyi Beynəlxalq Startap Yarışmasında təmsil edib.

Həmçinin, KOBİA-nın təşəbbüsü və iştirakı ilə "Startapın müəyyən olunması meyarları" hazırlanıb və Nazirlər Kabinetinin 29 yanvar 2021-ci il tarixli qərarı ilə təsdiq edilib. Startap şəhadətnaməsi bu sənədi əldə edən hüquqi və ya fiziki şəxslərə 3 il müddətində Azərbaycan Respublikasının Vergi Məcəlləsində nəzərdə tutulan bir sıra vergi güzəştləri verir.

## 2019-cu və 2020-ci illərin biznes mühiti müqayisədə

- 2019-cu ildə sürətlə inkişaf edən turizm və ictimai iaşə sektorları 2020-ci ildə pandemiyanın neqativ təsirlərinə məruz qalıb. Dövlət dəstəyi hesabına pandemiyanın bu sektorlara mənfi təsirinin qarşısı nisbətən alınsa da, ümumilikdə bu sektorların inkişafında geriləmə müşahidə edilib. Ötən il əsasən onlayn xidmətlər, tibb, dezinfeksiya və kimyəvi təmizləmə sahələri üzrə biznes sahələrinin yaradılması, eləcə də bizneslərin onlayn və elektron xidmətlərini inkişaf etdirmələri müşahidə olunub.



## COVID-19 və Biznes

- 2020-ci ildə qlobal pandemiya bütün dünyada olduğu kimi, Azərbaycan iqtisadiyyatına da təsirsiz ötüşməyib, vətəndaşların sağlamlığının qorunması məqsədilə tətbiq olunmuş məcburi məhdudlaşdırmalar biznesin müəyyən çətinliklərlə qarşılaşmasına səbəb olub. Qiymətləndirmələrə əsasən, pandemiya daha çox ictimai iaşə, xidmət, turizm, əyləncə, nəqliyyat və s. sahələrə neqativ təsir edib.

COVİD-19 pandemiyası bir sıra sektorlara mənfi təsir göstərməklə yanaşı, sahibkarlar üçün yeni biznes imkanları da açıb. Zərər çəkən biznes sahələri ilə yanaşı, pandemiya dövründə kənd təsərrüfatı, qida, tibbi ləvazimatlar və kimyəvi təmizləmə vasitələrinin istehsalı, logistika və onlayn xidmətlər kimi sektorlar daha çox önə çıxıb.

İlk gündən dövlət müxtəlif dəstək mexanizmləri ilə pandemiyadan zərər çəkən sahibkarların, xüsusilə də mikro və kiçik sahibkarların yanında olub. Pandemiyanın neqativ təsirlərinin minimallaşdırılması üçün Azərbaycan Respublikasının Prezidenti tərəfindən dövlət qurumları qarşısında ciddi vəzifələr qoyulub, iqtisadiyyata geniş dəstək paketini nəzərdə tutan proqramlar, biznesin qısa və orta müddətdə dəstəklənməsini əhatə edən sənədlər qəbul edilib. Həmçinin Azərbaycan Respublikası Prezidenti tərəfindən 19 mart 2020-ci il tarixli "Koronavirus pandemiyasının Azərbaycan iqtisadiyyatına, makroiqtisadi sabitliyə, ölkədə məşğulluq məsələlərinə və sahibkarlıq subyektlərinə mənfi təsirinin azaldılması ilə bağlı bir sıra tədbirlər haqqında" Sərəncam imzalanıb. Pandemiyadan zərər çəkmiş sahələrdə fəaliyyət göstərən mikro sahibkarlara birbaşa maliyyə dəstəyi göstərilib, muzdlu işçilərə əmək haqqının bir hissəsi dövlət tərəfindən ödənilib, vergi güzəştləri və tətilləri, həmçinin yeni güzəştli kreditləşdirmə mexanizmləri işə salınıb. Pandemiyadan zərər çəkmiş sahibkarlara dövlət maliyyə dəstəyi və digər dəstək tədbirləri hazırda da davam etdirilir. Xüsusilə qeyd olunmalıdır ki, qəbul edilmiş dəstək proqramlarında biznesin qısa və orta müddətdə dəstəklənməsini nəzərdə tutan tədbirlər öz əksini tapıb, KOB sektorunun qorunması prioritet təşkil edərək diqqət mərkəzində saxlanılıb.

KOBİA da mövcud dövlət dəstəyi mexanizmləri və Agentliyin göstərdiyi dəstək və xidmətlərlə pandemiyadan zərər çəkən KOB-lara dəstək göstərib. Belə ki, pandemiyanın ölkədə biznesin inkişafına təsirini öyrənmək üçün KOBİA sahibkarlarla davamlı şəkildə təmasda olub. Müxtəlif sektorlardan olan sahibkarlarla üzbəüz və onlayn formatlarda sahəvi görüşlər təşkil edilib, sorğular keçirilərək sahibkarların çətinlikləri, gözlənti və təklifləri öyrənilib. Sorğularda sahibkarlar pandemiya nəticəsində alıcı və müştərilərinin sayının, əlavə işçi qüvvəsinə tələbin azaldığını, icarə haqqı, kredit, kommunal və digər xərclərin ödənilməsində çətinliklərini qeyd ediblər. Toplanılan informasiyalar aidiyyəti üzrə müvafiq qurumlara təqdim edilib. Bunlarla yanaşı, fərdi müraciətlərə individual yanaşma tətbiq olunmaqla hər bir sahibkarın pandemiyadan zərərinin minimuma endirilməsinə Agentlik səlahiyyətləri çərçivəsində dəstək olub.

## 2021-ci il biznesin inkişafına DƏSTƏK

- 2021-ci ildə KOBİA dövlətin prioritetlərinə uyğun olaraq işğaldan azad olunan ərazilərin iqtisadi imkanlarının reallaşdırılması üçün bu ərazilərə özəl investisiyaların cəlb edilməsi, dövlət-özəl tərəfdaşlığının inkişaf etdirilməsi və müxtəlif dövlət dəstəyi mexanizmlərindən istifadə etməklə bölgənin iqtisadi dəyər zəncirinə qoşulması istiqamətində dövlət tərəfindən həyata keçiriləcək tədbirlərə dəstək göstərəcək.

Pandemiyanın biznesə neqativ təsirlərinin azaldılması istiqamətində həyata keçiriləcək dövlət dəstəyi tədbirlərinə KOBİA tərəfindən ötən il olduğu kimi bu il də müvafiq dəstək davam etdiriləcək.

Həmçinin, KOB subyektlərinin rəqabət qabiliyyətinin daha da artırılması, onların ÜDM-də və məşğulluqda payının artırılması istiqamətində müvafiq tədbirlər 2021-ci ildə də davam etdiriləcək. Belə ki, Agentliyin strateji hədəflərindən irəli gələrək KOB-lara göstərilən dövlət xidmətlərinin yaxşılaşdırılması və vahid məkanda həyata keçirilməsi üçün KOB evlərinin əhatə dairəsi genişləndiriləcək. Yaxın günlərdə Yevlaxda KOB evinin fəaliyyətə başlaması nəzərə tutulur. 2021-ci ildə Şəki, eləcə də digər şəhər və rayonlarda KOB-ların biznesyönümlü təlimlərə, peşəkar məsləhət və şəbəkələşmə xidmətlərinə çıxışını təmin edən, bazara və mövcud maliyyə resurslarına çıxışına dəstək göstərən KOB inkişaf mərkəzləri fəaliyyətə başlayacaq. Bundan başqa, cari ildə KOB-lara yerində zəruri dəstək və xidmətləri təmin edən, sahibkarların çətinlikləri ilə yerində tanış olan və operativ həlli üçün hərtərəfli dəstək göstərən "KOB Dostu" şəbəkəsinin əhatə dairəsi genişləndiriləcək.

Eyni zamanda KOB-ların məhsullarının satışına və tanıdılmasına, yeni bazarlara çıxışına dəstək davam etdiriləcək, bu sahədə yeni onlayn platforma istifadəyə veriləcək. KOB-ların müraciətləri əsasında yeni məhsul və xidmətlərin yaradılması, rəqabətqabiliyyətli istehsalın stimullaşdırılması üçün daxili bazar araşdırmalarının aparılmasına dəstək davam etdiriləcək.

Həmçinin, yaxın günlərdə mikro, kiçik və orta sahibkarlığın inkişafı ilə əlaqədar təhsil, elm, tədqiqat və dəstək layihələrinin maliyyələşdirilməsinə başlanılacaq, eləcə də sahibkar və menecerlərin beynəlxalq təcrübəni öyrənməsinə və işgüzar əlaqələrinin genişləndirilməsinə dəstək davam etdiriləcəkdir.

## İşğaldan azad edilmiş ərazilərdə biznes MÜRACİƏTLƏRİ

- Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandanımız cənab İlham Əliyevin qətiyyəti, şanlı ordumuzun şücaəti və xalqımızın bir yumruq kimi birləşməsi sayəsində işğaldan azad olunmuş torpaqlarımızın böyük biznes və investisiya imkanları var.

Torpaqlarımızın işğaldan azad edilməsindən sonra bu ərazilərdə biznes qurmaq istəyən sahibkarlar KOBİA-ya müraciət edirlər. İşğaldan azad edilmiş ərazilərdə sosial-iqtisadi, humanitar, təşkilati və digər təxirəsalınmaz məsələlərin həlli, eləcə də bu sahədə fəaliyyətin əlaqələndirilməsi məqsədilə Azərbaycan Respublikası Prezidentinin 24 noyabr 2020-ci il tarixli Sərəncamı ilə yaradılmış Əlaqələndirmə Qərargahının, eləcə də bu istiqamətdə veriləcək digər müvafiq qərarlara uyğun olaraq, KOBİA işğaldan azad edilmiş ərazilərdə biznes qurmaq və investisiya yatırmaq istəyən sahibkarlara informasiya, əlaqələndirmə, məsləhət və digər xidmətlər göstərəcəkdir.

***Nübar Lətifli***

# Düşmənin başına od ələyən Vətənin igid oğlu



***Dünyaya göz açdığı gündən Vətən sevgisi ilə boy atan Elnur Cəlal oğlu Dadiyev bu, ilahi sevginin qanadlarında əbədi olaraq milyonların ürəyində yaşamaq hüququnu qazandı.***

Onun ömür yolu 22 il çəkdi. Qaldı ki, olduqca qısa həyatı qüruruna, vüqarına, mərdliyinə tapındığı millətinə şərəf gətirdi. Qəlbi sevdalı Lerikli balası Vətən müharibəsində 30 il qəddar erməni dığaların əsarətində olmazın bəlalar çəkən əzəli yurd yerimiz Qarabağ torpaqların azadlığı naminə canını fəda etməyi bacardı. Bir igidimiz də, Odlar yurdu Azərbaycanımızın şərəfli tarixində torpağa, bağlandığı Vətənə zaman-zaman sevgi, sədaqət nümunəsi kimi örnəyə döndü.

Elnur Lerik rayonunun qartallı qayalar, dağ vüqarlı, saf, dürr, süfrəsi halal çörəkli insanların qüdrəti ilə tanınan Buruq kəndində anadan olmuşdur. Qeyrətdən, qürurdan həyat yükünü tutan dağlar oğlunun ailəsi Bakı şəhərinə köçür, Sabunçu qəsəbəsində özlərinə yurd-yuva qururlar. Elnur 14 saylı Bakı Peşə Liseyində oxuyub dərzilik peşəsinə yiyələnir. 2016-cı ildə onu Lerik rayon Hərbi komissarlığı tərəfindən həqiqi hərbi xidmətə göndərirlər. Cəbhə bölgəsində Vətəninin keşiyində durmağı özünə böyük şərəf sayır. Onu göz-bəbəyi tək qorumaqla əsgərlərin, komandirlərin ürəyinə nüfuz edir, hörmət qazanır. Yeri gələndə, bir sıra əməliyyatlarda müqəddəs Vətən torpaqlarına göz dikən yağı düşmənə yerini göstərməyi də bacarır. Məhz bütün bunlara görə ailəsinin yanına üzüağ qayıdır.

Əsgərlikdən sonra Elnur ailəsinə kömək etmək məqsədilə dərzi işləməyə başlayır. Xoşbəxtliyini Vətənini azadlığında, insanlara nümunəvi xidmətdə görən sağlam əqidəli gənc səliqəli, zövq oxşayan işi ilə evə yaxşı qazanc aparır. Təkcə onu narahat edən erməni dığaların Qarabağımıza təcavüzü olur. Hər an Vətən torpaqların bir qarışı da düşmən ayaqları altında qalmasın deyə, güllə qabağına getməyə hazır durur. Odur ki,

Elnur İkinci Qarabağ müharibəsi başlanan andan xüsusi göstəriş gözləmədən düşmənlə müharibəyə girir. Füzuli və Xocavənd uğrunda gedən ağır döyüş meydanında mərdliyi, cəsarəti qəhrəmanıq tariximizə düşür. Dığaların başına od ələyir. Azad olunan torpaqlar qəlbindəki Vətən sevgisini bir daha coşdurur. Ölümün gözünə dik baxa-baxa sərrast atəşlə ermənilərin neçə-neçə texnikasını sıradan çıxardır, canlı qüvvəsini sarsıdır. 26 oktyabr 2020-ci il tarixində şəhid olsa da, qəhrəmanlığı Zəfər günümüzə qədər döyüşçü yoldaşlarına cəsarət verdi.

Lerikli balası Vətənin hər qarışını canından əziz bilirdi. Dağlar diyarı Lerikdə dünyaya gəldi, sinəsinə əbədi baş qoyduğu torpaq Zabrat qəbiristanlığı oldu. Yaşadığı yer isə könüllər olmaqla göz açdığı, üz qoyduğu hər iki doğma yer Elnurla fəxr edir. Dövlət tərəfindən layiq görüldüyü "Vətən uğrunda", Füzulinin, Xocavəndin azad olmasına görə medalları bizlərə yaxşı təsəllidir...

***Zəfər Orucoğlu, AJB üzvü***

# Rayonda qaçırılan qız ailəsinə qaytarıldı



***Gəncə şəhər Baş Polis İdarəsinin və Nizami rayon Polis İdarəsinin birlikdə keçirdikləri əməliyyat-axtarış tədbirləri nəticəsində Samux rayon sakini Vüsal Saadov tərəfindən evlənmək məqsədi ilə qaçırılan Gülər Mirzəyeva tapılaraq ailəsinə təhvil verilib.***

Bu barədə APA-nın yerli bürosuna DİN-in mətbuat xidmətinin Gəncə regional qrupunun baş inspektoru Eşqin Qasımov bildirib.

Faktla bağlı Nizami rayon Polis İdarəsində araşdırmalar davam etdirilir.

# Baş infeksionistdən əhaliyə müraciət:"Həyatımıza qayıdaq"

***"Artıq bir ildən çox müddətdir ki, COVID-19 pandemiyası dünyanın hər yerində, o cümlədən ölkəmizdə də tuğyan edərək həyatımızı çətinləşdirmiş, xeyli sayda insanlarımızın xəstələnməsinə və itkilərə səbəb olub. Pandemiyanın ilk günündən Dövlətimiz bu infeksiyaya qarşı bütün resurslarını səfərbər edərək mübarizə aparır. Təəssüflə qeyd etmək istərdik ki, virusa qarşı həlaki effektiv bir dərman vasitəsi icad olunmayıb".***

Bu fikirləri Lent.az-a açıqlamasında Səhiyyə Nazirliyinin baş infeksionisti Təyyar Eyvazov deyib.

Təyyar Eyvazov bildirir ki, belə bir durumda pandemiya ilə mübarizənin ən önəmli yolu onun profilaktikasıdır: "İlk aylarda bunlar yalnız müxtəlif gigiyenik qaydalara və karantin tədbirlərinə əməl olunması ilə məhdudlaşırdısa, artıq insanların xilası üçün daha effektiv və etibarlı vasitə olan vaksinlər tətbiq olunur. Yada salmaq istərdik ki, vaxtilə insanların kütləvi ölümünə səbəb olmuş təbii çiçək xəstəliyinə də məhz vaksinasiya yolu ilə qalib gəlinib. Vaksinasiya nəticəsində qızılca, difteriya, göy öskürək və s. kimi bir sıra infeksiyalarla xəstələnmə halları xeyli azalıb, yüz minlərlə insanların həyatı xilas edilib".



Baş infeksionist qeyd edir ki, indiyədək yeni koronavirus infeksiyasına qarşı müxtəlif vaksinlər hazırlanıb:

"Bəzilərinin hazırlanma metodları elmi tərəqqinin ən son nailiyyətlərinə əsaslanır. Artıq əminliklə deyə bilərik ki, hazırlanmış və tətbiqinə icazə verilmiş bütün vaksinlərin yetərli effektivliyi və təhlükəsizliyi aparılmış çoxsaylı elmi araşdırmalarla sübut olunub. Ölkəmizdə istifadə olunan peyvənd, təhlükəsizliyi və effektivlik dərəcəsi illərlə sınanmış ənənəvi üsulla, inaktivləşdirilmiş, yəni ölü virusdan hazırlanıb. Hər bir vaksinin yan təsirləri mövcuddur. Bu əsasən az hallarda rast gələn, zəif ifadə olunmuş və qısa müddətli, inyeksiya yerində mülayim ağrı hissi, qızartı, yüngül ümumi zəiflik, baş ağrıları, subfebril hərarət və s.-dir. Bu əlamətlər orqanizmin yeridilən yad maddələrə qarşı verdiyi təbii reaksiyasıdır və immun sistemin yetərli fəaliyyətini əks etdirir. Tətbiq olunan vaksinin qeyd olunan xüsusiyyətləri ölkə üçün vaksin seçimi zamanı bu sahənin əksər aparıcı alim və mütəxəssisləri tərəfindən nəzərə alınaraq dəstəklənib və müvafiq dövlət qurumlarına tövsiyə edilib. Nazirlər Kabineti tərəfindən qəbul olunmuş "Vaksinasiya Strategiyasına" əsasən artıq xeyli vətəndaşımız peyvənd olunub və vaksinasiya prosesi bu gün də davam edir".

Vaksinasiyanın məqsədi yoluxma hallarını əhəmiyyətli azalmasına nail olmaqla infeksiyanı nəzarət olunan həddə saxlamaq, ölüm hallarını minimuma endirmək olduğunu bildirən Təyyar Eyvazov qeyd edir ki, bu məqsədə yalnız əhalinin əksəriyyəti peyvənd olunduqda çatmaq mümkündür:

"Vurğulamaq istərdik ki, dünyada vaksin qıtlığının olması səbəbindən lazımi sayda preparatın ölkəyə birincilər sırasında gətirilməsini təmin etmək dövlətimizin nailiyyətidir. Təəssüf hissi ilə qeyd etmək istəyirəm ki dövlətimizin bu uğuruna kölgə salmaq istəyənlər də var. Son günlər sosial şəbəkələrdə peyvənd edilən vətəndaşların iflic olması, ağır xəstələnməsi, hətta ölməsi, vaksinasiyanın gələcəkdə sonsuzluğa səbəb olacağı barədə heç bir elmi əsası olmayan və həqiqəti əks etdirməyən məlumatlar yayılır. Bu çür yoxlanılmayan şaiyələr tirajlanaraq insanlarda çaşqınlıq yaradır. Nəzərinizə çatdırmaq istərdik ki, Səhiyyə Nazirliyinə indiyənədək vaksin olunmuş insanlarda bu tip qeyri-adi ağırlaşmalar barədə heç bir məlumat daxil olmayıb. Bir daha əhalinin nəzərinə çatdırırıq ki, peyvənddən sonra hər hansı bir güclü reaksiya baş verərsə bu haqda mütləq qaydada müvafiq tibb qurumlarına müraciət etsinlər.

Artıq 400 mindən çox vətəndaşımız peyvənd olunub və hər gün vaksin olunmaq üçün minlərlə insan könülü olaraq müvafiq tibb idarələrinə müraciət edir. Sevindirici haldır ki, peyvənd olunanların sayı bir il ərzində bu infeksiya ilə xəstələnənlərin rəsmi statistik göstəricilərini üstələyib. Bu o deməkdir ki, yaxın gələcəkdə bu qədər insan infeksiyaya yoluxmayacaq və hətta az sayda yoluxmalar olsa belə onlar arasında ölüm halları baş verməyəcək. Ümid edirəm ki, tezliklə peyvəndləmənin müsbət effektini hər birimiz öz həyatımızda hiss edəcəyik".

Sonda baş infeksionist əhaliyə müraciət edərək şaiyələrə deyil, elmi faktlara əsaslanaraq peyvənd kompaniyasında könüllü iştirak etməyi, bu infeksiyaya qalib gələk və normal həyatımıza qayıtmağı məsləhət görürür.

# Məktəbli qızlar niyə intihar etdi? - Atası elə sözlər dedi ki...



***Dünən axşam saatlarında, elə bu vaxtlar 11-ci sinif şagirdi olan iki qızın bir yerdə intihar etməsi medianın gündəmini dəyişdi.***

Lent.az-ın əməkdaşı hadisənin təfərrüatını öyrənmək üçün intiharın baş verdiyi Lökbatan qəsəbəsinə, oradan isə həmin qızların yaşadığı Qobu qəsəbəsinə yollanıb.

Amma indilikdə Lökbatandayıq. Qobu qəsəbəsindəki Ənvər İbrahimov adına 2 saylı məktəbin 11-ci sinif şagirdləri Mətanət Quliyeva və Əfruz Səmədova həyatlarına son qoymaq üçün məhz bu qəsəbədəki yaşayış kompleksinin kənardakı binanı seçmişdilər.

Sakinlər və komendant vəzifəsini yerinə yetirən Samir adlı şəxslə söhbət zamanı məlum oldu ki, sən demə, binanın damına çıxışın qapıları daim bağlı olur. Həmin binanın damına çıxanda məlum oldu ki, əslində elə deyil, qapılar açıqdı. Bir sözlə, mənzərədən aydın oldu ki, binanın bu baxımdan təhlükəsizliyi ürəkaçan deyil.

Digər tərəfdən necə ola bilərdi ki, bu iki yeniyetmə qız qapısı pultla açılan bloka daxil ola bilmişdi?

Bina sakinləri yeniyetmə qızların azyaşlı uşaqların vasitəsilə binaya girdiklərini deyirlər. Onların fikrincə, uşaqlardan biri qapını açıb içəri daxil olub ardınca qızlar bloka giriblər. Amma hadisə şahidlərinin sözlərinə görə, əvvəlcə intiharın baş verdiyi bloka süpürgəçi qadın girib. Ondan sonra bu iki qız içəri keçə bilib. Onu da qeyd edək ki, hər blokun qarşısında təhlükəsizlik kamerası var. Şahidlər deyir ki, binadan özlərini atarkən qızlardan biri 3-cü mərtəbədəki kondisionerə dəyib. Daha sonra ikisi də eyni yerə düşərək keçiniblər. Hazırda həmin ərazi torpaqla örtülüb.

Bəs hər iki qızın bir yerdə əl-ələ verərək özünü binadan atmasına nə səbəb nə ola bilərdi ki?

Müəmmalara cavab tapmaq üçün üz tutduq Əfruz və Mətanətin yaşadığı, oxuduğu Qobu qəsəbəsinə.

Qəsəbədə əvvəlcə onların təhsil aldığı Ənvər İbrahimov adına 2 saylı orta məktəbə baş çəkdik. Oradakı gözətçilərdən yalnız "biz heç nə bilmirik, məlumat verə bilmərik. Təhsil Nazirliyi açıqlama verər" kimi sözlər eşitdik. Bir qədər sonra Əfruz və Mətanətin sinif rəhbəri Səmayə Hüseynova irəli gələrək suallarımızı cavablandırdı:

- Əfruz rəssam idi. Şəhidlərimizin məktəbdəki rəsmlərini də o çəkmişdi. Dəfələrlə keçirilən çempionatlarda məktəbimizi təmsil edib. Hər ikisi əlaçı, məktəbin gözü idi. Sinfimizin qızları arasında pis münasibət yoxdur. İndiyədək onlarda hansısa sıxıntı, problem hiss etməmişəm.

Məktəbdən ayrılıb Mətanətgilin hüznlə dolu evlərinə yollanırıq. Mətanətin atası Elşən Quliyev deyir ki, onun ailəsində 3 uşağı var. Mətanət isə evin son beşiyi idi:

- Mətanət məktəbi yaxşı qiymətlərlə oxuyurdu. Birinci qrupa imtahan vermək istəyirdi. Evdə heç bir sıxıntı olmayıb, hər hansı problemlə qarşılaşmayıb. Evdə anasına kömək edib yemək bişirərdi. Üzündən gülüş əskik olmazdı.

Bəs ömrün təzə çiçək açan vaxtı canlarına qəsd edən sinif yoldaşları nə üçün məhz Lökbatandakı binanı seçdilər? 16 və 17 yaşlı qızları Qobudan Lökbatana getməyə nə vadar etmişdi?

Elşən Quliyev davam edir:

- Uşaqlar ali məktəbə hazırlaşırdılar. Hazırlıqlarından ikisi də Lökbatandadır. Onlar pandemiya olduğu üçün çox vaxt dərslərə on-layn qoşulurdular. Ancaq dünən ikisi də Lökbatana hazırlığa getmişdilər. Güman etmirəm ki, onlar intihar etmək məqsədilə binanın damına çıxsınlar. Ehtimal edirik ki, qızlar mənzərə olsun deyə, selfi çəkmək üçün yuxarı çıxıblar. İstintaq orqanları da belə güman edir.

Mətanət və Əfruz isə dünən son dəfə hazırlığa getmək üçün evdən çıxmışdılar. Təəssüf ki, ölüm hazırlığına...

Evin tək qızı olan Əfruzun isə tabutu təzə gətirilmişdi. Həyətdə tabutu önündə onun rəsmi, xonçalar və məktəbin göndərdiyi əklil qoyulmuşdu.

Müəmmalı ölümdən geriyə qalan isə iki hüznlə dolu ev və Əfruzun anasının naləsi idi:

- Tək uşağımız idi, İki uşağımız da yox idi ki, deyək biri qaldı.

***Mehman Nəbiyev***

# Daha bir vəkil koronavirusa yoluxdu



***Vəkillər Kollegiyasının Rəyasət Heyətinin üzvü, Ədalət Vəkil Bürosunun rəhbəri, tanınmış vəkil Muxtar Mustafayev koronavirusa yoluxub.***

Bu barədə Kollegiyanın sədri Anar Bağırov məlumat verib.

A.Bağırov qeyd edib ki, bir müddətdir COVID-19 yoluxan vəkil hazırda dövlət tibb müəssisəsində stasionar şəraitdə müalicə alır: "Bu gün bir neçə günlük fasilədən sonra özü ilə şəxsən təmasda oldum. Muxtar müəllimin sağlıq durumu normaldır, ona göstərilən tibbi xidmətlərin səviyyəsindən tam razılığını bildirdi, hər kəsə öz salamlarını çatdırdı və müalicənin xüsusiyyətləri ilə bağlı zənglərə cavab verə bilmədiyi üçün üzrxaqlıq etdi. Dəyərli həmkarımız, dostumuz, qardaşımız Muxtar müəllimə Allahdan şəfa diləyirəm, ən tez zamanda sağalıb normal həyat tərzini davam etdirməyini arzu edirəm".



# Uşaqlardan uşaqlara Xocalı - Müharibə gündəliyi

***Xocalıdayıq. Daha doğrusu, kəndlərində. Ordumuzun işğaldan azad etdiyi o müqəddəs torpaqlarda...***

Xocalı - adı belə adamı vahiməyə salır. Uşaqlıqdan izlədiyimiz videolar, yazılar, şahid ifadələri Xocalını düşüncəmdə cəhənnəm bir məkan kimi formalaşdırıb.

Amma ayağımı o torpağa qoyandan əvvəlki düşüncələrim 1800 dəyişir. Yeni bir Xocalı yaradıram özümə. Bir yanından çaylar, bulaqlar, meşələr, dağ, cığır - bura əməlli cənnət imiş ki... Heç bir rayonumuzun haqqını yemək istəməzdim, amma indiyə kimi gördüyüm ən gözəl yer buradır.

Bu cür cənnət torpaqda uşaq qətliamı niyə yaşansın, axı?! Cənnət torpağı uşaq qanıyla gübrələmək hansı düşüncənin məhsulu ola bilər? Vandalizm!

...Evlərə giririk. Bu evə isə tək girmişəm. Bilmirəm, hansı düşüncə məni bu evə salıb. Bəlkə də, içimdə yatan vəhşi ruh oyanıb, qənimət istəyi məni o evə salıb. İnsanam da... Amma şair ruhum o vəhşinin nəfsinə yenilərək ardıyca addımlayır.

Otaqlardan birinə girirəm. Ortalığa dağılmış uşaq geyimləri və beşik. Uşaq otağı imiş. Stolda fotoalbom var. Vərəqləyirəm fotoları.

Bir anlıq ruhumdakı vəhşi yoxa çıxır. Hara gedib, bilmirəm. İndi Emin Piri ilə birgəyəm bu otaqda və qarşımda albomdan mənə boylanan uşaq...

10-12 yaşı olar uşağın. Şəkillər ancaq ona məxsusdur. Doğulandan bu yaşa kimi olan şəkillər. Bəlkə də, bu evdə ondan qabaq azərbaycanlı uşaq yaşamışdı -yaşı bizdən böyük, bizdən əvvəl doğulan, amma heç zaman böyüməyən bir uşaq...

Təkəm, uşaq çarpayısında oturub albomu vərəqlədikcə bəlkə də hönkürürəm, bu, elə də yadımda deyil.

Kvazimodo kimi qışqırmaq istəyirəm evdə, bu uşaq otağında. Mən vəhşi deyiləm, insanam, hisslərim, duyğularım var...

Özümdən asılı olmadan qəribə duyğular yaşayıram. Qənimət, başqa heç nə gözümdə deyil, düşünmürəm. Anidən fikrim dəyişir. Xocalıda yaşayan uşaq albomlarını yığmaq. Bacardıqca daha çoxunu.

Albomdakı şəkilləri götürürəm. Sonra digər evlərə girib uşaq olmuş evlərdə uşaq şəkillərini çantaya yığıram.

Xocalı - uşaq qətliamının yaşadığı yerdə ermeni uşaqlarının şəkillərini yığmaq...

Necə də ağrılıdır...

Uşaqlıq xatirəsinin nə olduğunu yaxşı bilirəm. Bizimkilər yaşamasa da, o qaçaqaçda uşaqlıq xatirələrini salıb itirsələr də. Bəlkə də bəziləri xatirələrlə birgə torpağa qarışıb torpaq olsalar da. Azərbaycanın torpaq uşaqları...

Bir gün sülh dövründə o şəkilləri sahiblərinə qaytarmaq ümidilə... Bəlkə də bir gün bizə, mənə bənzəyən kimsə olar o uşaqlar arasından... Bu jestlərdən sonra... Bəlkə də dəyişərlər o böyüyən uşaqlar.

...Ətrafa minaatan mərmisi düşür. Amma digər evə də girirəm... Sonra digərinə...

Bütün çətinliklərə baxmayaraq o albomların bəzisini müharibə bitənə kimi salamat saxlaya bildim. Bilmirəm, özümdən çox o uşaqların xatirəsini qoruyurdum.

Tərxis olduqdan sonra o şəkilləri özümlə birgə gətirmişəm.

İndi düşünürəm: şəkillərini yığdığım o uşaqlar sağ-salamat qaça bildilərmi?

***Emin PİRİ***

# Azərbaycanlı oğruların "dayı" çağırdığı "Qorbatı" Ramiz - HƏYAT HEKAYƏTİ




***...Ramizin vurulması xəbərini "Ded Xasan"a "Starıy Fayton" restoranında çatdırmışdılar. "Ded" adətən bu restoranda nahar edir, bütün "razborka"larını da burada keçirirdi. O, naharı yarımçıq qoymuşdu. Bir neçə dəqiqəlik araşdırmadan sonra məlum olmuşdu ki, Ramizi 3 saylı Moskva şəhər xəstəxanasına yerləşdiriblər.***

"Ded" dərhal ora getmişdi. Həkim "Qorbatı Ramiz"ə 2 güllə vurulduğunu, vəziyyətinin kritik olduğunu demişdi.

Əməliyyat bitənəcən xəstəxanada oturmuşdu. Həkimlərə elə beləcə də demişdi: "Nəyin bahasına olursa-olsun, sağ qalmalıdır".

Kriminal aləmdə onu "Dayı" deyə çağırırdılar. Sabirabadın Kürkəndi kəndində anadan olmuşdu, 1952-ci il noyabrın 28-də. Tarix elmləri namizədi Əliheydər Fərzəliyevin ailəsində. Sabirabad şəhər 1 saylı məktəbin rus sektorunu bitirmişdi. Bundan sonra Politexnik İnstitutuna qəbul olunmuşdu. Elə həmyerlisi, Sabirabadlı Hikmət kimi onun taleyini məhz bir bıçaqlanmadan sonra alt-üst olub. Türmədə ona verilən cəzasını çəkib.

Ramizin yolu həbsxanaya bir də 1982-ci ildə düşür. Və bu dəfə də haqsız yerə. Həmin il Sabirabadda dəhşətli bir qətl törədilir. Kürün qırağından iki qadının meyiti tapılır. Milis qatilləri tapa bilmir ki, bilmir. Günlərin bir günü Fərzəliyevlərin qapısını döyürlər. Ramizi və ondan başqa bir dostunu həbs edilər. Atası həmin vaxt rayonda yox imiş. Hadisəni eşidib, təcili Sabirabada qayıtmışdı. Amma gec idi. Bundan sonra Əliheydər müəllim oğlunu axtarmağa başlayır.

Respublikanın hər yerini gəzir Əliheydər müəllim - Naxçıvandan Gəncəyə qədər. Bir gün, özü də düz 4 aydan sonra xəbər tutur ki, oğlunu Şuşa türməsində saxlayırlar. Şuşada görüşə bilir Ramizlə.

Ramizin məhkəməsi bir aya yaxın çəkir. O, 15 il müddətinə azadlıqdan məhrum edilir.

1992-ci ildə azadlığa çıxıb Sabirabada qayıdır. Artıq əmisi oğlu Hikmət Muxtarov kriminal aləmdə söz yiyələrindən biriydi. "Sabirabadlı Hikmət" kimi keçmiş SSRİ-də tanınırdı. Amma maraqlısı odur ki, Hikmət ona "Dayı" deyirdi. Ümumiyyətlə, bu dayı məsələsi də maraqlı mövzudur.

Təkcə Hikmət yox, çoxları onu "Dayı" deyə çağırırdı. Ona "Qorbatı" ləqəbini belində bir balaca əyrilik olduğuna görə veriblər. Amma Saratovda türmədə yatanda ləqəbi "Kobra Ramiz olub.

Ramiz Saratovdan gələndən, dustaqlığa son qoyandan sonra bir daha həbsxana həyatı yaşamadı. Amma kriminal avtoritetlər arasında böyük nüfuz sahibi idi. Həm Hikmət, həm rəhmətlik Lotu Bəxtiyar, sonradan Masallı Mamedin özü belə ona qanuni oğru adı verilməsini təklif ediblər. Amma hər dəfə etiraz edib. Oğru dünyasındakı tanınmışlara məsləhətlər verən "Dayı" özü "oğru" ləqəbini götürməkdən imtina etmişdi.

2001-ci ildə doğmalarının, dostlarının təklifi ilə evlənir. Bir qızı olur. Adətən Moskvada qərar tutur. Çünki bu şəhərdə çoxlu dostları vardı. Elə Lotu Hikmət də məhz Moskvada yaşayırdı deyə, bu amilin də təsiri vardı.

2006-cı ilin aprelində "Sabirabadlı Hikmət" və "Culfalı Bayram" Moskvada öldürüldü. Bu qətl azərbaycanlı kriminal avtoritetlər arasında çaşqınlığa səbəb oldu. Yeni liderin kim olacağı, başqa kriminal qruplaşmalarla əlaqələr sual altındaydı. Məhz belə bir vaxtda "Qorbatı Ramiz" bu çaşqınlığın qarşısını ala bilir. "Dayı" Masallı Mamedin üzərində dayandı...

İndiyədək bilinmir ki, Hikmət və Bayram kriminal "razborka"ların qurbanı olub, ya bu tamam başqa bir səmtdən gələn qətllər idi.

Amma "Qorbatı" bu cinayətin axırına çıxmaq qərarına gəlir. İşə hətta "Yaponçik" belə qoşulur. Sonradan "Yaponçik"in özü də qətlə yetirilir. Amma Ramiz cinayətkarların izinə düşə bilir. Və hər şeyin məlum olacağını az qalmış... yoxa çıxır.

...Onu evdən çıxanda vurmuşdular. 5 güllə dəymişdi. Soyuq qış günündə baş vermişdi qətl. Və həmin vaxtdan onun meyitini tapmaq mümkün olmamışdı. Dostları, yaxınları, onun itkin düşdüyünü bilib, gəzmədikləri yer qalmamışdı. Morqları, xəstəxanaları, təcridxanaları belə. Ramizin meyiti bir də 9 ay sonra, qar əriyəndə tapılmışdı...

Onu Sabirabadda dəfn etdilər, böyük təntənəylə. Bir ildən sonra isə elə anadan olduğu Kürkəndi qəbiristanlığında böyük qəbirüstü abidəsi qoyulur, Sabirabadlı Hikmətin məzarının yanında...

# Azərbaycanda surroqat ana olmaq TƏKLİFİ: Qanun yox deyir, amma istəyənlər var

***Dünyanı narahat edən problemlərdən biri qadın sonsuzluğu ilə bağlıdır. Müxtəlif səbəblərdən qadınların reproduktiv orqanlarında yaranan anatomik patologiyalar, sağlamlığın pozulması və yaxud keçirilən ağır xəstəliklər onların ana olmasına maneçilik törədir. Bu səbəbdən son illərdə dünya ölkələrində surroqat ana ifadəsi ilə xarakterizə edilən yeni metodikadan istifadə olunur.***



Surroqat ana daşıyıcı ana deməkdir. Məsələn, bir qadının uşaqlığı var, ancaq yumurtalıqları fəaliyyətdə deyil, uşaq dünyaya gətirə bilmir.

Belədə genetik ana yumurtası ilə genetik ata spermasından mayalanan 3-5 günlük rüşeym uşağı dünyaya gətirməyə razı olan qadının uşaqlığına yerləşdirilir.

Son zamanlar Azərbaycanda da surroqat ana təklifi ilə bağlı sosial şəbəkələrdə, xüsusən İnstagram-da elanlara çox rast gəlmək olur. "Donor ol, pul qazan" adı ilə 18-35 yaş arasında gənc xanımlara edilən təkliflər daşıyıcı ana olmaq üçün 1000, 2000 bəzən isə 10000 manat mükafat vəd edir.

Qeyd edək ki, Azərbaycanda surroqat analıq rəsmiləşdirilməyib.

İstər insan sağlamlığı, istərsə də dini baxımdan bu metodika nə dərəcədə doğru sayılır?

Mövzu ilə bağlı Modern.az-a danışan Perinatal Mərkəzin direktoru, ginekoloq Sevinc Məmmədovanın sözlərinə görə, Milli Məclis qadın donorluğu ilə bağlı qanun qəbul edilməyib.

"Onu deyə bilərəm ki, "Reproduktiv sağlamlıq haqqında" qanun layihəsində bu məsələyə toxunulub. Milli Məclisin həm birinci, həm də ikinci oxunuşunda qadın yumurtasından istifadə edilərək onun donor olmasına deputatlar narazılıqlarını bildiriblər. Bu gün artıq məsələ gündəmdə deyil, müzakirə olunmur. Surroqat ana ilə bağlı hissə "Reproduktiv sağlamlıq haqqında" qanun layihəsindən çıxarılıb. Bir çox ölkələrdə surroqat analıqdan istifadə yolverilməzdir. Məsələ Azərbaycanda da qanun çərçivəsində təsdiq olunmayıb".

Dinşünas alim Əli Abbasov deyib ki, surroqat analığı üzərinə götürən qadının bunu nə səbəbdən etdiyini aydınlaşdırmaq lazımdır: "Məsələ orasındadır ki, bəzi ailələrin o qədər də imkanları yoxdur. Burada bir etik problem var. Əgər hansı qadınlar ki, bunu üzərinə götürürlərsə, onun bunu nə səbəbdən etdiyini aydınlaşdırmaq lazımdır. Bəziləri ola bilər ki, sırf pula görə edirlər. Bu o qədər də yaxşı hal deyil. Qohum qadından donor kimi istifadə etmək o qədər də pis deyil. Biz hər belə məsələyə fərdi yanaşmalıyıq. Çoxları bu işlə məşğul olur və ana donorluğu lehinə olan mövqedən çıxış edirlər. Düşünürəm ki, ehtiyac olmasa, surroqat analıqdan heç kəs istifadə etməz".

# İşğaldan azad olunmuş ərazilərdə radioloji vəziyyət öyrənilir

***Zəngilan rayonunda yerləşən Bəsitçay Dövlət Təbiət Qoruğunda qiymətləndirmə və bərpa işlərinin planlaşdırılması üçün Azərbaycan Milli Elmlər Akademiyasının mütəxəssislərinin iştirakı ilə ərazidə monitorinqlər aparılır.***



Unikal.org-un məlumatına görə, bu barədə Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərində məsələlərin mərkəzləşdirilmiş qaydada həll edilməsi üçün yaradılmış Əlaqələndirmə Qərargahının nəzdində fəaliyyət göstərən İdarələrarası Mərkəzin Ekoloji məsələlər üzrə İşçi Qrupun iclasında bildirilib.

İclasda qeyd edilib ki, aidiyyəti qurumlar tərəfindən Qrupun sahəvi tədbirlər planının icrasına başlanılıb. Belə ki, ekoloji vəziyyətin qiymətləndirilməsi üçün işğaldan azad edilmiş rayonlarda kompleks monitorinqlər aparılır və transsərhəd çaylara nəzarət edilir.

Həmçinin, işğaldan azad olunmuş ərazilərdə radioloji və radioekoloji vəziyyətin öyrənilməsi məqsədilə aidiyyəti dövlət orqanları ilə birgə plan-proqram hazırlanıb və sahəvi plana əlavə olunub.

# Məşhur ailədən olan sevgili, dondurma üçün ağlayan aktyor, Yaşar Nurinin gecə qonaqlığı...

***Vaxtından da yarım saat tez gəlmişdi vədələşdiyimiz yerə. Deyir, gecikməyi sevmirəm. Bilirəm, bunu gənc aktyor kimi teatrda işləməyə başladığı vaxtlardan mənimsəyib. Özündən böyük sənətkarlardan öyrənib ki, məşqə vaxtından da tez gəlib, obraza köklənməlisən, yoxsa səndən aktyor olmayacaq.***

Köhnə sənətkarlardandır - bəlkə bu ifadə bir az qulağa yatımlı alınmır, amma səhnədə, kinoda korifeylərlə işləyib, dərs alıb korifeyləşən sənətkarı başqa necə dəqiq ifadə etmək olar ki, onun içində bu sadaladıqların hamısı olsun. Xalq artisti Rafiq Əzimovdur Lent.az-ın həmsöhbəti.

Bir ildir teatrsız qalmışıq. Aktyor üçün bu böyük itkidir. İki ay evdən çölə qətiyyən çıxmadım, sonra oğlum gəldi, oğurladı məni apardı Mərdəkana bağa, dörd ay orda qaldım. Sonra gözlərimdə problem yarandı, kitab oxuya bilmədim, getdim həkimə, məlum oldu mirvari suyu gəlib, əməliyyat olundu - əvvəl biri, sonra o birisi, indi elə bil gözlərimə işıq gəlib. Yaş 83-dür. Bu gün teatrdan uzaq qalmaq çox çətindir. Evdə başım bir az qarışır. İki oğlum var, dörd də oğlan nəvəm. Qızım yoxdur deyə bilmərəm, gəlinlərim qızlarımdır. Mehriban yaşayırıq.

## Uşaqlıq

Bakıda doğulmuşam, uşaqlığım çətin keçib. 1938-ci il təvəllüdəm. Müharibə başlayanda üç yaşım vardı. Atam yollandı müharibəyə, anam çarşablı evdar qadın işləməyə məcbur oldu. İki qardaş demək olar ki, xalamgildə keçib uşaqlıq illərimiz. Anam Sabunçuda işləyirdi, bizi də qoyurdu elə orda yaşayan xalamın yanına. İşdən gələrdi ora, bir də şəhərə qayıtmazdıq ki, sabah yenə o məsafəni qət etməyək. Bakıda Vidadi küçəsində olurduq özümüz, Qurban Pirimovun evindən bir az o tərəfə, Qəmər Almaszadə ilə qonşuluqda. Əliağa Kürçaylı üzbəüzdə kirayədə yaşayırdı.

Atam müharibədən 1947-ci ildə gəlib. Müharibə qurtarmışdı. Atam gəlib çıxmırdı. Anamın gözü yollarda. Bilmədi neynəsin, bir qoca falabaxan vardı, noxudla baxırdı, onu çağırdı. Qadın yaxasından bir torba çıxardıb noxudları töküb yerlərini o tərəf bu tərəfə dəyişdi və dedi ki, bir həftə sonra saat 12-də evinizdə şadyanalıq olacaq.

Həmin deyilən vaxtda bir də baxdıq ki, evimiz aşağıda idi, yuxarıdan pilləkən düşürdü məhəlləyə tərəf, atam əsgər paltarında çiynində heybəsi pilləkənləri düşür.

Məhəlləmiz bir az şuluq idi, məni onlardan uzaqlaşdıran dram dərnəyi oldu. Anam da zəhmli qadın idi, qoymazdı məhəllə şuluqlarına qoşulam.

1 nömrəli məktəbdə oxumuşam ibtidaini, sonra 199-da, onilliyi 44 nömrəli məktəbdə başa vurmuşam. Uşaq dram dərnəyinə, böyüklər üçün dram dərnəyinə, arada da tar dərnəyinə getmişəm. Yaxşı tar çalırdım, sonralar "Vaqif" tamaşasında Vidadi rolunda səhnədə canlı tar ifa etmişəm. İndi barmaqlarım tutmur, çala bilmirəm. Kamança ifaçısı Ağacəbrayılın atası Ağasaləhdən öyrənmişdim tarı, gözəl insan idi. Opera teatrının səhnəsində dərnək üzvləri ilə birlikdə canlı konsertlə çıxış etmişdik.

Dram dərnəyinə isə Əli Qurbanov rəhbərlik edirdi. Böyüklər üçün dram dərnəyinin rəhbəri isə Lütfi Məmmədbəyov idi.

## Gənclik

Aktyor olmaq istəyirdim, atam, anam icazə vermirdi. Əmim oğlu vardı - Cəbrayıl Əzimov, rəssam idi. Gəldim ona dedim ki, atamı yola gətir, icazə versin aktyor olmağıma. Dedi, sənin qabında bir şey varsa, mən onları razı salaram. Amma sən get kinostudiyada yaşıl "Moskviç"i olan Tofiq adlı oğlan var, onun yanına. O desə ki, səndən aktyor olar, demək işlər düzəlib.

Gəldim kinostudiyaya, sən demə, bu Tofiq Kazımov imiş. Əmioğlu Cəbrayılla bir məhəllədə böyüyüblər. Mənə çoxlu sual verdi, dram dərnəyindən öyrəndiklərim köməyimə çatdı, gördü hər şeydən xəbərdaram. Dedi, ver sənədlərini instituta.

Cəbrayıl da valideynlərimi razı saldı, atam onun xətrini çox istəyirdi, sözünü yerə salmadı.

Mirzağa Əliyev adına Teatr İnstitutuna qəbul olunanda cəmi 55 nəfər tələbə idik institutda. Kursun rəhbəri Məhərrəm Haşımov idi, rus dramasında rejissor işləyirdi. Dərslərimiz də həmin teatrda keçilirdi.

## Teatr

2-ci kursda oxuyanda Moskvada keçirilən Azərbaycan mədəniyyəti və ədəbiyyatı ongünlüyündə dörd tamaşa ilə çıxış etdik. Hamımız tələbə olduğumuzdan tamaşaçılar bizi çox yüksək səviyyədə qarşıladılar. Kursumuzda Həsən Məmmədov, Hacımurad Yegizarov, Elmira Şabanova, Tofiq İsmayılov, Zəyyar Ağayev - bir sözlə, hamısı sonradan böyük sənətkar olacaq adamlar.

Moskvadan qayıdandan sonra Həsənə dedim ki, gedək öz milli teatrımızda işləyək, rus dramasında işləməyəcəyik ki. Gəldik kütləvi səhnələrdə bizə rol verdilər, Adil İsgəndərovun vaxtları idi. Ələsgər Ələkbərov, Mərziyyə Davudova, Fatma Qədiri, Ağasadıq Gəraybəyli kimi nəhənglər işləyirdi həmin vaxt.

Tələbə kimi hər çıxışımıza 80 qəpik pul yazırdılar teatrda. 10 tamaşa oynayırdıq, 8 manat yaxşı pul idi, üstünə gəl təqaüd.

İnstitutu qurtardıq, təyinatımı verdilər işlədiyim teatra. O vaxt bu vaxt, bir gün də olsun başqa teatrda işləməmişəm. İkinci belə aktyor yoxdur.

O vaxt yaşlı aktyorlar gənclərin sənətə münasibətinə çox fikir verirdilər. Hər şey sənətə münasibətdən başlayır.

## Kino

Teatra məşqə gedirdim, bir qadın yaxınlaşdı mənə, soruşdu ki, kinoya çəkilmək istəyirsiniz? Gənc aktyora belə sual verilər? Əlbəttə, istəyirəm!

Teatrdan məşqdən çıxıb getdim kinostudiyaya. Həmin qadın məni bir rus rejissora təqdim etdi ki, bu da bizim Əli dayı - obrazın adı ilə. "Mosfilm"in rejissorunun çəkdiyi "Mənim əziz atam" adlı filmdə Əli dayı obrazına çəkildim ilk dəfə.

Viktor Qalyakinin bütün əsərlərini oxudum, bir hekayəsi əsasında filmə çəkilib başa çatınca. Əminə Yusifqızı həmin filmdə həyat yoldaşıma çəkilib. İkimiz də gənc aktyorlar idik. İlk çəkilişə mən iki dənə dəbdə olan "Kəmşirin" çaxırı aldım, Əminə də "Abşeron" tortu. Çəkiliş yerində rejissor bizi filmin qəhrəmanı ilə tanış etdi. Dedi ki, Saşa, tanış ol, Əli dayı gəldi. Saşa üzünü çevirəndə görəm Şurik - Aleksandr Demyanenko. Çox sevindim. Bu da məni görən kimi, əllərini qaldırıb necə - o....- etdisə dedim yəqin məni tanıyıb, qayıtdı ki, "Kəmşirin", məlum oldu ki, əllərimdəki çaxırı salamlayır. Aldı əlimdən, dərhal açdı, süzdü, tanışlığımız şərəfinə içdik.

Kəmşirinin hesabına yaxşı söhbət yarandı, mən də həm ssenari barədə, həm də oxuduğum əsər barədə fikirlərimi bölüşüb, nəticədə ssenariyə görə yığcam olan obrazıma povestdən bəzi yerlər də əlavə edirib böyütdüm. Filmdə dörd övladım vardı, üçünü tapmışdılar, dedilər dördüncünü özün tap. Tapdım gətirdim, dedilər bu uşaq kadrda ağlamalıdır. Çox balacadır, bacaracaq? Dedim bacaracaq. Bunu da həvalə etdilər mənə.

Çəkiliş vaxtı dondurmasatan gəlmişdi, o biri uşaqlar gedib dondurma alıb yedilər, gördüm bu balaca da istəyir. Getdim dondurmasatana dedim ki, o gələndə vermə dondurma. Elə də oldu, satıcı ona dondurma satmadı ki, sənə olmaz, uşağa haqsızlıq təsir etdi də, necə yəni hamıya olar mənə yox, başladı ağlamağa. Kadrı çəkdik. Uşaq da mənim böyük oğlum idi, dörd yaşı vardı. Sonradan dedim rejissora.

Oynadığım film Bakı həyatından bəhs edirdi. Obrazım Əli dayı isə Rasim, Rafiz İsmayılov qardaşlarının atalarının prototipi idi. Rafiz indiyə kimi də mənə "papaşa" deyir.

Bununla da ardıcıl çəkildim - "7 oğul istərəm", "Xatirələr sahili", "Qızıl qaz", "Ad günü", "Arxadan vurulan zərbə" və sair. Hələlik sonuncu rolum Rüfət Həsənovun "Daxildəki ada" filmində Ənvər roludur. Mərdəkanda bağda olub çəkilişlər, onun öz bağında, mən də Mərdəkanda olurdum elə. İnternetdə gördüm ki, bu film Serbiyada festivalda 49 ölkə arasında birinci yeri tutub. Sevindim, çox sevindim ki, kinomuz uçurumdan çıxır.

## Evlilik

Yoldaşım məşhur ailədəndir. Sonradan bildim bunu. Bir institutda oxuyurduq, o mədəni-maarif fakültəsində, məndən iki kurs aşağıda təhsil alırdı. Hamıdan seçilən görkəmi vardı. Dərslərə başımız çox qarışırdı, çox məşğul idik, qızla görüşməyə vaxt yox idi. Bir dostun ad günündə rastlaşdıq. Sonra yeni il şənliyində təsadüfən görüşdük. Sonra artıq mən bu qızı institutda özüm tapdım. Nigardı adı, Əsgərağa Goraninin nəvəsidir. 1873-cü ildə teatrın əsası qoyulan "Lənkəran xanının vəziri" tamaşasında Teymur ağanı oynayıb. Nəcəf bəy Vəzirov, Əliqulu Qəmküsarla tərəf müqabili olublar. İlk teatr tamaşasında rastlaşdıq.

1964-cü ildə "Səadət" sarayında toyumuz oldu. Barat xanım Şəkinskayanın toyumuzda bizə hədiyyə etdiyi büllur vaz hələ də evimizin bəzəyidir. Qızı Solmaz da tələbə yoldaşımız idi. Qonaqlara baxın e, Əliağa Ağayev, Lütfi Məmmədbəyov, Həsən Məmmədov, Kamil Qubuşov, daha kimlər. Hayıf ki, Qürbət Qurbanov məni aldatdı ki, şəkilləri mən çəkəcəm, rəhmətlik gəlmədi, nəticədə toydan şəkillərimiz olmadı.

Gülağa Məmmədov öz dəstəsi ilə toyu oxuyurdu. İlk dəfə türk mahnılarını Gülağa oxuyub Azərbaycanda, bizim toyda da oxuyurdu.



İçərişəhərdə Məmmədəlinin kababçısından bir az yuxarıda yaşayırdıq ailəlikcə, iki dar otaqda. Şahmar Ələkbərovla bir həyətdə olurduq. Şahmarın əkiz qızları da orda dünyaya gəlib.

Cəmi 4 il idi teatrda işləyirdim, bəxtim gətirdi, mənə ikiotaqlı mənzil verdilər, 4-cü mikrorayonda. Rəhilə Mirzəyeva imtina elədi ki, mikrorayon uzaqdır, getdim Tofiq Kazımovdan xahiş etdim, dedi mümkün qədər çalışacam alınsın, alındı. Komsomol fəalı kimi verdilər mənə, o vaxt komsomolun hörmətli vaxtları idi. Məmmmədrza Şeyxzamanovla, Leyla Bədirbəyli ilə məsləhətləşib, deyiblər ki, gənc ailədir, verilsin ona.

Sonra 9-cu mikrorayonda üç otaq verdi mənə dövlətimiz. Son vaxtlar da sağ olsun, prezidentimiz yeni ev verdi mənə Yasamaldan. Hazırda orda yaşayıram. Yayda Mərdəkana bağa gedirik. Kiçik oğlum İsmayıllıda da ev tikib. Hərdən yayda ora da gedirik. Oğlanlarımı da yerbəyer etmişəm, Allah hamıya qismət etsin.

9-cu mikrorayonda yaşayanda Səməndər Rzayevlə, Yaşar Nuri ilə, Əliabbas Qədirovla qonşu idik.

## Məzəli əhvalat

Bir dəfə usta suyu açıq qoyub, axıtmışdı Yaşarın təzə təmir edilmiş evinə. Dedim, Yaşar bizi öldürəcək. Bir az keçdi, gecə vaxtıdır, qapı döyüldü, baxdım ki, Yaşar. Dedim qırğın başlayacaq. Açdım qapını gördüm Yaşar əlində sinidə şampan, meyvə. Dedim Yaşar, söyəcəksən məni? Qayıtdı ki, yox, alə, qonşu qonşunun başına su axıtmadı day bu qonşuluğun nə ləzzəti, gəldim bunu qeyd edək.

Belə əhvalatlar çox olub həyatımızda. Deyirlər, bunlardan kitab yaz, deyirəm indi kitab oxuyan var bəyəm...

***Ramilə Qurbanlı***

# Bilməyərək evinizdən atdığınız qiymətli şeylər

***Hər gün biz özümüz də bilmədən bir çox müalicəvi təsirə malik olan dərmanları atırıq. Dərman dedikdə biz kimyəvi təsirli preparatları yox, hər gün mətbəxtdə istifadə etməyib zibilliyə atdığımız qida artıqlarını nəzərdə tuturuq. Hansı ki, bu qida artıqları mətbəxtdə yemək hazırlayarkən artıq qalır və biz onlardan istifadə etmirik. Bəs bunlara nələr aiddir?***

**Yumurta qabığı.**

Yumurta qabığı dırnaqların qopması, diş qanaxmaları, astma, artrit, opsteoparoz, sümüklərdə tez-tez baş verən sınmalar, revmatizma zamanı faydalıdır. Yumurta qabığını əzib toz halına gətirilmiş halı hər gün hamilə qadının yeməyinə qatılarsa, o hamiləlik zamanı kalsium çatışmazlığından əziyyət çəkməz. Bu 6 yaşına qədər uşaqlar üçün də keçərlidir. Bunu əldə etmək üçün yumurta qaynar suda yaxşı yuyulur, içərisi boşaldılır, pərdəsi çıxarılır. Sonra yumurtanın qabığı uşaqlar üçün hazırlananda sobada, böyüklər üçün isə kölgədə qurudulur. Daha sonra isə qəhvəüyüdəndə üyüdülür və toz halına gətirilir. Üyüdülmüş yumurta qabığı tünd rəngli şüşə qabda saxlanılır.

**Kartof qabığı.**

Kartof qabıqlarını 10 dəqiqə qaynadıb suyunu soyuduqdan sonra içmək arterial təzyiqi aşağı salır. Bunun üçün gündə 4 dəfə 2 xörək qaşığı yeməkdən əvvəl bu suyu içmək lazımdır. Kartof qabıqlarının qaynadıldığı su ilə inhalyasiya edildikdə bronxit əlamətləri azalır və öskürək kəsilir. Kartof qabıqlarını suya qatıb tam həll olana qədər qaynadıb və əldə edilən horranı sinə və kürək nahiyəsinə kompores kimi qoyduqda bəlgəm yumşalır və bronxlardan qopub xaric olur.

**Soğan qabıqları.**

Soğan qabığından hazırlanan dəmləməni angina zamanı boğaza qoyduqda ağrı azalır. Həmin dəmləmə ilə ağız boşluğunu qarqara etdikdə stomatit, parodontit və angina əlamətləri aradan qalxır. Dəmləməni hazırlamaq üçün 3 xörək qaşığı xırdalanmış soğan qabığı yarım litr soyuq suya salınıb qaynadılır və üstü örtülüb 4 saat dəmlənir. Sistit zamanı 3 çay qaşığı xırdalanmış soğan qabığı 2 stəkan suda qaynadılır və 30 dəqiqə dəmlənir. Gündə 2 dəfə, hər dəfə ? stəkan dəmləmədən 4-5 gün içilir.

**Qarpız tumu.**

Osteoxondroz zamanı 400-500 qram təzə qarpız tumu salınmış isti suda vanna qəbul eləmək xəstəliyin əlamətlərini azaldır. Müalicə müddəti 15 vannadan ibarətdir. Orqanizmdə şişkinliklər olduqda qarpız tumu sidikqovucu təsir göstərir. Bu zaman 1 hissə xırdalanmış qarpız tumu 10 hissə suda qaynadılır və gündə 3-4 dəfə, hər dəfə yarım stəkan qəbul edilir.

Qapızın saplağına yaxın olan yaşıl hissəsi dairəvi kəsildikdə 80-100 qram yaşıl hissə yarım litir qaynar suya salınır. Soyuduqdan sonra gündə 4-5 dəfə yarım stəkan içildikdə yoğun bağırsaqlardakı iltihabi proses aradan qalxır. Qarpız tumlarını yedikdə orqanizmin cinsi həvəsi artır.

**Yemiş tumu.**

Yemiş tumu angina və bronxit zamanı boğaz ağrılarını kəsir və sinəni yumşaldır. Yemiş qabıqları salınmış su ilə vanna qəbul etdikdə dəridə olan allergiya əlamətləri aradan qalxır. Müalicə kursu 7-10 vannadan ibarətdir. Yemiş tumları cinsi zəifliyi aradan qaldırır.

**Banan qabığı.**

Banan qabığını kəsilmiş, cızılmış, zədədən göyərmiş nahiyəyə qoyduqda həmin hissə tez sağalır.

**Sitrus bitkilərinin qabıqları.**

Sitrus qabıqları vasitəsilə vanna qəbul etdikdə sinir sistemi sakitləşir. Bu qabıqları xırda doğrayıb qızdırıcı sobanın üstünə qoyduqda evin havası təmizlənir.

**Nar qabıqları.**

Nar qabıqlarını qaynadıb ağız boşluğunu qarqara etdikdə diş əti qanaxmaları dayanır, ağız boşluğunda olan iltihabi proseslər aradan qalxır. Bunun üçün 1 xörək qaşığı xırdalanmış nar qabıqlarının üzərinə 1 stəkan qaynar su əlavə edilir və 30 dəqiqə qaynadılır. Nar qabığı və tumunun əzməsindən hazırlanan məlhəm ekzemanı sağaldır. Nar qabığı dəmləməsi bağırsaq infeksiyaları zamanı da çox faydalıdır. Həkimlər hormonal pozğunluqları olanlara nar yeyərkən onun çəyirdəyini də çeynəyərək əzib yeməyi məsləhət bilirlər.

# Yeyəyək arıqlamaq istəyirsinizmi?

***Bunun üçün aclıq hissini aradan qaldırmaqla yeyərək arıqladan qidalardan istifadə edin. Aşağıdakı qidalar orqanizmdəki yağların əriməsində yarıdımçı olur.***



Yeyərək arıqlamaq hər bir qadının arzusudur. Ətrafımızda bu qədər yeməklərin və müxtəlif dadlı qidaların olduğu zaman onlardan dadmamaq əslində mümkün deyil. Amma bəzi qidalar vardır ki, onlardan çox istifadə etdikdə orqanizmdə yığılıb qalan artıq piylərdən azad olmaq mümkün olur. Belə qidalar orqanizmin vitamin balansını saxlamaqla piyləri əridir. Həmin qidalardan gün ərzində istədiyiniz qədər yeyərək aclıq hissinizi aradan qaldrmaqla arıqlamaq olur. Belə qidalara aşağıdakılar aiddir:

**1. Yumurta.**

Suda bişirilərkən sarısı tam bərkiməmiş yumurtanın tərkibində çoxlu vitamin və minerallar var. Bir bişirilmiş yumurta orqanizmin zülala olan sutkalıq ehtiyacını 15%-ni ödəyir.

**2. Turşuya qoyulmuş kələm.**

Kələm orqanizmin enerjiyə və vitamin C-yə olan tələbatını ödəmək qabiliyyətinə malikdir. Kələm lifli tərəvəz olduğuna görə o qəbizliyi aradan qaldırır, bağırsaqların fəaliyyətini sürətləndirir və həzm sistemini yaxşılaşdırır. Turşuya qoyulmuş kələm orqanizmdə hüceyrələrin yenilənməsi prosesini sürətləndirir və qanda pis xolesterinin miqdarını azaldır. Kələm turşusunun tərkibində olan antioksidantlar qocalmanın qarşısını alır.

**3. Közdə bişən kartof.**

Közdə bişən kartofun kaloriliyi az olur və mədə-bağırsaqdan rahat sorulur. Bu cür kartofun tərkibində olan minerallar əzələlərdə olan qıcolmaların aradan qalxmasına səbəb olur. Közdə bişən kartof cinsi zəifliyin aradan qalxmasına səbəb olur.

**4. Qatıq.**

Gün ərzində bir-neçə dəfə qatıq yeyərək aclıq hissini aradan qaldırmaq mümkündür. Amma gərək qatığın yağlılığı 2%-dən artıq olmamalıdır. Qatığın tərkibində olan kalsium və zülallar bağırsağın mikroflorasını yaxşılaşdırır.

**5. Ənginar.**

Bu tərəvəzin tərkibi az kalorilidir, amma zülal və karbohidratla zəngindir. Ənginardan hər gün istifadə etmək orqanizmin qidalardan aldığı kalorilərin mənimsənilməsinə səbəb olur.

**6. Lobya.**

Mütəxəssislər arıqlamaq istəyənlərə hər gün suda bişən qırmızı lobya yeməyi məsləhət bilir. Qırmızı lobya orqanizmdəki artıq piylərin əriməsinə səbəb olur. Qırmızı lobya həzmi sürətləndirərək qəbizliyi aradan qaldırır və adamı tox tutaraq aclıq hissini aradan qaldırır.

**7. Badam.**

Dietoloqların fikrinə görə badam arıqlamaq üçün ən yaxşı vasitədir. Belə ki, aclıq hissi zamanı badam yemək qida qəbuluna olan tələbatı azaltmaqla yanaşı orqanizmin vitamin və mineral balansını ödəyir.

**8. Zeytun.**

Zeytun mədəyə düşən qidanı nəzarət altına alır və onun çəkini artırmasına yol vermir. Gün ərzində 10 ədəd zeytun yemək və ya 1 qaşıq zeytrun yağı içmək orqanizmdə yağ-piy və duz mübadiləsini normallaşdırır, toksinləri xaric edir.

**9. Kişmiş.**

Kişmiş orqanizmdə depolanmış piylərin parçalanmasında mühüm rol oynayır. Kişmişdən hazırlanmış cem isə orqanizmi tox tutaraq aclıq hissini aradan qaldırır və artıq qida qəbuluna yol vermir. Cemi hazırlamaq üçün 100 qram kişmiş, 100 qram qaysı, 100 qram qara gavalı, 200qram bağayarpağı üyüdülür və üzərinə bal əlavə edilir. .Cemdən gün ərzində 2 dəfə 1xörək qaşığı yedikdə toxluq hissi yaranır və orqanizm zərər görmədən arıqlayır.

# Simptomatik arterial hipertoniyalar

***Müxtəlif xəstəliklərin əlaməti kimi meydana çıxan arterial təzyiq və ya hipertoniyalar simptomatik adlanır. Yəni arterial təzyiq özü sərbəst xəstəlik kimi yox,başqa bir xəstəliyin əlaməti kimi meydana çıxır.***



Simptomatik hipertoniyanın əmələ gəlməsinə aşağıdakılar səbəb ola bilir:

- hormonal vasitələr
- kortikosteroidlər
- iltihab əleyhinə qeyri-steroid preparatlar
- böyrək xəstəlikləri
- endokrin xəstəliklər
- beyin qatının zədələnmələri
- bədxassəli şişlər
- duzun birincililəngiməsi
- nevroloji xəstəliklər
- ensefalitlər
- qurğuşunla zəhərlənmələr
- beyin şişləri
- cərrahi müdaxilələrlə əlaqədar olaraq meydana gələn arterial təzyiq

Simptomatik hipertoniyanın inkişaf etməsinin hər bir xəstəlik üçün fərqli cəhətləri mövcuddur.Bu zaman təzyiqin xüsusiyyəti xəstəliyin inkişafının xarakterindən və xüsusiyyərlərindən asılı olur.Yəni təzyiqin yüksəlməsi orqanizmdə baş verən xəstəliyin əmələ gətirdiyi patolojiyaların dərəcəsindən asılı olur.

Arterial təzyiqin yüksəlməsi baş ağrıları,baş gicəllənmə,gözün qarşısında ləkələrin olması,qulaqlarda küyün olmas,ürək nahiyəsində müxtəlif xarakterli ağrıların olması və digər subyektiv əlamətlərlə özünü göstərir.Bu zaman göz dibində patoloji dəyişikliklər baş verir.

Simptomatik arterial təzyiq zamanı təzyiqi aşağı salan dərman preparatlarının xəstəyə köməyi çox az olur.Belə ki,bu zaman təzyiqi aşağı salmaq üçün onu törədən səbəbləri aradan qaldırmaq lazım gəlir.

Gedişinə görə simptomatik arterial təzyiq xoşxassəli və bədxassəli olur.Bədxassəli təzyiq xəstələrin 30%-ində rast gəlinir.Onun xarakterik əlaməti ölçülərindən asılı olmayaraq təzyiqin kəskin və davamlı yüksək olmasıdır.Bu cür bədxassəli təzyiq bir müddət sonra aşağıdakı xəstəliklərin əmələ gəlməsinə səbəb olur:

- ağır retinopatiya
- böyrək çatışmazlığı
- müxtəlif ürək xəstəlikləri
- insult

Bədxassəli marterial təzyiq zamanı təzyiqin diastolik səviyyəsi 130-140 mm civə sütunundan yuxarı olur.

# Mükafat fondu artırıldı - yığmalarımızın oynayacağı Avropa çempionatında

***Voleybol üzrə Avropa çempionatlarının mükafat fondu artırılıb.***

"Unikal"ın məlumatına görə, bu barədə qərarı Avropa Voleybol Konfederasiyası (CEV) verib.

Bu il keçiriləcək kişilər və qadınlar arasında qitə çempionatının hər birində 1 milyon avro sahibini tapacaq. Öncədən bu rəqəmin 750 min avro olacağı planlaşdırılırdı.

Avropa çempionu olacaq yığmalar 500 min qazanacaq. Bu, milli komandaların qitə miqyaslı turnirləri üçün rekord məbləğdir.

İkinci yerin sahibi 250 min əldə edəcək. Bürünc mükafatçı 150, 4-cü yerin sahibi 100 min qazanacaq.



Qeyd edək ki, Azərbaycan millisinin də qatılacağı qadınların yarışı avqustun 18-dən sentyabrın 4-dək Belqrad (Serbiya), Plovdiv (Bolqarıstan), Zadar (Xorvatiya) və Klujda (Rumıniya) keçiriləcək. Kişilər sentyabrın 1-19-dək Krakov, Qdansk, Katovitse (Polşa), Ostrava (Çexiya), Tallin (Estoniya) və Tampere (Finlandiya) şəhərlərində oynayacaq. Azərbaycan millisi çempionatın seçmə mərhələsində mübarizə aparmalıdır.

# Yığmamız Braziliya ilə təlim-məşq toplanışında

***Azərbaycan cüdoçuları beynəlxalq təlim-məşq toplantısında iştirak edirlər.***

Cüdo Federasiyasından Unikal"a verilən məlumata görə, gələcək beynəlxalq yarışlara hazırlıqlarını davam etdirən kişilərdən ibarət milli komandamızın üzvləri hazırda Özbəkistandadır.

Paytaxt Daşkənd şəhərində təşkil olunan beynəlxalq təlim-məşq toplantısında aparıcı cüdoçularımız iştirak edirlər. Beynəlxalq Cüdo Federasiyasının təşkilatçılığı ilə baş tutan məşqlərə Azərbaycan cüdoçuları ilə yanaşı Fransa, Yaponiya, Koreya, Monqolustan, Almaniya, Rusiya, İtaliya, Braziliya, Çexiya, Ukrayna, Özbəkistan, İspaniya, Gürcüstan, Niderland, Qazaxıstan və digər ölkələrin yığmaları qatılıb. Qeyd edək ki, cüdoçularımız mart-aprel aylarında Tbilisi və Antalyada təşkil olunacaq "Böyük Dəbilqə" yarışında, eləcə də Portuqaliyada keçiriləcək Avropa çempionatında mübarizə aparacaqlar.



# Ronaldu Bekhemin komandasında oynaya bilər

***İtaliyanın "Yuventus" klubunun ulduz futbolçusu Kriştianu Ronaldu karyerasını ABŞ-da davam etdirə bilər.***

"Unikal" "Daily Star"a istinadən xəbər verir ki, 36 yaşlı hücumçu ABŞın "İnter Mayami" klubunun sahibi, İngiltərə yığmasının keçmiş üzvü Devid Bekhemlə əlaqə yaradıb.



O, MLS təmsilçisində oynamaq ehtimalını nəzərdən keçirir. Qeyd edək ki, Kriştianu Ronaldunun "Yuventus"la müqaviləsi 2022-ci ilin yayında başa çatmalıdır. Portuqaliyalı oyunçunun maaşı ildə 31 milyon avrodur. Forvard Turin klubuna 2018-ci ilin iyulunda İspaniyanın "Real Madrid" klubundan 117 milyon avroya keçib.

# Lisenziya turniri üçün heyəti açıqlandı - güləş yığmamızın

***Güləş üzrə Azərbaycan milli komandasının lisenziya xarakterli ilk turnirə qatılacaq heyəti müəyyənləşib.***

"Unikal" qəzetinin məlumatına görə, yığmamız Macarıstanın paytaxtı Budapeştdəki yarışa 16 güləşçi ilə qatılacaq.

Martın 18-21-dəki turnirdə 5 sərbəst güləşçimiz xalça üzərinə çıxacaq. Bunlar Giorgi Edişeraşvili (57 kq), Hacı Əliyev (65 kq), Hacımurad Hacıyev (74 kq), Abubakr Abakarov (86 kq), Camaləddin Maqomedovdur (125 kq).

Qadın güləşində Leyla Qurbanova (53 kq), Alena Kolesnik (57 kq), Tatyana Omelçenko (62 kq), Elis Manolova (68 kq) və Gözəl Zutova (76 kq) mübarizə aparacaq. Yunan-Roma güləşi üzrə yığmada isə Murad Mamedov (60 kq), İslambek Dadov (67 kq), Sənan Süleymanov (77 kq), İslam Abbasov (87 kq), Murad Lokyayev (97 kq) və Beka Kandelaki (130 kq) yer alıb.

Qeyd edək ki, yığmamız artıq iki lisenziya qazanıb. Hər iki vəsiqəni milliləşən legionerlər əldə edib. Mariya Stadnik (50 kq) qadın, Şərif Şərifov (97 kq) sərbəst güləşdə bunu bacarıb.

# Rafael Ağayev bir illik fasilədən sonra tatamiyə qayıdır

***Bir illik fasilədən sonra Azərbaycan milli komandası beynəlxalq karate turnirlərinə qatılacaq.***

Karate Federasiyasının mətbuat xidmətindən "Unikal"a verilən məlumata görə, idmançılarımız martın 12-14-də İstanbulda Karate 1 Premyer Liqa turnirində iştirak edəcəklər.

Qurumun prezidenti Yaşar Bəşirovun rəhbərlik etdiyi heyətdə 21 idmançı yer alıb. Yarışa yollanan baş məşqçilər Qurban Tağıyev, Denis Morozov və Vaid Ayvazov, eləcə də böyük məşqçilər Şahin Xudaverdiyev və Rəşad Hüseynovun bəzi çəkilərdə bir neçə idmançı ilə tatamiyə çıxacaq.

Kumiteçilərdən Firdovsi Fərzəliyev, Sultan Hüseynov, Əminağa Quliyev (hər üçü 60 kq), Tural Ağalarzadə, Rafiz Həsənov (hər ikisi 67 kq), Rafael Ağayev, Fərid Ağayev (hər ikisi 75 kq), Turqut Həsənov, Pənah Abdullayev, Ayxan Mamayev (hər üçü 84 kq), Asiman Qurbanlı və Əli Cəfərov (hər ikisi +84 kq) çəki dərəcəsində döyüşəcək. Qadınların yarışında isə Nuranə Əliyeva, Fidan Teymurova (50 kq), İlahə Qasımova, Mədinə Sadıqova (hər ikisi 55 kq), İrina Zaretska (68 kq) və Fəridə Əliyeva (+68 kq) mübarizə aparacaq.

Kata çıxışlarında Roman Heydərov (fərdi), həmçinin Rövşən Əliyev, İsmayıl Quliyev və Tural Balcanlıdan ibarət komanda iştirak edəcək.

Beynəlxalq hakimlər Cahangir Babayev, Vüqar Kərimov və Anar Allahverdiyev nüfuzlu Premyer Liqa turnirini idarə edənlər arasında olacaq. İstanbulda Karate1 Premyer Liqa turnirinə 75 ölkədən 865 karateçi qatılacaq.

Milli komanda yarışdan əvvəl İstanbulda 10 günlük təlim-məşq toplanışında iştirak edib.

# Püşk atıldı: Məmmədyarov ilk turda Aronyana rəqib oldu

***Şahmat üzrə dünya çempionu Maqnus Karlsenin təşkil etdiyi Çempionlar Turunun IV mərhələsinin püşkü atılıb.***

"Report" xəbər verir ki, Azərbaycan təmsilçilərindən Şəhriyar Məmmədyarov ilk turda Ermənistan təmsilçisi Levon Aronyana rəqib olub.

Teymur Rəcəbov isə birinci turda niderlandlı Aniş Giri ilə üz-üzə gələcək. Rəcəbov ağ, Məmmədyarov qara fiqurlarla oynayacaq.

İki azərbaycanlı şahmatçı arasında görüş isə XIII tura təsadüf edəcək.

Azərbaycan şahmatçılarının bütün görüşlərinin təqvimi belədir:

**I tur**

Levon Aronyan (Ermənistan) - Şəhriyar Məmmədyarov

Teymur Rəcəbov - Aniş Giri (Niderland)

**II tur**

Teymur Rəcəbov - Alan Piçot (Argentina)

Şəhriyar Məmmədyarov - Daniil Dubov (Rusiya)

**III tur**

Uesli So (ABŞ) - Teymur Rəcəbov

Hikaru Nakamura (ABŞ) - Şəhriyar Məmmədyarov

**IV tur**

Şəhriyar Məmmədyarov - Yorden van Forest (Niderland)

Teymur Rəcəbov - Levon Aronyan (Ermənistan)

**V tur**

Daniil Dubov (Rusiya) - Teymur Rəcəbov

Maksim Vaşye-Laqrav (Fransa) - Şəhriyar Məmmədyarov

**VI tur**

Şəhriyar Məmmədyarov - Alireza Firuzca (FIDE)

Teymur Rəcəbov - Hikaru Nakamura (ABŞ)

**VII tur**

Yorden van Forest (Niderland) - Teymur Rəcəbov

Maqnus Karlsen (Norveç) - Şəhriyar Məmmədyarov

**VIII tur**

Şəhriyar Məmmədyarov - David Anton (İspaniya)

Teymur Rəcəbov - Maksim Vaşye-Laqrav (Fransa)

**XIX tur**

Alireza Firuzca (FIDE) - Teymur Rəcəbov

Nils Qrandelius (İsveç) - Şəhriyar Məmmədyarov

**X tur**

Aniş Giri (Niderland) - Şəhriyar Məmmədyarov

Teymur Rəcəbov - Maqnus Karlsen (Norveç)

**XI tur**

David Anton (İspaniya) - Teymur Rəcəbov

Şəhriyar Məmmədyarov - Yan Nepomnyaşi (Rusiya)

**XII tur**

Sergey Karyakin (Rusiya) - Şəhriyar Məmmədyarov

Teymur Rəcəbov - Nils Qrandelius (İsveç)

**XIII**

Şəhriyar Məmmədyarov - Teymur Rəcəbov

XIV tur

Teymur Rəcəbov - Yan Nepomnyaşi (Rusiya)

Alan Piçot (Argentina) - Şəhriyar Məmmədyarov

**XV tur**

Şəhriyar Məmmədyarov - Uesli So (ABŞ)

Sergey Karyakin (Rusiya) - Teymur Rəcəbov

***Qeyd edək ki, püşkə əsasən, ilk 5 tur martın 13-də, VI - X turlar martın 14-də, XI - XV turlar martın 15-də keçiriləcək. İlkin mərhələnin yekununda 8 ən güclü şahmatçı 1/4 finala yüksələcək. Turnirə martın 21-də yekun vurulacaq.***

# Nazəninlə dalaşıb, Təranə ilə barışdı



***Müğənni Manaf Ağayevlə Nazənin dostluğu bitib. Bu haqda prodüser-aparıcı Tarix Əliyev (Tolik) "Günə bir şou" proqramında deyib. O bildirib ki, M.Ağayev Nazəninə görə danışmadığı həmkarı Təranə Qumralla barışıb.***

"Manaf özünə 50 illik yubiley edəndə, bizi çağırmadı. Çox qırıldım. Amma tədbirlərin birində qarşılaşanda ona bu haqda sual verdim. Dedim, nəsə olmuşdu, bizi ad gününə çağırmadın? Durdu baxdı, dedi ki, ilk dəfədir cavab tapmıram" deyə, Təranə deyib.

Tolik isə Manaf Ağayev və Afət Fərmanqızının Nazəninə görə bir vaxtlar Təranə ilə danışmadığını, indi isə barışdıqlarını söyləyib. O deyib ki, Manafla Nazənin hazırda danışmır.

Təranə "Həmin xanımın sənət aləmində çoxları ilə danışmır. Deməli, problem onun özündədir" sözlərini əlavə edib.

Qeyd edək ki, Nazəninlə Təranə arasında qalmaqal fəaliyyəti dayandırılan ANS telekanalında proqramlardan birində başlamışdı. Tərəflər bir-birini təhqir etmiş və məhkəməyə vermişdi.

# "110 min dollarlıq avtomobili bir manatsız götürmüşəm" - Yusif Mustafayev

***44 ildir toyda oxuyuram. İldə 150 toya gedərdim. Heç vaxt korluq çəkməmişəm.***

Unikal.org xəbər verir ki, bu barədə Əməkdar artist Yusif Mustafayev "Günün sədası" proqramında söhbət açıb. İfaçı dəvət aldığı toy sahibləri ilə qonoror barəsində danışmadığı bildirib:



"Elə bilirlər ki, mənim milyonlarım var. Amma heç nəyim yoxdur. tək milyonum canımın sağlığıdır. Məndən toy qiyməti soruşanda qonorar demirəm. Deyirəm ki, nə versən, min bərəkət. O, qiymət deməkdən daha yaxşıdır. Bir dəfə yanımda bir müğənniyə zəng etdilər, 6500 manat istədi. Qızına zəng etdi ki, gətirməyim, bahadır. Amma məcbur danışdı. Məndən soruşanda isə cavab verdim ki, nə olacaq, Allah bərəkət versin. Qayıtdı ki, sən uddun. Bu adam dostlarına deyib ki, toyda həmin müğənniyə bir manat xərclənməsin, hər şey Yusifə edilsin. Ürəyimdə tutduğum məbləğin dörd qatını yığdım. Axırda bir paket verdilər ki, Bakıda götürəcəklər. Yolda zəng vurdular ki, paket sənindir. Açdım ki, o məbləğ də ürəyimdə tutduğumdan çoxdur. Mənə bir maşın bağışlayıblar ki... Bir zənglə getdim, kağıza qol çəkib, 110 min dollarlıq avtomobili bir manatsız götürdüm. Hamısı etdiyim gözütoxluğa görədir".

# "Yoqa edirəm, bulvarda qaçıram" - Niyaməddin Musayev

***Xalq artisti Niyaməddin Musayev sağlam qalmağının sirrini açıqlayıb.***

"Unikal" axşam.az-a istinadən bildirir ki, 80 yaşlı müğənni "Xəbər-ətər" proqramında bu haqda danışıb. O bildirib ki, hər gün idman edir:

"Yoqa edirəm, qaçıram, yüngül atletika ilə məşğulam. Yoqanı etmək çox çətindir. İdman zalları indi bağlıdır, açıq olanda gedirdim. Amma evdə də hərəkətlər edirəm. Bulvarda qaçıram. İdman etmək istəyənə 1 metr yer də bəsdir. İradəsi yoxdursa, yalandan yola verəcək. Sənət adamı özünə baxmalıdır: geyiminə, davranışına, danışığına".



# "Bütün evlərimi satmışam, kirayədə yaşayıram" - Aygün Kazımova

***Xalq artisti Aygün Kazımova ARB kanalında yayımlanan "Həmin Zaur" proqramına qonaq olub.***

Unikal.org xəbər verir ki, sənətçi proqram boyunca bir sıra açıqlamalar verib. Diva bütün evlərini satdığını, kirayədə yaşadığını etiraf edib. Aparıcı Zaur Kamalın "Bəs, Röya ilə qonşu olduğun ev?" sualına, ifaçı "Röya ilə qonşu olduğum ev də kirayədir. Amma şikayət etmirəm, halımdan məmnunam",- deyə cavab verib.

# "Pandemiyada ər çörəyi yedim" - Xuraman Şuşalı

***"Pandemiyada ər çörəyi yedim. Nə yığmışdımsa, hamısını yedik, getdi".***



"Unikal" axşam.az-a istinadən bildirir ki, bu sözləri müğənni Xuraman Şuşalı "Hüseynova bacıları" verilişində deyib. Sənətçi ərinin maaşının azlığından gileylənib: "Yoldaşımın maaşı çox azdır. Komunal xərclərimizi ödəyir, evə yemək alır. Ailə quranda bilirdim ki, necə qazancı olan adamı seçmişəm. Ona görə də hər zaman haq-hesabımı bilmişəm".

# Səidə Sultan: "Ərə getmək istəsəm, uzun geyinərəm"

***Hamı deyir ailə qur. Ailə fikirləşirəmsə, efirə uzun geyinib gələrəm. Əzəldən uzun geyinib, özümü hazırlayaram.***



"Unikal" axşam.az-a istinadən bildirir ki, bu sözləri müğənni Səidə Sultan "Günə bir şou" proqramında deyib. Sənətçi aparıcı-prodüser Tarix Əliyevin (Tolik) "Gün olsun ailə qur, evinin xanımı ol" sözlərinə belə cavab verib:

"Azərbaycanda özünü uzun paltarla satırsan: mən abırlı qızam. Bizdə reallıq budur. Qeyrəti başqa yerə yozurlar. Qeyrət insanın içində olmalıdır. Məni olduğum kimi qəbul edən biri olsa, ailə quracam. Kimə görəsə, dəyişməyəcəm".